# QARABAĞ AZADLIQ TƏŞKİLATI

# “QARABAĞ DÜNƏN, BU GÜN VƏ SABAH”

**17-ci elmi-əməli konfransının**

## MATERİALLARI

## KONFRANS AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN 100 İLLİYİNƏ HƏSR OLUNUR

**BAKI-2018**

**Redaksiya heyəti:** *fəlsəfə elmləri doktoru* Əli Abasov,

*tarix elmləri doktoru* Qasım Hacıyev,

*tarix elmləri doktoru* Kərim Şükürov,

*tarix elmləri üzrə fəlsəfə doktoru* Firdovsiyyə Əhmədova,

*iqtisadiyyat üzrə fəlsəfə doktoru* Şamil Mehdi.

**QAT (Qarabağ Azadlıq Təşkilatı). "Qarabağ dünən, bu gün və sabah"** *17-ci elmi-əməli konfransının materialları toplusu.*
Bakı, 2018, səh. ...

Buraxılış Azərbaycan-Ermənistan müharibəsi ilə əlaqədar 2018-ci il mayın 22-də keçirilən "Qarabağ dünən, bu gün və sabah" 17-ci elmi-əməli konfransının məruzə və çıxışlarının materiallarını əhatə edir.

This edition covers theses of lectures and speeches o scientific-practical conference "Karabakh yesterday, today and tomorrow", which was held on May 22, 2018, concerning to settlement of Azerbaijan-Armenia war.

**Redaksiyadan**

Bu nəşrdə "Qarabağ dünən, bu gün və sabah" mövzusunda 17-ci elmi-əməli konfransının Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və onun birbaşa təcavüzü nəticəsində yaranmış Azərbaycan-Ermənistan müharibəsinin müxtəlif cəhətlərinə həsr olunan materialları toplanmışdır.

Qarabağ Azadlıq Təşkilatının təşəbbüsü ilə 2018-ci il 22 mayda Bakı şəhərində keçirilən bu konfransın da məqsədi Azərbaycan-Ermənistan münaqişəsinin yaranmasının kökləri və həlli perspektivləri haqqında beynəlxalq ictimaiyyəti məlumatlandırmaqdan, həmçinin taleyüklü problemə dair ədalətli və reallığa uyğun ümumi mövqe formalaşdırmaqdan ibarətdir.

**From Editorial**

These of reports of the 17th scientific- practical conference "Karabakh yesterday, today and tomorrow", dedicated to Azerbaijan-Armenia war, arising from territorial claim and realizing aggression to Azerbaijan by Armenia? Were published in this edition.

This conference is held on initiative of Organization of Karabakh Liberation on May 22, 2018 has a goal to infrom international public opinion about the root of origin and perspectives of settlement of Azerbaijan-Armenia conflicte and also too form common, fair and real position on this vital problem.

**От Редакцин**

В этом опубликованы материалы докладов 17-ый научно-практической конференции "Карабах вчера, сегодня и завтра", посвященной Азербайджано-армянской войне, возникшей в результате территориальных претензий Армении к Азербайджану и ее прямой агрессии.

Конференция, проводимая по инициативе Организации Освобождения Карабаха в городе Баку 22 мая 2018 года, преследует своей целью информирование международной общественности о корнях возникновения и перспективах разрешения Азербайджано-армянского конфликта, а также формирование общей, справедливой реалистичной позиции по этой жизненно важной проблеме.

**Akif Nağı**

## Dağlıq Qarabağ münaqişəsinin həllində

## İslam Həmrəyliyi əsas amil kimi

İstənilən dövlətlərarası münaqişədə beynəlxalq amil, xarici güclər vacib rol oynayır. Əksər hallarda münaqişələr məhz bu amillərin təsiri altında meydana gəlir və onların iştirakı olmadan həllini tapa bilmir. Münaqişələr beynəlxalq güclərin marağı ilə yaranır və onların maraqlarına uyğun da həllini tapır. Bu güclərdən ədalətli mövqe gözləməyinə dəyməz, maraqların təmin olunmasını gözləmək lazım gəlir. Bu mənada Dağlıq Qarabağ münaqişəsi də istisna deyil. Və bu yanaşmanı səsləndirməkdə məqsədimiz bədbin əhval-ruhiyyə yaratmaq deyil, əksinə, reallığı bilib, düzgün qərarların çıxarılmasına yardımcı olmaqdan ibarətdir.

Biz burada diqqəti Dağlıq Qarabağ münaqişəsinin həlli üçün beynəlxalq, xarici amillərdən düzgün istifadə olunması imkanlarına yönəltmək istəyirik. Bu günə qədər beynəlxalq amil dedikdə BMT, ATƏT, bir az da Avropa Şurası və Avropa İttifaqının vasitəçilik imkanları, həmçinin ABŞ və Rusiyanın maraqları, iddialarının uzlaşdırılması mümkünlüyü nəzərdə tutulub, ümidlər məhz bu amillərin təsiri altında nəticə əldə olunacağına bağlanıb. Bu ümidlərin özünü doğrultmadığı göz önündədir. Beynəlxalq təşkilatlarla böyük güclər münaqişənin həlli üçün "səyləri"ni birləşdirdilər və nəticədə Minsk qrupu, sonra isə onu əvəz edən Minsk qrupu həmsədrləri institutu meydana gəldi. Beynəlxalq təşkilatlarla böyük güclərin ayrı-ayrı yanaşmalarını araşdırmağa ehtiyac qalmadı, bu məsələdə onlar tam yekdillik nümayiş etdirdilər, hətta barışmaz ziddiyyətlər içərisində çarpışan Rusiya ilə ABŞ Dağlıq Qarabağ münaqişəsinin dondurulmuş vəziyyətdə saxlanılması, yəni status-kvonun dəyişdirilməməsi, Azərbaycan torpaqlarının bir hissəsinin, Dağlıq Qarabağ və ətraf 7 rayonun Ermənistanın işağlı altında qalması beynəlxalq təşkilatların da, Rusiya və ABŞ-ın da maraqlarına cavab verir. Beynəlxalq təşkilatların maraqlarını nominal, formal maraqlar hesab etmək olar. Çünki bu qurumların özlərinin konkret marağı yoxdur, onlar müxtəlif situasiyalarda ABŞ və ya Rusiyanın maraqlarının daşıyıcıları kimi çıxış edirlər. Ona görə də hər şəraitdə Rusiya və ABŞ-ın maraqlarından və beynəlxalq qurumların görüntü-maraqlarından danışmaq daha düzgün olardı.

Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövcud vəziyyət ABŞ və Rusiyanı tam qane edir, maraqlarına cavab verir. Çünki Ermənistanın işğalı altında olan Dağlıq Qarabağ və digər Azərbaycan ərazilərinə tam və real nəzarət Rusiyanın, şərti və nominal (istənilən vaxt reallığa keçə biləcək) nəzarət isə ABŞ-ın əlindədir. Hər iki ölkənin Ermənistana təsir imkanları güclüdür. İlk baxışdan

Rusiya daha əlverişli mövqedə görünür. Amma ABŞ-ın təsir imkanları daha genişdir, sadəcə olaraq, həmin imkanları hələlik göstərmək və nümayiş etdirmək istəmirlər.

ABŞ və Rusiya yaranmış vəziyyətdən Azərbaycan, Türkiyə və İrana təsir etmək, xüsusilə də Azərbaycanı nəzarət altında saxlamaq üçün istifadə edirlər. Təbii ki, Dağlıq Qarabağ münaqişəsindən Yaxın Şərq oyunlarında da əlavə "kart" kimi istifadə olunur. Böyük dövlətlər, əsas oyunçular Yaxın Şərq "bazarlığı"nda Dağlıq Qarabağ məsələsindən də yararlanmağı çalışırlar.

Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli ilə bağlı islam həmrəyliyindən danışarkən iki əsas məsələyə aydınlıq gətirməliyik. Birincisi, müsəlman Azərbaycana qarşı xristian Ermənistanın təcavüzü nəticəsində yaranmış Dağlıq Qarabağ münaqişəsi dini qarşıdurma xarakteri daşıyır, yoxsa yox?! İkincisi, müsəlman ölkələri bu davada Azərbaycanın haqlı mövqeyini müdafiə edərkən islam həmrəyliyi, ümmət təşəbbüskeşliyi mövqeyindən, yoxsa konkret maraqlarından çıxış etməlidirlər?!

Birinci məsələ ilə bağlı qeyd etməliyik ki, dünyadakı bütün münaqişələr eyni vaxtda dini, etnik, siyasi və digər cəhətləri özündə birləşdirir, sırf "təmiz", yalnız bir cəhəti özündə ehtiva edən münaqişə müşahidə olunmur. Bu baxımdan Dağlıq Qarabağ münaqişəsi də istisna təşkil etmir, bütün cəhətləri özündə əks etdirir. Dağlıq Qarabağ münaqişəsində bütün cəhətlərlə yanaşı dini aspekt özünü qabarıq şəkildə göstərir. Sirr deyil ki, Azərbaycana qarşı Ermənistanın təcavüzünə ideya rəhbərliyi erməni kilsəsi tərəfindən həyata keçirilir. Ermənistan işğal etdiyi Azərbaycan ərazilərində islam dininə məxsus hər şeyi, abidələri, məscidləri, qəbirstanlıqları xüsusi canfəşanlıqla məhv etməyə, islam izini itirməyə çalışır. Ermənistan rejimi bu münaqişədə insanları həm azərbaycanlı, həm də müsəlman olduqlarına görə xüsusi qəddarlıqla, kütləvi şəkildə qətlə yetirib və bu siyasəti davam etdirməkdədir. Aparıcı xristian dövlətlərinin bu günə qədər Ermənistanı müdafiə etməsi, işğalçı Ermənistana qarşı sanksiya və digər təzyiq formalarının tətbiq olunmaması da dini amillə bağlıdır.

İkinci məsələ ilə bağlı hər kəs bilməlidir ki, islam həmrəyliyi və ümmət təəssübkeşliyi hər bir müsəlman ölkəsinin maraqlarına xidmət edir. İslam dəyərlərinin qorunması üçün hər bir müsəlman ölkəsi məsuliyyət daşıyır. Hər il həcc ziyarətinə, digər müqəddəs yerlərə yığışan milyonlarla müsəlman hər hansı bir ölkədə, o cümlədən Azərbaycanda düşmən tapdağında qalan ibadətgahların fərqinə varmalıdır. Bölgədə müsəlman ölkəsinin güclənməsi təəssübkeşlərimizin hər birinin maraqlarına cavab verir. İslam dünyası ilə xristian dünyası arasında qarşıdurma xətti Qarabağdan keçir. Qarabağda ədalətli qələbə bütün müsəlman dünyasının təntənəsi olacaq. Qarabağda Ermənistan və onun xristian havadarları, daha doğrusu Ermənistan vasitəsilə siyasət yeridən xristian dövlətləri qalib gələr və möhkəmlənərlərsə, Yaxın Şərq, Mərkəzi Asiya və digər ərazilər üçün ciddi təhlükə mənbəyi yaranmış olacaq. Ona görə də, Qarabağda Azərbaycanın haqq

işinə yardım edən hər bir müsəlman ölkəsi həm islam dünyasına, həm özünün konkret maraqlarına xidmət edir.

Aparıcı müsəlman ölkələrinin Fələstin məsələsi, Kəşmir problemi, Dağlıq Qarabağ münaqişəsi, son Qətər, Myanma və İraqdakı kürd böhranları ilə bağlı göstərdikləri dəstək islam həmrəyliyinə dair müsbət nümunə kimi göstərilə bilər. Lakin bu məsələlərin heç biri hələ də öz həllini tapmayıb. Bunun əsas səbəblərindən biri, ən başlıcası isə real islam həmrəyliyi modelinin tapılmamasındadır. İslam ölkələri real birliyə nail ola bilmir, İslam Əməkdaşlıq Təşkilatının (İƏT) qərarları deklarativ xarakter daşıyır. İslam ölkələri isə öz aralarındakı ziddiyyətlərdən xilas ola bilmirlər. Çox vaxt bu ziddiyyətlər heç bir ciddi əsasa söykənmir, daha çox dünyanı idarə etmək istəyən beynəlxalq güc mərkəzləri tərəfindən süni şəkildə yaradılır. Müsəlman dövlətləri isə bu ziddiyyətlərin girovuna çevrilirlər. Bu gün üçün aktual olan Suriya məsələsini misal gətirə bilərik. Aparıcı müsəlman ölkələri prosesin əvvəlində əks qütblərdə dayandılar. Əslində lap əvvəldən mövqelərini uzlaşdıra bilərdilər. Bu uzlaşdırma prosesi, təəssüf çox gec başladı, amma artıq öz müsbət nəticələrini verməkdədir. İraqda kürd separatçılarının qondarma "müstəqillik" oyunlarının qarşısını almaq üçün də islam həmrəyliyi həlledici rol oynayır.

Biz başa düşürük ki, dünyanı sərt şəkildə xristian və müsəlman düşərgələrinə bölmək olmaz. Bu, dünyanın özünü fəlakətə apara bilər. Biz bunu istəmirik, amma Qərb ideoloqları bu bölgünü artıq aparıb, liberalizm (oxu: xristianizm) və islam arasında ziddiyyətləri əsas mübarizə meydanı elan edib, "islam terrorizmi"nə qarşı mübarizə adı altında yeni səlib yürüşünə başlayıblar. Bu Qərb ideoloqları və siyasətçilərinin çox böyük yanlışlığıdır və yaxşı bir nəticəyə gətirib çıxarmayacaqdır. Biz bu qarşıdurmanın tərəfdarı deyilik, amma bu yürüşün qarşısında dayana bilmək üçün islam dünyasının güc mərkəzinə çevrilməsi vacibdir. Güc mərkəzinin formalaşması üçün isə bir və ya bir neçə lider ölkənin qəbul olunması vacib şərtdir. Hər bir ölkə bir və ya bir neçə ölkənin ətrafında birləşməyi ümumi maraqlar naminə özünə borc bilməlidir. Lider ölkə üçün əsas şərt siyasi, hərbi, iqtisadi güc və bir də müstəqil siyasət aparmaq göstəricisi olmalıdır. Xristian dünyası ABŞ, Almaniya və Rusiyanın bu liderliyini xoş, naxoş qəbul edir. Yerdə qalan dünya da onlara baxıb bu liderlərlə hesablaşmaq zorunda qalır. İslam dünyasında liderliyə Türkiyə, İran, Pakistan, İndoneziyanın parametrləri uyğun gəlir. Azərbaycan və Qazaxıstan da islam güc mərkəzinin yaranmasına ciddi töhfə verə bilərlər.

İslam dünyası özünün güc mərkəzinin formalaşmasına doğru getməli və paralel olaraq bu günkü vəziyyətində də bir çox problemlərin həllində öz iradəsini ortaya qoymalıdır. Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı islam ölkələrinin ciddi və konkret dəstəyinə ehtiyac vardır. Bu günə qədər aparılan vasitəçilik missiyası heç bir nəticə vermədi. Çünki bu vasitəçilik xristian dövlətləri tərəfindən həyata keçirilib. Bu cür vasitəçilik missiyası bundan sonra da nəticə verməyəcək. Xristian dövlətləri münaqişənin ədalətli həllinə deyil, Ermənistanın istəklərinə uyğun "həlli"nə çalışırlar. Bu, bir reallıqdır. Bu

vəziyyətdən yeganə çıxış yolu müsəlman ölkələrinin real və konkret dəstəyi ola bilər. Biz, Qarabağ Azadlıq Təşkilatı olaraq, on ilə yaxındır ki, bu istiqamətdə təbliğat aparırıq. Türkiyə, Pakistan, Əfqanıstan, İndoneziya, Özbəkistan münaqişənin əvvəlindən işğalçı Ermənistana qarşı sərt mövqe tutublar. İran, Səudiyyə Ərəbistanı, Qazaxıstan müəyyən çərçivələr daxilində münaqişənin ədalətli həllinə çalışıblar. Digər müsəlman ölkələri də vaxtaşırı dəstəklərini verirlər. Lakin bunlar hələ ki öz effektiv nəticəsini verməyib. Biz Dağlıq Qarabağ münaqişəsinin həlli üçün hesab edirik ki, əvvəla, İslam Əməkdaşlıq Təşkilatı (İƏT) xüsusi toplantısını keçirməli, işğalçı Ermənistana qarşı diplomatik, iqtisadi, mədəni və digər sahələri ehtiva edən sanksiyalara dair qətnamə qəbul etməlidir. Hər bir müsəlman ölkəsi bu qətnamənin tələblərinə birmənalı şəkildə əməl etməlidir. İkincisi, hər bir müsəlman ölkəsi Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllində Azərbaycana siyasi və hərbi dəstək verməyə hazır olduğunu bildirməli və mövqeyindən geri çəkilməməlidir. Üçüncüsü, hər bir müsəlman ölkəsində Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlər geniş şəkildə təbliğ olunmalı, müsbət ictimai rəy yaradılmalıdır. Biz Qərb ölkələrinin ədalətli mövqe tutacağına, Rusiyanın insafa gələcəyinə inanmırıq. Biz öz gücümüzə torpaqlarımızı işğaldan azad edə bilərik. Lakin Qərbin və Rusiyanın himayə etdiyi Ermənistana qarşı dəstəyə ehtiyacımız vardır. Bu dəstək isə yalnız islam ölkələrindən gələ bilər və inanırıq ki, bu dəstək hökmən gələcək.

**Asya Əhmədova**

## Gözü yolda qalan kəndim

Mən uşaq olanda bizim bir kəndimiz vardı...

Uca dağları, gur şəlalələri olmasada,təpəsinə çıxanda ta Arazın o tayınacan ayaqların altında qalan dovşangüllü, dağçiçəyili, laləli, barbarislı hündür dərələri, süpürgəli, yovşanlı, çobanyatığılıalçaq təpələri, Kumqayası, Sarıtəpəsi, Yazidüzü, qırağ arxı, dəyirman arxı, qobusu, şirəsi, bol sulu Həkərsi və birdə kəndimizin olmazsa olmazı Günbəzi vardı. O hündür dərələrin ən hündür yerində bir sürüşkən daş vardı. Ən bahalı atraksionlar belə onu əvəz edə bilməzdi. Uşaq ayağı ilə nəfəsimiz kəsilə-kəsilə o daşın yanına qalxanda sevincdən uçardıq. Oynayıb, əylənib yorulanda dərənin dibindəki dərin çaylaqlardan qumlu saqqız yığa-yığa dönərdik evə...

O alçaq təpələrin alçaq yerində bir Xınadaşı vardı- lap Qaval daşı boyda. O daşın üstündə oturub əllərimizə xına yaxa-yaxa, evcik oynaya-oynaya böyüyərdik. Eləki, biraz böyüdük qırağ arxda palaz yuyar, kollardan böyürtkən dərər, Həkərinin şirin sulsrında acı qıcı yığardıq...

Mən uşaq olanda bizim bir evimiz vardı...

Günbəzdən biraz yuxarıda, çay daşlarından tikilmiş, üzü gündoğana, geniş həyətli, al-əlvan çiçəkli, bağ-bostanlı evimiz. Eyvanına gün döyərdi səhər açılanda. Hələ yazbaşı, meh əsəndə iydə çiçəyinin ətri qızılgül ətrinə qarışar, butnumuzu dalayardı.

Mən uşaq olanda bizim bir bağımız vardı...

Gul qoxulu, iydə ətirli bağımız. Heyvalı, narlı, ərikli, şaftalılı, fındıqlı bağımız. Gilənar ağacları ilə dövrələnmiş, tut ağaclarıyla sıralanmış bağımız. Çox sevərdim tutu. Yetişəndən savılanacan düşməzdim başından. “Tut ağacım, tut ağacım, de köksünə neçə çarpaz dağ çəkmişəm, neçə körpə budağını mən əzmişəm”. Bir də gilas ağacı – Krım gilas deyərdik ona. Mən o ağacı çox sevərdim. Bəlkədə inandırıcı deyil, bir vaxtlar camaat ev-eşiyi üçün ağlayanda mən o ağac üçün ağlamışdım... Bağımızda ağac çox idi, hər şey vardı, alçadan başqa. Alça Dədəmgildəydi.

Mən uşaq olanda Dədəmgil vardı...

Hər gün Dədəmgilə gedərdik. Çox uzaq deyildi Günbəzin düz yanında, yolun qırağında. İkimərtəbəli evin eyvanından əl atıb alma dərər, iki diş vurub bir-birimizə atardıq. Elə alçanıda dədəmgildə yeyərdik. Çiçəyi töküləndən yetişənəcən ağacdan əl çəkməzdik. Cibimizə duz doldurub oturardıq ağacın başında, dişlərimiz qamaşanacan aşağı düşməzdik. Arada nənəmin səsi gələrdi “Ay bala qoyun yetişsin sonra yeyərsiz, onsuzda hamısını siz yeyirsiz... ” biz də gülə-gülə cavab verirdik ki, “Ay nənə özün deyirsənki, hamısını biz yeyirik, səninçün nə fərqi”. Beləcə yazda alça, yayda alma, payızda nar yeməkdən doymazdıq.

Dədəmgilin bağlı-bağatlı həyətində bir guşə də vardı. Çiçəklərlə əhatələnmiş, nanə döşəməli, qızılgül ətirli bir bağça və bu bağçanın ortasında bir su quyusu. Suyu bumbuz. Qaçmaqdan, oynamaqdan yorulanda ağzımızı “şlanka” dirəyib dişlərimiz üşüyənəcən içərdik.

Məhlə uşaqları yığışıb ortada qaldı, yeddi şüşə, beşdaş və daha nə oyunlar oynayardıq... Nə günlər idi... Yox elə bilməyin ki, biz günlərimizi yeməklə, oynamaqla keçirərdik. Dərs də oxuyurduq, ev işlərinə də kömək edirdik - quzu otarırdiq, toyuqlara dən verirdik, tütün əkirdik, tütün yığırdıq, su daşıyırdiq, həyət süpürürdük və daha nələr, nələr. Hər şeyə də vaxt çatırdı. Bir də axı mən uşaq olanda günlər uzun idi.

Amma, mən uşaq olanda bu kəndi heç bəyənməzdim. Meşəsı, dağı, şəlaləsi yoxdu, işləri çoxdu deyərdim kəndimizin. Tez böyüyüb şəhərə getmək istəyərdim.

...Və bir gün fələyin çərxi döndü, böyüklü-kiçikli hamımız şəhərli olduq... O mahnıdakı kimi, “Öz qoynuna aldı bizi, bu buruqlar şəhəri”. Üzümüzdə təbəssüm dondu, ağzımızın dadı qaçdı... Daha uşaq deyildik, bir gündə böyümüşdük sanki. Uşaqlığımız xatirələrimizə qarışıb kənddə qalmışdı. Daha oyun oynamırdıq, indi oyunu həyat bizə oynayırdı. Kəndləri şəhərlər, evləri yataqxanalar, həyətləri küçələr əvəz edirdi. “Sən ey uşaqlıq, sən bizdən uzaq düşdün artıq, de səni yellər apardı, ya soyuq əllər apardı”. İndi həyat başqa idi.

Indi kənd uşağı sözünü "opşijitel uşağı", "qaşqın uşağı"sözü əvəz edirdi. İndi yataqxanalarda böyüyürdü uşaqlar. "Görmədik biz gül dəstəsi, görmədik biz oyuncaq"- bax bu isə əsl qaşqın uşağının həyatı idi. İndi nağıllar "biri vardı, beşi yox" deyə başlayırdı.

... Əslində hər şey çoxdan başlamışdı. Lakin, 1993-cü ilin avqustunda vəziyyət daha da ciddiləşdi. Amma təəssüfki, o vaxtlar mən kənddə deyildim. Ali məktəbə qəbul imtahanı üçün mayın sonlarında Bakiya gəlmiş, lakin imtahanların vaxtı uzadıldığı üçün geri dönə bilməmişdim. Şəhərə üz tutanda hardan biləydimki, birdə heçvaxt bu kəndə dönə bilməyəcəm. Və hardan biləydim ki, vaxt gələcək doğma kəndimə 25 illik həsrətimi ovutmaq üçün yaxınlarımın göz yaşları ilə anlatdıqları kəndin son günlərindən bəhs edən ağrılı-acılı heykayələri yazmaqla təsəlli tapacağam.

Kiçık bacımın danışır ki: "Axşamtərəfi idi, toran vurulmuşdu. Kəndə qəfildən bir uğultu düşdü. Sanki yarpaqlar da, güllər də uğuldayırdı. Bu uğultunu dillə ifadə etmək mümkün deyil. Hamı üzüaşağı yüyürməyə başladı. Hay düşdü ki, Ramazan ölüb. Anam da hamı kimi Ramazangilə tərəf qaçdı. Ramazangilin evi bizə çoxda yaxın deyildi. Ancaq səslər eşidilirdi. Hamı vəlvələyə düşmüşdü. O günə qədər heç kəs ermənidən qorxmurdu. Amma Ramazan ölmüşdü, yəni erməni Ramazan kimi oğulu öldümüşdüsə... Axı Ramazan deyirdiki, "Əzrayıl məndən qorxur". Mamam yasdan qayıdanda dedi ki, Cəbrayılı alıblar. Amma Bakı yolunu bağlamayıblar. Çox həyəcanlı nə narahat idi. Sonra ürəyi getdi, hüşunu itirdi daha nə hallara düşdu. Qorxusu qızlarından idi. Bircə onu deyirdi ki, qızlarımı kənddən çıxarmalıyam. Xocalı təkrarlana bilər. Çünki yolu bağlasalar biz mühasirədə qalırdıq. Böyük bacım ikinci kursda oxuyurdu. Yay tətili üçün kəndə gəlmişdi. Biz topun-tüfəngin səsinə öyrəşmişdik, amma o şəhərdən təzə gəldiyi üçün atışma səslərinə öyrəşməmişdi, çox qorxurdu. Mamam bizə dedi ki, hazırlaşın dayın sizi şəhərə aparacaq, amma çantanı balaca tutun, maşında yer olmaz. Bacım ağlaya-ağlaya albomdan şəkilləri çıxarmağa başladı. Mən ona güldüm, o isə acıqlandı ki, tez ol paltarını yığ. Mən getmək istəmirdim, getməyəcəm deyirdim. O gecə kənddə heç kim yatmadı, hamı qorxu içində idi. Işıqların sönməsi camaatı daha da vahimələndirdi. Hər gələn səsə elə bilirdik ermənidi. Əslində ölümdən qorxmurduq. Mən neçə vaxt idi qardaşımın cəbhədən gətirdiyi qranatı gizlətmişdim. Fikirləşirdim ki, xəyallarımı həyata keçirmək vaxtıdır. Düşünürdüm ki, heçnə edə bilməsəmdə ən azından qranatla tankın altına girib bir erməni tankını məhv edərəm. Amma anamın həm o hallara düşməsi, həm də mənə qışqırıb acıqlanmağı, Xocalının təkrarlanması qorxusu, mənə daha çox etiraz etməyə imkan vermədi. Həm də baxdım ki, etirazımın faydası yoxdur. Maşına oturub kənddən çıxanda mən bilirdim ki, bu sondu. Yola çıxanda istədim qışqırıb dayıma deyəm ki, saxla düşüm, mən getmirəm. Amma demədim, dönüb qəbristanlığa baxdım... Ordan Bakiya neçə saatlıq yolu necə gəldiksə onu xatırlamıram, çünki bütün xəyalım kənddə qalmışdı. O gün

kənddən ancaq qızları çıxarmışdılar, oğlan uşaqları, hətta analar da əksəriyyəti kişilərlə bərabər kənddə idi”.

Bəli o gün – avqustun 25-i kəndimiz ilk şəhidini qarşıladı. O günə qədər kəndimizin neçə igid oğlu döyüşlərdə yaralansada, sağalıb yenidən cəbhəyə qayıtmışdı. Amma Ramazan qayıda bilmədi. O gün, Mütəllim müəllimin sözləri ilə desək, “Ölümü öldürən oğul” ölümsüzlüyə qovuşdu. O gün - kəndimiz ilk şəhidi ilə qaralara boyandığı gün - elektirik işığı da həmişəlık kəsildi. O gün kəndimizin işıqlı günlərinin sonu, qaranlıq günlərinin başlanğıcı oldu.

Böyük bacımın deyir ki,

“Axşamüstü işıqlar sönmüşdü. Hava qaralmağa başlayanda qışqırıq və ağlaşma səsləri kəndi bürüdü. Hay düşdü ki, Ramazan ölüb. Çox ağır və dəhşətli gecə idi. Işiqlarin kəsilməsi gecənin dəhşətini daha da artırırdı. Qaranlıq gecədə kənd sanki ulayırdı. Mən çox qorxurdum. Bacım isə qorxmurdu. Silah səslərini sayırdı. Hamısını da səsindən tanıyırdı. 7 alazan, nə bilim neçəsə qrad və s. Gecə səhərə kimi üç evin arasında qaldıq – dədəmgil, əmimgil və biz. Saat 3-də əmimgilə getdim. Əmim qızı pərişan halda pilləkəndə oturmuşdu. Gecəni yatmadıq. Səhər 6-da evdən çıxdıq...

...Anam hazırlaşın, Bakıya, dayıngilə gedirsiz deyəndə elə bilirdim ki, biz gedəcəyik anam, atam və qardaşlarım burda öləcəklər. Anam gecə bizə son nəsihətlərini verdi. Dedi “belkə biz də gələrik, bəlkə də qismət olmaz bizi birdə görməzsiz. Böyük sənsən, bacıların sənə əmanət, bir-birinizdən muğayət olun, bir-birinizə həyan olun, ağılla-başla dayıngildə oturun, dayının sözündən çıxmayın”. Mən ağlayırdım elə bilirdim ki, onları birdaha görməyəcəyəm. Tələbə yataqxanasında tanış olduğum Xocalıdan olan iki bacı yadıma düşdü. Bütün ailə üzvləri Xocalıda ermənilər tərəfindən öldrülən bu qızlar deyirdi ki, ailəmizdən bizə bircə şəkil belə qalmayıb. Ağlaya-ağlaya albomdan bir-neçə şəkil çıxartdım. Paltarlarımı bir çantaya yığdım. Tələbə yoldaşlarıma söz verdiyim üçün iki gün əvvəl uşaqlarla Quru dərəyə qalxıb, meymungülü, solmazçiçəyi və başqa şəfalı bitkilər yığmışdım. Bir çantaya da bu çiçəkləri və iki kitab - Dəri xəstəlikləri ensiklopediyası və Sabirin “Hophopnamə”sini qoydum. 15 yaşlı kiçik bacım getməyəcəyəm deyə inad edir, heç paltarlarını da yığmırdı. Anam ona acqlandı və dedi ki, mütləq gedəcəksən. O, çarəsiz halda otağa keçdi və qardaşımın ona verdiyi hərbi formanı geyib qayıtdı. Sübh tezdən dayım bacımla məmi, iki körpə uşağıyla əmim qızini, özünün 11 yaşlı qızını və 7 yaşlı kiçik oğlunu götürüb kənddən çıxdı. Yolda yadıma düşdü ki, tələbə yoldaşlarıma söz verdiyim dərman bitkiləri və sevimli kitablarım yadımdan çıxıb qalıb. Kənddə maddi olaraq qalanlardan ən çox təəssüfləndiyim o iki kitab və yığdığım çiçəklər oldu... Kənddən çıxıb Cəbrayıla doğru irəlilədikcə rastlaşdığımız mənzərə çox dəhşətli idi. Müharibə və qaçqınlar barədə, köç edən insanlar barədə çox filmlərə baxmışam. Ancaq o yollarda gördüyüm və heç vaxt unutmadığım mənzərəni nə yerli, nə də xarici filimlərdə göctərilməyiblər. Baxdıqca sonu görünməyən insan və heyvan köçü, hamının əlində, belində bağlamalar. Heyvanların da üstünə yük yığmışdılar. Hətta itin də belinə yük

bağlamışdılar. Camaat yollarda pərişan, yorğun, ətraf pintilik, qan içində ölüb qalan heyvan leşləri, minik maşınının yük yerindən başı görünən inək balası, yolun kənarlarında his basmış çaydanlarda çay qaynatmağa çalışan adamlar və s. Ətrafdakı mənzərənin ağırlığından dayımın halı pisləşirdi, maşını güclə idarə edirdi. Bir arada dayım dağın başındakı silahlıları gösrərib dedi ki, ermənilərdi, yəqin yolu özləri açıq saxlayıblar ki, camaat getsin. Çox sıxlıqdan irəliləmək mümkün olmurdu. Hər an atacaqlar, hücüm edəcəklər qorxusu ilə zərbənin haradan gələcəyini gözləyirdik. Həycan icində 4-5 saatlıq yolu 12 saata gəldik. Axşam saat 7-də Lökbatanda yaşayan dayımın evinə çatdıq. Böyük dayım bizi yerləşdirib sabah erkəndən geri qayitdi".

Kəndimizin işığı Qubadlının Xanlıq kəndindəki elektrik yarımstansiyasından gəlirdi. Xanlıq kəndi ilə bizim aramızda 2 kənd vardı. Qubadlını ələ keçirməyə çalışan düşmən avqustun 25-də bu stansiyanı dağıtdığı üçün kənddə işıqlar kəsilmişdi. Cəbrayılın ardından avqustun 31-də Qubadlı da tamamilə işğal olundu. Artıq Zəngilan tək idi.

Bir həftə içində iki rayonu işğal edən ermənilər hiyləgərliklə düz iki ay Horadiz yolunu açiq saxladı ki, Zəngilan əhalisi erməni vahiməsindən, erməni xofundan qorxub, müqavimət göstərmədən qaçsın. Lakin belə olmadı. Iki ay lampa işığında oturub, ocaqda yemək bişirən əhalı televizorsuz, radiosuz, xəbərsiz çətin günlər keçirsədə kəndi tərk etməyi ağlına belə gətirmirdi. Əhalinin özxoşuna çıxmayacağını başa düşən erməni Horadiz yolunu bağlayaraq Zəngilanı mühasirəyə salır və güclü orduilə hücuma keçir. Zəngilan isə mərkəzdən kömək gözləyirdi. Kömək isə yalnız Arazın suyunu azaltmaq oldu. Tək çarə əhali çayı keçənə kimi yüngül silahlarla da olsa düşmənin döyüş texnikasının qarşısına çıxıb mübarizə aparmaq idi.

...O gün kəndə yayılan xəbər hamını məyus etmişdi. "Düşmən yaxınlaşır, güclü döyüşlər gedir. Əhali zərər görməsin deyə mal-qarasını yığıb Arazın sahilinə, İran sərhəddinə çəkilməli, ara sakitləşəndə yenidən evlərinə qayıtmalı idi". Heç kəsin ağlına belə gəlmirdi ki, bu kənddəki son gündür.

Mən uşaq olanda bizim bir itimiz vardi – Qarabaş. Balaca küçük ikən bir coban vermişdi atama. Qəribə it idi Qarabaş. Hara getsək bizim yanımıza düşüb, bizi müşayət edər, gedəcəyimiz yerə çatanda geri dönərdi. Biz evə qayıdana kimi Qarabaş dəfələrlə getdiyimiz yerə baş çəkər, yenidən evə dönərdi. O qədər gedib-gələrdi ki, eyni vaxtda həm evə nəzarət etmiş olurdu, həm də biz geri dönəndə bizimlə birlikdə qayidardı. Çox vəfalı it idi Qarabaş. Son vəfasını da kənddən çıxmamaqla göstərdi. Biz qoyub gəlsəkdə o, yenə evimizi qorumaq üçün evə döndü...

Kənddən çıxanda qardaşım mal-qara ilə bərabər Qarabaşı da özü ilə götürür. Lakin vəfalı it Günbəzin yanına çatanda sanki geri dönüşün olmadığını başa düşüb qayıdır. Qardaşım nə qədər çalışsada, nə qədər səsləsədə Qarabaşı geri qaytara bilmir. Qarabaş uzaqlaşıb dayanır, qardaşım gözdən itənəcən arxasınca uzun-uzadı baxır və ilk dəfə olaraq qardaşımı və mal-qaranı tək buraxıb evə dönür.

Anamın xatırladıqlarından: "Oktyabrın 25-i idi. Kişidə, oğlumda işə getmişdi. Məndə sacda yuxa bişirirdim. Əvvəl qardaşım xəbər gətirdi ki, mühasirədəyik. Erməni Horadiz yolunu bağlayaraq hücuma keçib. Ağır döyüş gedir, düşmənin qarşısını almaq çətin olacaq. Tezliklə kəndə çatacaqlar. Əhali əsir düşməmək üçün Araz sahilinə çəkilir. Sonra böyük oğlum işdən qayıtdı. Dedi camaat kənddən çıxır sən hələ çörək bişirirsən. Qalan gündələri birləşdirib fətir bişirdim. Kişi də gec gəldi. Heyvanlara ot biçməyə gedibmiş. Bir neçə dəst yorğan-döşək və bir neçə zəruri əşyalar maşına yükləyib Araza tərəf getdik. Böyük oğlum da məhəllənin kişiləri ilə bərabər mal-qaranı Araza tərəf sürdü. Evdən çıxanda saat beş olardı. Toyuq-cücələri, ördək və qazları yerinə yığıb dən verdim. Hinin qapısını azca aralı qoydum ki, gec qayıtsaq, ya da heç qayıtmasaq içəridə ac-susuz qalmasınlar. Qabdakı dəni də aşırıb yerə tökdüm. Evdən çıxarkən düşünürdüm ki, bir-iki gün Araz sahilində qalıb, ara sakitləşəndə geri dönəcəyik. Ona görə də çay qaynatmaq üçün samavar, çörək, pendir, yağ və bir də qazan götürdüm ki, bəlkə Arazın qırağında ocaqda yemək bişirərik... Bütün kəndlər Araza üz tutmuşdu. Axşam Mincivan körpüsünün yaninda qaldiq. 26-sı axşamüstü Muğanlı kəndi istiqamətindən Arazı keçdik. Dörd gün Arazın o tayında çayboyu səhərdən-axşamacan gəzdim. Döyüşdə olan kiçik qardaşımdan və oğlumdan xəbər yox idi. Onları axtarırdım. İrandan baxırdıq – kənd yanırdı. Dörd gün o taydan od içində yanan kəndə baxdıq. Kəndlə bərabər içim də yanırdı. Amma baxıb şükür edirdim ki, o odun içində deyilik, sağıq, gedib övladlarımıza sahib çıxa biləcəyik. Oktyabrın 29-da meşəətəyi və dağətəyi kəndlər də Arazı keçdi. Beşinci gün - oktyabrın 30-da ən son Şabanovun dəstəsi Arazı keçdi. Şükür ki, oğlum da, qardaşım da sağ idi. Allaha şükür etməkdən başqa əlimizdən nə gəlirdi ki? Dörd gündür yanan kəndin boğuq tüstüsü qalxırdı. O tüstüyə baxa-baxa oradan uzaqlaşdıq."

Qardaşım deyir ki, erməni kəndə girəndə birinci mərmini məktəb binasına, ikinci mərmini isə XIII əsrdə bəri kəndimizin atributuna çevrilən Günbəzə atdı. Çünki, uzaqdan kəndə baxanda ən çox diqqət çəkən onlar idi.

...Mən şəhər həyatına çaşqın hislərlə başlamışdım. Sevincim kədərimə qarışmışdı. Ailəm yurd-yuvamızı tərk edib Arazı keçəndə mən tələbə olmuşdum. Kədərli olsamda sevinməyə səbəb vardı, ən böyük arzuma çatmışdım, amma ürəkdən sevinə bilmirdim. Kədərim böyük idi, ya sevincim anlaya bilmirdim. Qarşıda çətinliklər olduğunu düşününcə birazda qorxurdum.

Qaçqınlığın ilk günlərində qəribə bir hiss yaşadım. Məskunlaşdığımız otaqda tək oturmuşdum. Birdən mənə elə gəldi ki, evimizdə qoyub gəldiyimiz mebellər canlıdırlar. Bağımızdakı gilas ağacı və ev əşyalarımız sanki onları atıb gəlmişik deyə bizi qınayırlar, vəfasızlıqda günahlandırırlar və bizdən küsüblər. Elə bil hər şey dilə gəlib deyirdi ki, biz ömrümüz boyu sizə xidmət etmişik, amma siz bizi atıb getdiz. Mənə elə gəlirdi ki, hər şey gerçəkdir və mən onu hiss edirəm. Hiss etdikcədə göz yaşlarımı saxlaya bilmirdim. Heç vaxt unutmadığım və yəqinki, ömrümün sonuna kimi unutmayacağım bu hissi izah etməkdə aciz qalmışdım.

Hisslərimi, düşüncələrimi gizlədən biri idim. Suallar beynimi yorurdu. Özümü toplayıb, mənə rahatlıq verməyən “nə edəcəyik?” sualı ilə anama müraciət etdiyimdə əmin bir səslə ”Camaat necə, bizdə elə” – dedi. Nə zəhmətlərlə tikib-qurduğu evini, əkib-becərdiyi həyət-bacasını qoyub gələn, bir həftə Arazın o tayında çay boyu yuxarı-aşağı gəzərək döyüşçü oğlundan, qardaşından xəbərar arayan anamın cavabı məni həm təəccübləndirdi, həm də “çiynimdən yük götürüldü” ifadəsinin sadəcə söz olmadığını, gerçək yaşatısını hiss etdirdi. Bəkə özudə bilmədən məni ayağa qaldırmışdı anam. Öz-özümə “ana gücü”, “ana dayağı” bu imiş dedim. Bir neçə aydan sonra isə yaylığı başından sürüşmüş 44 yaşlı anamın ağarmış saçlarını görndə sanki məni ildırım vurdu. Mənə elə gəldi ki, o saçlar bir gecədə ağarmışdı. Göz yaşlarımı gizlətmək üçün tez eyvana çıxdım. O an başa düşdüm ki, əslində anam nə qədər dərd çəkir. O sozlərində məni ümüdsüzlükdən qorumaq üçün deyirmiş.Yaşamış olduğum bu iki hissi deyəsən mən heç vaxt unutmayacağam.

O vaxtlar heç sevməzdim kimsə mənə “haralısan?” deyəndə. Ona görə yox ki, haralı olmağımdan utanırdım, mən əslində bu sualın cavabından yaranan ikinci sualı - “qaçqınsız?” sualını eşitmək istəmirdim...

Amma həyat davam edirdi. Yaşamağa “ev”, yeməyə çörək, geyməyə paltar tapdıq. Oxuduqda, işlədikdə, ailədə qurduq, övlad sahibi də olduq. Bircə kəndimizi tapmadıq.

Indi o vaxtdan çox illər keçib – düz 25 il. Bir igidin ömrü deyərlər. İndi nə o kənd var, nə o ev var, nə güllü bağımız, nə də tut ağacımız. Nə Dədəm var, nə də Dədəmgil. Nənəm də çoxdan dünyasın dəyişib. İndi uşaqlarımız “Mən uşaq olanda...” deyə sözə başlayır. Gün keçir, ay keçir, il keçir - ömür keçir yəni. Amma orda, uzaqlarda bir kənd var... elsiz-obasız qalmış, yollarını kol basmış, cığırları itmiş, damları tökülmüş, ocağı sönmüş, ağacları qurumuş, izsiz, ləpirsiz bir kənd... yetim uşaqlar kimi boynu bükük, gözü yolda, küskün, kədərli bir kənd... Xatirələrlə dolu uşaqlığımızı qoyub gəldiyimiz kənd... Məmmədbəyli kəndi. O kənd bizim kəndimizdi... getməsəkdə, görməsəkdə o kənd bizim kəndimizdi. Indi o kəndə getmək arzu, indi o kəndi görmək yuxudu.

25 ildir xatirələrlə anırıq səni doğma kəndimiz. Indi yaz gələndə kəndin ətrini arayir burnumuz, xörək bişirəndə kəndin dadini axtarır ağzımız. Yağış yağanda kəndə dolu yağır yəqin deyirik, gün qızanda kəndin sərin mehini arzulayırıq. Qar yağanda... qar yağanda pəncərənin önünə keçib kədərlənirik ki:

Qar yağırmı görəsən yenə bizim ellərə
Ağ yorğan çəkilibmi dərələrə, çöllərə.
Bəs qar yağıbsa əgər, kim qartopu oynayır,
Kim qar adan düzəldir, kim buz üstə sürüşür?
Yada salırmı bizi həyət, bağça, çöl, dərə
Kim dən verir görəsən ac qalan sərçələrə?
Görən darıxırmı heç bizim üçün sərçələr,
Onlarda bizim kimi bəlkə didərgindilər.

Bəlkə onlar da getmir biz getməyən yerlərə
Rast gələn olubmu heç didərgin sərçələrə?

25 ildir gözü yol çəkən kəndimiz. Bəlkə dönərlər, bəlkə qayıdarlar, bəlkə məni unudublar, bəlkə heç qayıtmayacaqlar, bəlkə, bəlkə... Bəlkədə, bəlkələrdən yorulmuş kəndimiz. Bəlkə birdə ne vaxtsa səni görmək bizə qismət olar. Bəlkədə...

**Atilla Oral**
**(Türkiyə)**

## Nuri Paşa Türk varlığının yükselmesi için çalışan idealist bir Türk aydını

1918 yılının ilk aylarıydı. Savaşın kaderi Osmanlı Devleti'nin katıldığı ittifakın aleyhinde gelişmeye devam ediyordu. Savaşın sonuna yaklaşıldığı atık iyice belli olmaya başladığı bir dönemdi. Türk ordusu dört buçuk yıl boyunca yedi cephede düşman ordularıyla savaştı. Mehmetçik yorgun ve bitkin haldeydi.

Azerbaycan'da Türk varlığı yok ediliyordu. Çaresiz kalan Azerbaycan Türklerinin feryatları ve Azerbaycan'dan üst üste gelen kötü haberler İstanbul'a da ulaşıyordu. Büyük devletler bütün bu katliamlara kayıtsız kalıyordu. 1918 yılı Mart ayında Baku'de yapılan büyük katliam bardağı taşran son damla oldu. 18 Mart - l Nisan 1918 tarihleri arasında on binlerce Azerbaycan Türk'ü şehit edildi. Baku'de yaşayan Türk halkının yarısı da şehri terk etmek zorunda kaldı. Dünyanın seyirci kaldığı büyük katliamlara Osmanlı ülkesinde yaşayan Türkler daha fazla kayıtsız kalamadı.

Osmanlı Devleti "Kafkas İslâm Ordusu" adında bir ordu kurdu. Yeni oluşturulan ve özel olarak kurulan bu ordunun harekât alanı Osmanlı Devleti sınırları kilometrelerce uzağında Kafkasya'daydı. Ordunun birici hedefi ise katliamlara uğrayan ve kendi vatanında esir yaşayan Azerbaycan halkını kurtarmaktı. Meşru bir müdafaa duygusuyla yola çıkan Mehmetçik Azerbaycanlı Türk kardeşlerine yardım elini uzattı ve zulme uğrayan soydaşlarına özgürlük götürdü.

Kafkas İslâm Ordusu bu kutsal ve tarihi görevi şerefle ve büyük bir başarıyla tamamladı. Tarihe altın harflerle yazılacak büyük bir zafer kazanıldı. Zaferin gerçek sahibi Nuri Paşa ve kumandasındaki Kafkas İslâm Ordusu'nun kahraman Osmanlı ve Azerbaycan Türklerinden oluşan Mehmetçiklerdi. Türk birlikleri Azerbaycan'dan çekildikten sonra; İngilizler, İran üzerinden Bakû'ye girdi. Ancak İngiliz işgal ordusu sivil yönetime karışmayıp sadece askeri işgalle yetindi. Yönetime müdahale etmedi.

İstanbul işgalinde olduğu gibi milli hareketin önderlerini hapsetmedi. Azerbaycan Türkleri içinde Vahdettin, Damat Ferit, Ali Kemal vb. gibi hainler mevcut değildi. İngilizler bu nedenle; Azerbaycan Türkleri arasında vatan ve

milleti aleyhine çalışacak hain bulamadı. İngiliz ordusu İstanbul işgalinde izlediği baskı ve şiddet yöntemlerini Bakû'de uygulayamadı. Azerbaycan ülkesi ve Bakû, İngiliz işgali sırasında Azerbaycan Türklerinden oluşan hükümet tarafından idare edilmeye devam etti.

Azerbaycan Türkleri için Kafkas İslâm Ordusu'nun zaferi çok önemliydi. Bu zafer Azerbaycan'da Türk varlığının birlik halinde ve dimdik ayakta olduğunun ispatıydı. Kafkas İslâm Ordusu seferi sayesinde Azerbaycan Türkleri çok büyük olanaklar elde etti. Söz konusu bu gerçeği Azerbaycanlı düşünce adamı Mirza Bala şu cümlelerle ifade ediyor:

"Tarihi vazifesini şerefle ifa edip giden Kafkas İslâm Ordusu kendisinden sonra genç milli bir ordunun nüvesini bırakmış bulunuyordu. Bu ordunun temin ettiği nizam ve intizam sayesindedir ki, İngiliz İşgal Ordusu Kumandanlığı Azerbaycan istiklâlini tanımaya ilk adım olmak üzere, Azerbaycan Hükümetini yegâne meşru makam olarak ilan etmiştir."[1]

Yukarda söz edilen gerçeği; Efendizâde Mehmet Şerif Bey; 1921 yılında yayımlanan "Azerbaycan İnkılâbı" adlı eserinde şöyle ifade ediyor:

"Azerbaycan'ı İngilizler işgal etmişlerdi. İngilizlerin oraları işgali evvelce zannedildiği gibi Azerbaycanlılar için fena netice vermedi. İngiliz işgali altında Ermenilerin taşkınlık yapacakları vesaire beklenirken, bunlar olmadığı gibi en nihayet Azerbaycan'ın kendi kendini idare etmelerine de İngilizlerce muhalefet edilmedi. Bakû'nün Türkler tarafından kuşatılması sırasında Ermeniler İngilizleri yalnız bırakıp kaçmış olduklarından, İngilizler üzerinde Ermenilerin nüfuzu kalmamış olduğu gibi, o sıra iktidarda bulunan Azerbaycan hükümetinin İngilizlere hoş görünecek harekette bulunmalarının da tesirleri görülmüş oldu. Bir aralık Bakû'de Rus milliyetperverler reisi Peçeragof'un entrikaları ve bu entrikalara kapılan bazı Müslüman reislerin yanlış hareketiyle Azerbaycan istiklâli suya düşer gibi görünüyor idiyse de çok şükür bunlar olmadı. Azerbaycan mütarekeden sonra bir sene kadar İngiliz işgali altında kaldıktan sonra, İngilizler oralarını tahliye etmiş, ancak ondan sonra on ay kadar büsbütün müstakil olarak Azerbaycan kendi kendisini idare etmiştir."[2]

## Nuri Paşa Bakû'nün tahliyesini bilerek geciktiriyor.

Mondros Mütarekesi gereği Bakû İngiliz işgaline girecekti. İngiliz Generali Thomson, Nuri Paşa'dan 17 Kasım'a kadar Bakû'nün tahliyesini istedi. Tahliye için sürenin çok az olduğu konusunda Nuri Paşa ve Mürsel Paşa'nın; 26 Kasım'a kadar bu sürenin uzatılması yolundaki ricalarını reddetti. Nuri Paşa'ya bir ültimatom veren General Thomson, 17 Kasım'a kadar Osmanlı birliklerinin

---

[1]Azerbaycan, Mirza Bala: *Kafkasya İslâm Ordusu,* Aylık Türk Kültür Dergisi, Temmuz – Ağustos, 1954,

s. 3-4-5-14.

[2] Efendizâde Mehmet Şerif, *Azerbaycan İnkılabı,* Şirketi Mürettibiye Matbaası, İstanbul, 1921, s. 21.

Bakû'den çekilmesini ve şehrin teslimini istedi.[3] Nuri Paşa İngiliz generalinin ültimatomunu dinlemedi. Bakû'den çekilmeye karşı direndi. Nuri Paşa'nın tahliyeyi uzatıp zaman kazanmaya orduyu dağıtmak ve silâh teslim etmek istemiyor ve çok farklı şeyler düşünüyordu.

Nuri Paşa General Thomson'un tahliye için şart koştuğu süreyi yaklaşık bir ay geciktirdi. Nihayet Türk Ordusu 12 Aralık 1918 sabahı Bakû'yü tahliye etti.[4] Ancak Mondros Mütarekesi'nin 11. Maddesi bahane eden İngilizler, tahliye kararına karşı direndiği gerekçesiyle Nuri Paşa'nın yakalanması emrettiler."[5]

Osmanlı Devleti Askeri Komiserlerinden Yüzbaşı Selâhattin Bey[6] Kafkas İslam Ordusu'nun Azerbaycan'dan tahliyesi ile görevlendirilen subaylardan biriydi. Yüzbaşı Selâhattin Bey ordunun tahliyesi sırasında Bakû'den Batum'a kadar en son kademesinde görevliydi. İngiliz Komisyonu ile beraber bizzat çalışarak gerçekleştirilen tahliyeyi idare etti. Selâhattin Bey Türk Ordusu'nun Bakû'de kaç gün ve kaç saat kaldığını şöyle anlatıyor:

"Bakû Türk Ordusu tarafından 15 Eylül 1918'de zapt edildi. 12 Aralık 1918 sabahı saat üçte tahliye edildi. İngiliz kıtaları aynı gün saat 10'da Bakû'ye girdi."[7]

## Nuri Paşa Osmanlı ordusundan atılıyor

Sultan Vahdettin işgal kuvvetlerine yaranmak adına birçok yetenekli ve yurtsever Türk subayını ordudan attırdı. Ordudan kaydı silinenler arasında başarıyla görevini yapan birkaç ay evvel Azerbaycan Türklerini katliamdan kurtaran Kafkas İslâm Ordusu Kumandanı Nuri Paşa da vardı.[8]

Nuri Paşa'nın Osmanlı ordusundan atıldığını bildiren karar. Osmanlı'nın resmi gazetesi Takvim-i Vekayi'de 25 Kasım 1918 tarihinde ilan edildi. "Harbiye Nezareti Muamelat-ı Zatiye Müdüriyeti'nden: Azerbaycan Hükümeti hizmetine dahil olduğunu beyan eden İslâm Ordusu Kumandanı Fahri Ferik Nuri Paşa'nın Orduyu Osmani'den kaydı terkin edilmiştir."[9]

---

[3] Nâsır Yüceer. *Birinci Dünya Savaşı'nda Osmanlı ordusu'nun Azerbaycan ve Dağıstan harekâtı: Azerbaycan ve Dağıstan'ın bağımsızlığını kazanması, 1918,* Genelkurmay Askeri Tarih ve Stratejik Etüt Başkanlığı yayınları, Genelkurmay Basımevi, 1996, s. 162

[4] Akşam gazetesi, *Baku hakkındaki Türk-Alman ihtilâfı, Selâhattin Yurtoğlu'nun açıklaması,* 12 Eylül 1949, s. 5

[5] Bilâl Şimşir. *Malta Sürgünleri,* Bilgi yayınları, İstanbul, 1985, s. 126 (Edmonds'un 31.10.1919 günkü yorumunda Nuri Paşa Mondros Mütarekesi'nin 11. Maddesi gereğince Azerbaycan'dan çekilmeye karşı direndiği için yakalandığı belirtilmektedir.)

[6] Selâhattin Yurtoğlu (1894 - 1956) Kuva-yı Milliyeci subay, Yüzbaşı Selâhattin.

[7] Akşam gazetesi, *Baku hakkındaki Türk-Alman ihtilâfı,* Selâhattin Yurtoğlu'nun açıklaması, 12 Eylül 1949, s. 5.

[8] Vakit gazetesi, *Nuri Paşa'nın Terkin Kaydı,* 25 Kasım 1918, s. 1.

[9] Takvim-i Vekayi, 25 Kasım 1918, s. 3.

"Nuri Paşa terkini"[10] başlığıyla Minber[11] gazetesinde yayımlanan haberde Nuri Paşa'nın Osmanlı ordusundan kaydının silindiği ve ordudan atıldığı şöyle duyuruldu: "Harbiye Nezareti Muamelât-ı Zatiye Müdüriyeti'nden: Azerbaycan Hükümeti hizmetine dahil olduğunu beyan eden İslâm Ordusu Kumandanı Fahri Ferik Nuri Paşa'nın Ordu-yı Osmaniye'den kaydı terkin edilmiştir."[12]

**Vahdettin'in ordudan attığı Nuri Paşa'ya Azerbaycan halkı sahip çıkıyor.**

Azerbaycan temsilcisi Ali Merdan Topçubaşı, İşgal altındaki İstanbul'da yaptığı açıklamada Vahdettin'in emriyle ordudan atılan Nuri Paşa'ya şu cümlelerle sahip çıktı:

"Azerbaycan Hükümeti kurulduğu zaman askeri teşkilât ve yönetimine sahip değildi. İşte, biz memleketimizde askeri teşkilât bulunmak üzere Nuri Paşa'yı celp eyledik ve kendisinden de pek çok menfaatler gördük. Nuri Paşa Azerbaycan Ordusu'nu örgütledi. Hal-i hazırda hükümetin 50.000 kişilik silâhlı bir ordusu olduğunu bu vesile ile söyleyebilirim. Nuri Paşa'nın şu anda Azerbaycan'da bulunması durumuna gelince size şu kadar söyleyeyim ki, bu tamamen Azerbaycan Hükümeti'yle Azerbaycanlıların arzularından ibaret bir şeydir ve Nuri Paşa Azerbaycan'da kalacaktır."[13]

Nuri Paşa, Osmanlı Ordusundan resmen atıldığı halde kendi iradesiyle Azerbaycan'dan ayrılıp İstanbul'a gitti. Ancak hiç beklemediği kötü bir sürprizle karşılaştı. İstanbul hükümeti ve Vahdettin'in emriyle İngilizlere teslim edildi. İngiliz işgal yönetimi tarafından Batum'a götürülerek hapsedildi. Batum'da Ardahan kışlasında hapsedilen Nuri Paşa Azerbaycanlı dostlarının yardımıyla kaçmayı başardı.

**Nuri Paşa'yı Azerbaycanlı dostları kurtarıyor**

Amcası Halil Paşa yeğeninin İngiliz hapishanesinden kaçışını şöyle anlatıyor:

"Nuri Paşa savaş sonunda İslâm Orduları teşkilâtı dağıldıktan sonra ve İstanbul'a geçmek isterken İngilizler tarafından tutuklanmış ve Batum'da Ardahan kışlasında hapsedilmişti. Ama benim İstanbul'da Bekirağa

---

[10] Minber gazetesi, *Nuri Paşa terkini,* 25 Kasım 1918, s. 2.

[11] Minber gazetesi, 1 Kasım 1918 - 21 Aralık 1918 tarihleri arasında İstanbul'da yayımlandı. 51 sayı çıktı.

Sahibi Ali Fethi Bey (Okyar) Sorumlu Müdürü Dr. Rasim Ferit Bey (Talay) idi. Mustafa Kemal Paşa

(Atatürk) Minber gazetesinin kuruluş sermayesi ve yayımına katkıda bulundu.

[12] Minber gazetesi, *Nuri Paşa terkini,* 25 Kasım 1918, s. 2.

[13] Tasvir-i Efkâr gazetesi, Azerbaycan Murahhasının Muhabirimize Beyanatı, 30 Kasım 1918, s. 1

Bölüğü'ndeki hapisten kaçtığım gibi, O'da tesadüfen aynı gün Batum'dan kaçmıştı. Bu kaçışa Azerbaycanlı dostları yardım etmişti.[14]

1919 yılı Eylül'ünün ilk haftası Nuri Paşa haksız yere hapsedildiği Batum İngiliz hapishanesinden kaçarak özgürlüğüne kavuştu. Kendini adadığı Türk varlığına hizmet için hemen çalışmalara başladı.

## Nuri Paşa'nın Bakû ve İstanbul Türklerini evlendirme girişimi

Nuri Paşa Batum'da hapsedildiği İngiliz cezaevinden kaçtıktan sonra Azerbaycan'a
gitti. 22 Eylül 1919 tarihinde Hasene Hanım'a yazdığı mektupta: Türk varlığı ve Türk halkının istikbali için "ölünceye kadar, millet yolunda çalışmaya ahdettim"[15] diyor,
Azerbaycanlı Türk erkekleriyle İstanbul'daki Türk kızlarını evlendirme girişimi için ablası Hasene Hanım'ı şöyle göreve davet ediyordu:

"Güzel Ablacığım. Benim için çok merak ediyorsun değil mi? Filhakika geçmiş zamanlarım merak etmeye değerdi; fakat çok şükür bugün her zamankinden rahat ve müsterihim. Allah doğru kulu hiçbir zaman bırakmaz. Ben vicdanımdan emin olduğum için Allah'ın da inayetinden eminim. Artık bundan sonra merak edilecek bir şey kalmadı. Gayrı muayyen bir müddet için sizleri belki göremeyeceğim. Her halde ben gelmezsem siz gelebilirsiniz ya. Benim gideceğim yer sizce malum olacaktır. (Mektubumu okuduktan sonra iyi saklamanız veya yakmanız iyi olur sanırım.)

Ablacığım vatanımızın uğradığı vaziyet pek tahammülsüz değil mi? Buna da sureti zahirede sebep olan yine bizden!... İşte bu zararı telâfi etmek için, ölünceye kadar, millet yolunda çalışmaya ahdettim. Şimdi ailemiz efradından velev kadın olsun aynı faaliyete muntazırım.

Ablacığım, Türklük Garptan değil Şarktan doğacaktır. Siz Azerbaycan'ı Türkistan'ı çöl, yaban sanmayınız. Oralarda öyle şehirler var ki, Viyana'dan hiç farkı olmaz. Yalnız oralıların tahsilleri kendi diyarlarında olmadığından Türkçe okuyup yazmada ve düşünmede de bizden geridirler. Sonra buraların hanımları Rusça terbiye alanlardan maadası, hemen bizim köylülere benziyor. Şimdi bak! Bu küçük hanımları da milli terbiye ile yetiştirmek, İstanbul hanımları için bir vazife-i milliyedir. Bugün, zannıma göre okuyup yazma bilen İstanbul hanımları çoktur. Pahalılık ve harp dolayısıyla birçokları büyük müşkülâtlar ile kendi iaşelerini hayatlarını temine çalışıyorlar. Bu genç hanımlardan birkaçı cesaret ederek bir ay tecrübe Baku'ye Azerbaycan'a gelseler, hem kendileri fevkalade mesut olurlar, hem de ora kızlarını yetiştirerek Türk tarihinin bir kahramanı olurlar. Azerbaycanlılar kendi kızlarının noksan terbiyelerini görerek, Rus kızları ile teehhül410 etmekte ve bu suretle Türklüklerini kaybetmektedirler.

---

[14] Şevket Süreyya Aydemir, *Son Osmanlı Paşa'sı Halil Paşa'nın hatıraları,* Akşam gazetesi, 15 Aralık 1967, s. 4

[15] Nuri Paşa'nın 22 Eylül 1919'de ablası Hasene Hanım'a yazdığı Azerbaycanlı Türk erkekleriyle İstanbul'daki Türk kızları arasında evlilikler kurma girişimi için göreve davet eden mektup.

Rus kızları bizim İstanbul kızlarımız yanında hiç kalır. Bunlar yalnız süslü gezmesini bilirler. Kıymetleri bu kadardır. Bizimkiler ise hem lisanları güzel hem de şık ve zariftirler. Hassaten Türk'türler.

Azerbaycanlılar; "En güzel yüz bize çirkin biz severiz Türk yüzü, En güzel söz bize acı biz severiz Türk sözü" derler. Şimdi bu kadar uzun yazmaktan maksadım: İstanbul'da bu kadar kimsesiz, oldukça tahsil görmüş genç kızlarımız vardır. Harp erkeklerin bir kısmını götürdüğü gibi, bir kısmını da ifsat411 etti. Bence İstanbul'daki kızlar erkeklerden pek çoktur. Azerbaycan'da ise aksidir. Bu halde hem milletimizi kurtarmak ve hem İstanbul'da sefalet çekmesi muhtemel hanımlara yardım etmek üzere, heveskâr olanlarının Azerbaycan'a muallimlik veya diğer bir vazife ile gitmelerini teşvik ve idare etmenizi sizden rica ederim. Para hususunda Azerbaycan her yardımı yapacaktır. Gelecek hanımların zengin gençlerle evlendirilmesi için burada bir cemiyet teşkil olunacaktır. Bu mektubu şimdiden yazmaktan maksadım sizlerin de hazırlık görmeniz içindir. Mektubun tarihinden tahminen bir buçuk ay sonra Baku hanımlarından bir kaçı İstanbul'a gelip sizi bulacaktır. Ve bu hususa hakkında çalışacaktır. Ablacığım, hem insani, hem milli olan bu işte, yorulmayarak çalışacağınızı biliyorum. Kâğıtta da yer kalmadı kemali hürmetle ellerinizden öper, İffet ve Faruk'un gözlerinden öperim. Kardeşin, (Nuri) 22 Eylül 1919 (22 Eylül 335, Pazartesi)

## Nuri Paşa hakkında yeni bilgi ve belgeler

Nuri Paşa sadece kahraman ve gözü pek bir kumandan değil, aynı zamanda Türk varlığının yükselmesi için çalışan bir idealist Türk aydınıydı. Ancak ne yazık ki sosyal hayat ve cemiyet faaliyetleri konusundaki yaptığı hizmetler büyük ölçüde kapalı kaldı. Tarihimize layık olduğu biçimde geçmedi. Bunun en önemli nedeni 2 Mart 1949 tarihinde büyük bir faciaya kurban gitmiş olmasıdır. Nuri Paşa vefat edince o güne kadar arşivleyip derlediği muhafaza ettiği belge ve bilgilerde dağılıp gitti. Bu belgeler arasında Azerbaycan – Türkiye tarihinin, Azerbaycan kurtuluş ve bağımsızlığının en değerli bilgi ve belge ve fotoğrafları mevcuttu. Nuri Paşa'nın kayıp günlükleri, harp cerideleri, notları, fotoğraflarını bulmak ve yayımlayarak Türk halkıyla paylaşmayı görev kabul etmiş bir araştırmacıyım. Ne mutlu ki aynı duygu ve düşüncelere sahip çok sayıda Azerbaycanlı araştırmacısı ve tarihçi kardeşlerimiz var.

Azerbaycan – Türkiye tarihi için çok değerli olan tarihimizin bilinmeyen detaylarını ortaya çıkarmak her Türk araştırmacısı ve tarihçisi için bir borçtur. Azerbaycan'da son yıllarda ardı ardına yayımlanan değerli eserler, kitaplar, makaleler Azerbaycanlı kardeşlerimizin öz tarihine sahip çıkma gayretini çok açık bir biçimde gösteriyor.

**Arunas Spraunyus**
**(Litva)**

## Пытающаяся усидеть на двух геополитических «стульях» Армения и демократические ценности – сочетание несочетаемого

Некоторое время назад было опубликовано письмо президенту Армении Сержу Саргсяну, которое в последних числах декабря 2017 года написал и опубликовал в СМИ его влиятельный соотечественник, живущий в России и обладающий гражданством этой страны, предприниматель-армянин Левон Маркос (http://www.lragir.am/index/rus/0/right/view/60061).

Мы не будем подробно пересказывать содержание этого письма, мы только упомянем, что его автор перечисляет выполненные по просьбе президента С. Саргсяна с начала 2000 года свои действия и начатые проекты по спасению экономики Армении, которые аудиторы из Москвы оценили в сумму 300 миллионов долларов США. По убеждению Л. Маркоса, эти проекты могли дать серьезный импульс экономике Армении, но, к сожалению, в конце концов инвестор понёс убытки и был вынужден объясняться с судебными исполнителями. В Армении в отношении автора письма возбуждено уголовное дело, он объявлен в международный розыск. Л. Маркос обвиняет президента С. Саргсяна в обмане, в том, что под предлогом «спасения Отечества» президент всучил ему лопнувший банк «Credit-Yerevan». Эта афера была проведена при помощи семейства президента и других высоких должностных лиц.

Mənim Akif Nağı ilə tanışlığım isə 2015-ci ilin Sentyabr ayına təsadüf edir. O zaman yaponiyalı dostum, elm adamı Taçibana Yu ilə birlikdə Azərbaycana elmi səyahətə gəlmişdik[39]. Onun Qarabağ araşdırmalarına böyük marağı var. Yaponiyanın elmi jurnallarında Azərbaycanla bağlı bir sıra məqalələri də dərc olunmuşdur. Taçibana Yu daha çox Azərbaycanda siyasi partiyalara, milli məclis seçkilərinə diqqət yetirmiş, 2008-ci ildə "Yeni Azərbaycan Pariyası (YAP) və onun siyasi sistemi", 2011-ci ildə "2010-cu il Azərbaycan Respublikası Milli Məclisinə seçkilər", 2012-ci ildə isə "Mərkəzi Asiya Siyasi Araşdırmaları tərkibində Qafqaz" adlı məqalələrini dərc etdirmiş, Azərbaycanla bağlı Yaponiya elm dünyasında özündən söz etdirməyi bacarmışdır. Taçibana Bakıda təhsil alıb, araşdırmalar aparıb. 2013-cü ildə isə Yaponiyanın Hokkaydo Universitetində "Post-Sovet dövründə Azərbaycanda siyasi dəyişikliklər: Keçmiş Sovet regionlarında siyasi sistemlərin araşdırması" mövzusunda doktor (PHD) işini müdafiə etmişdir.

Onun doktor işi 5 fəsildən ibarətdir ki, onun 4-cü fəsli tamamilə Dağlıq Qarabağ münaqişəsinə aiddir. 1-ci fəsil Yeni Azərbaycan Pariyasına həsr edilib. Onun yaranması, fəaliyyəti, uğurları və s. 2-ci fəsli Milli Məclisə, 3-cü fəsli isə Azərbaycanda Prezident səlahiyyətlərinə (ölkə başçısının verdiyi fərmanlar və s), 5-ci fəsil isə Azərbaycanda siyasi-iqtisadiyyata həsr olunub. Taçibana Yu həm də bir azərbaycanşünas kimi Yaponiya elm dünyasında tanınır. Təbii ki, bir vətəndaş və elm adamı kimi Taçibana Yu-nun elmi işlərində, yazılarında razılaşdığımız və razılaşmadığımız məqamlar var. Hər bir elm adamının hər hansısa məsələyə fikrinin fərqli olması normal haldır və bu haqda müzakirələr etmək, elmi tənqidlər aparmaq olar.

Nə qədər maraqlı olsa da, məhz yaponiyalı Taçibana Yu, Hokkaydo Universitetinin yerləşdiyi Yaponiyanın Sapporo şəhərində Azərbaycana səfərimizlə bağlı planımızı müzakirə edərkən, Akif Nağı ilə görüşüb, onun mövqeyini də araşdırmağı mənə məsləhət görmüşdü. Ümumiyyətlə, Azərbaycanla və xüsusilə də, Qarabağla bağlı araşdırma aparan yaponiyalı elm adamları arasında QAT və Akif Nağı kifayət qədər tanınır. Taçibana Yu mənə dedi ki, sən sadəcə sülhpərəst elm adamları və siyasi elitanın nümayəndələrini oxuyub təhlil edirsən, mən məsləhət görərdim ki, Bakıda QAT-ın rəhbəri ilə də görüşək.

Beləliklə, mən və Taçibana 2015-ci ilin Sentyabrında Bakıda Akif Nağı ilə görüşüb, Dağlıq Qarabağla bağlı müsahibə götürdük. O, bizi çox xoş qarşıladı. Eyni zamanda, Qarabağla bağlı çap etdirdikləri kitaba məqalə

---

[39] Bununla bağlı 525-ci qəzetdə "Hokkaido Universitetinin alimləri Azərbaycanda səfərdədirlər, Qonaqlar Bərdədə qaçqın şəhərciyində olublar" başlığı altında məqaləmiz çap olunmuşdur.

https://525.az/site/?name=xeber&news_id=42600#gsc.tab=0

yazmağımızı xahiş etdi. Bundan sonra mən “Qarabağ, dünən, bu gün və sabah” kitabının 2016 və 2017-ci illərdə çap olunmuş kitabları üçün iki elmi iş yazdım. 2016-cı ildə çap olunmuş 16 səhifəlik məqaləm “Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, azərbaycanlı məcburi köçkünlər və ziyalıların gözü ilə” adlanırdı. Bununla bağlı Amerikada, Yaponiyada təşkil olunmuş dünya səviyyəli və regional səviyyəli konfranslarda elmi çıxışlarım olmuşdu. 2017-ci ildə isə “Şri-Lanka vətəndaş müharibəsindən Dağlıq Qarabağ münaqişəsinə baxış” adı altında təxminən 32 səhifəlik elmi yazım çap olundu. 2016-cı ildə Şri-Lankaya etdiyim səfər zamanı əldə etdiyim məlumatlardan istifadə etməklə yazdığım iş, bu sahədə bir ilk idi. Təbii ki, bu məsələnin üzərində hələ çox işləmək lazımdır. Bu il isə Azərbaycan Xalq Cumhuriyyətinin 100 illiyinə təsadüf edir. O baxımdan fikirləşdim ki, Yaponiyanın elm dünyasında Azərbaycan Xalq Cumhuriyyəti, eyni zamanda Dağlıq Qarabağla bağlı elmi araşdırmalar etmiş şəxslər və onların elmi işləri haqqında müəyyən qədər məlumat toplayım və bu haqda azərbaycanlı oxucunu məlumatlandırım.

## Əsas hissə

İlk öncə onu söyləmək istəyirəm ki, Yaponiyanın elm dünyasında Azərbaycana kifayət qədər maraq vardır. Bu haqda mənim Palitra qəzeti, 525-ci qəzetdə və bir sıra digər mətbuat orqanlarında müsahibələrim, yazılarım yer almışdır. Hər il mart ayında təşkil edilən Yaponiyada Mərkəzi Asiya və Qafqaz ölkələri ilə bağlı ən öndə gedən elm adamlarının üzvü olduğu və iştirak etdiyi “Yaponiya Mərkəzi Asiya Elmi Konfransı”nda son illər Azərbaycanla bağlı elmi çıxışların və yazıların sayı artır. Mən özüm də son 2 ildə bu konfransın üzvüyəm. Elmi konfransa rəhbərliyi hazırda Hokkaydo Universitetinin professoru, Mərkəzi Asiya Araşdırmalarında tanınan, hörmət olunan professor Uyama Tomohiko edir. Mən özüm ötən ilin mart ayında sözügedən konfransda Dağlıq Qarabağla bağlı çıxış etmişdim. Əsas diqqəti Məcburi Köçkünlərə yönəltmişdim[40]. Eyni zamanda çıxışımın əsas hissəsi yapon dilində konfransın elmi jurnalında çap olunmuşdur.

Bu il isə elmi tənqidçi kimi çıxış edirdim[41]. Bu ilki konfransda Azərbaycan Xalq Cumhuriyyətinin 100 illiyi müzakirə edildi. Cari ilin mart ayının 24 və 25-də keçirilmiş Yaponiya Mərkəzi Asiya Elmi Konfransında AMEA-nın Tarix İnstitutunun dissertantı, “Tərəqqi” medallı, “Qabaqcıl təhsil işçisi”, 2010-cu ildə “İlin müəllimi” mükafatı laureatı, 147 saylı texniki-

[40] Bu haqda Palitra qəzeti “Yaponiyanın elm dünyasında Dağlıq Qarabağ mövzusuna maraq var” (28 Mart 2017) adlı məqaləni də gözdən keçirin. http://palitranews.az/news.php?id=67069

[41] Bununla bağlı Palitra qəzetindən çap olunmuş “Yaponiyada Azərbaycan Xalq Cumhuriyyətinin 100 illiyi ilə bağlı müzakirələr olub” (27 Mart 2018) məqaləsinə də baxın. http://palitranews.az/news.php?id=83151

humanitar liseyin tarix müəllimi Güntəkin Məmmədova da iştirak edib. Güntəkin Məmmədova Yaponiyalı elm adamlarına aşağıdakı sualla müraciət etmişdir:

“Bilirəm ki, Yaponiyada Mərkəzi Asiya və Qafqaz regionu ilə bağlı çox araşdırmalar mövcuddur. Bildiyiniz kimi, Azərbaycan da dünyada Mərkəzi Asiya və Qafqaz araşdırmalarının tərkibində tədqiq olunan ölkələrdəndir. Bu il Azərbaycan Xalq Cumhuriyyətinin yaradılmasından 100 il keçir. 1918-ci ildə qurulmuşdur. Mən bilmək istərdim ki, Yaponiyada Azərbaycanla bağlı elmi araşdırmalar, xüsusilə Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlı tədqiqatlar hansı səviyyədədir? Ümumiyyətlə, Yaponiyanın elm dünyasında Azərbaycan tarixinə maraq varmı? Onu da deyim ki, Azərbaycan məktəblərində Yaponiyanın Tokuqava İyeyasudan (1603) sonrakı dövrü dərsliklərdə məktəblilərə tədris edilir. Təşəkkür edirəm”. Suala cavab olaraq, Yaponiyanın Tsukuba Universitetinin professoru Akifumi Şioya qeyd etdi ki, “Bildiyiniz kimi, Azərbaycanın Xalq Cumhuriyyətinin yaranmasına qədərki dövrü, Azərbaycanlı millətinin yaranması kontekstində Kyoto Universitetinin tədqiqatçısı Şionozaki Şinya araşdırmışdır və ötən il bununla bağlı yapon dilində geniş tərkibli kitab dərc etdirmişdir. Eyni zamanda, Azərbaycan Xalq Cümhuriyyəti və Məmməd Əmin Rəsulzadə ilə bağlı bir neçə elmi məqalələr çap olunmuşdur yapon dilində. Həmçinin, 1905-ci il Erməni-Azərbaycan qarşıdurması da Yaponiyanın elm dünyasında kifayət qədər tanınır”.

Bu ilki konfransla bağlı onu da qeyd edim ki, müstəqil Azərbaycan Respublikası ilə bağlı çıxışlar, suallar çox olmuşdur. Kyoto Universitetinin doktorantı İvakura Kou “Post-sovet dövrü Azərbaycanında dövlət və din” haqqında kifayət qədər maraqlı elmi çıxış etməklə, qeyd etmişdir ki, Azərbaycanda şiə və sünni təriqətləri tolerant bir şəraitdə birgə yaşamaqdadırlar. Bu Qafqaz Müsəlmanları İdarəsi, eyni zamanda Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsinin fəaliyyəti və apardığı siyasət nəticəsində mümkün olmuşdur. İvakura onu da qeyd etmişdir ki, xalq da bu siyasəti dəstəkləyir. Hokkaydo Universitetindən araşdırmaçı Taçibana Yu isə “Post-sovet Gürcüstanında siyasi partiyalar” mövzusunda çıxış etsə də, Azərbaycanla bağlı şərhləri də kifayət qədər çox olmuşdur.

Ümumiyyətlə, Yaponiya Mərkəzi Asiya Elmi Konfransının üzvü kimi son illər çap olunmuş elmi jurnallara göz gəzdirdikdə şahidi oluram ki, son illərdə Mərkəzi Asiya, xüsusilə Uyğurlarla bağlı tədqiqatlar əsas təşkil etsə də, son iki ildə təşkil olunmuş konfranslarda Azərbaycan adı daha çox eşidilmişdir. Bunun özü Yaponiyanın xüsusi dairələrində Azərbaycanın artan nüfuzundan xəbər verir.

Bundan əlavə 2017-ci ilin aprel ayının 15-də ABŞ-ın Kaliforniya Ştatının San-Fransisko şəhərindən təşkil edilmiş Qərb Sosial Elmləri Assosiasiyasının (Western Social Science Association) 59-cu illik konfransında[42], Sentyabr ayının

[42] Bununla bağlı Palitra qəzetində çap olunmuş “Dağlıq Qarabağ münaqişəsi ABŞ-da dünya alimlərinin diqqətinə çatdırılıb ” məqaləsini oxumağınızı tövsiyə edirəm. http://palitranews.az/news.php?id=68057

23-də Yaponiyanın paytaxtı Tokio şəhərində yerləşən Hosey Universitetində təşkil edilmiş Yaponiya Siyasət Elmləri Konfransında, oktyabr ayının 22-də Tokio şəhərində yerləşən Hitotsubashi Universitetində təşkil edilmiş Rusiya-Şərqi Avropa Elmi Konfransında, 2018-ci ilin Fevral ayının 4-də, Tokionun Vaseda Universitetində təşkil edilmiş gənc alimlərin konfransında Qarabağ münaqişəsi ilə bağlı elmi tədqiqatlarımı dünya və Yaponiya alimlərinin diqqətinə çatdırmışam. Eyni zamanda, 2017-ci ildə Hokkaydo Universitetinin tələbələrinə Azərbaycan Multikulturalizmi ilə bağlı dediyim dərslərdə də Azərbaycanın haqlı mövqeyi haqqında kifayət qədər məlumat verməyə çalışmışam[43]. Azərbaycan hökümətinin dəstəyi ilə tələbələrin Azərbaycana səfərləri də təşkil olunmuşdur.

Qeyd etmək istərdim ki, yapon dilində çap olunan bütün elmi məqalələrin elektron variantını özündə cəmləşdirən bir baza vardır. ci.nii.ac.jp saytıdır. Bu sayta daxil olub, yapon dilində açar sözü kimi "Azərbaycan"「アゼルバイジャン」 sözünü yazıb axtarış edəndə 188 ədəd elmi məqalə kəşf etdim. Təbii ki, bunların hər biri haqqında məlumat vermək zaman və kitabda səhifələr baxımından qeyri-mümkündür. Bu səbəbdən də hazırda daha aktual olan məsələlər haqqında qısa məlumat vermək istərdim.

### Azərbaycanlı milləti haqqında:

Bu məqalələr arasında daha çox Şionozaki Şinya-nın "azərbaycanlı" millətinin yaranması, Taçibana Yu-nun Azərbaycanda siyasi partiyalar, Milli Məclis, Hirose Youko-nun Dağlıq Qarabağ münaqişəsi ilə bağlı yazıları gözə çarpır. Eyni zamanda, Azərbaycanın neft strategiyası və iqtisadiyyatı ilə bağlı yazılar da çoxdur. "Azərbaycanlı" millətinin yaranması ilə bağlı Şionozaki Şinyanın 2017-ci ilin mart ayında Kyoto Universiteti tərəfindən çap edilmiş kitabı elmi baxımından çox maraqlıdır. Onun kitabında razılaşmadığımız, mübahisə etmək istədiyimiz məqamlar olsa da, Yaponiya elm dünyasında Azərbaycanın tanıdılması baxımından kifayət qədər qiymətli kitabdır. Azərbaycanda yaşayan insanların "müsəlman" və "tatar" adlandırılması ilə bağlı mühüm qeydlər etmişdir. O bildirmişdir ki, Rusiyada yaşayan müsəlmanlar o zaman ümumi olaraq "tatar" adlandırılırdılar. Ona görə Qafqazda yaşayan müsəlman azərbaycanlılar da bu baxımından ümumi olaraq "tatar" kimi qeyd olunurdu. "Müsəlman" adlandırılmaları isə dinlə bağlı olan bir məsələ idi. Bu millətlə bağlı ola bilməzdi. 19-cu əsrin ikinci yarısından başlayaraq yerli ziyalılar düşünməyə başlayırlar ki, bu millət tatarlardan da türklərdən də fərqlidir. Fars da deyil, ərəb də deyil. Müsəlmanlıq isə dinlə bağlı olan bir məsələdir. Millət ola bilməz. Bundan sonra "azərbaycanlı" sözü daha çox istifadə edilməyə başlayır. O, kitabında qeyd edir ki, 19-cu əsrin ortalarına kimi

---

[43] Bu barədə AZƏRTAC-da çıxmış "Daha bir xarici universitetdə Azərbaycan multikulturalizmi dərslərinə start verilib" məqaləsini oxumağa dəvət edirəm. https://azertag.az/xeber/1104324

Azərbaycan ziyalıları öz dillərini "azərbaycan dili" deyil, "türk dili" və ya "tatar dili" kimi qeyd edirdilər. Lakin, ziyalılar öz dilləri ilə türk dili və tatar dilinin fərqli olduğunu bilirdilər, hiss edirdilər. Sadəcə digər bir ad verməmişdilər. Şionozaki Şinyanın araşdırmalarında göstərilir ki, "Azərbaycan dilinin dərsliyi" adı altında ilk kitab 1888-ci ildə Tiflisdə çap olunmuşdur. Buna qədər yerli ziyalılar türk dili və ya tatar dilinin dərsliklərini çap edirdilər. Onun kitabında olan qeydlərinə inansaq, "azərbaycan dili"nin dil adı kimi işlənməsi 19-cu əsrin 2-ci yarısında bir sıra digər kitablarda da yer almışdır. Bu kitablarda dil olaraq "türk-azərbaycan dili" və ya "azərbaycan dili" ifadələri yer almışdır.

Şionozaki qeyd edir ki, yerli adi insanlar da tatar və türk dilləri ilə öz dillərinin fərqli olmasını başa düşürdülər sadəcə nə adlandıracaqlarını bilmirdilər. Bu zaman yerli ziyalılar Azərbaycan dili ifadəsini işlətməyə başlayırlar, bu haqda kitablar dərc edirlər. Və "azərbaycan dili" ifadəsi yerli xalq arasında geniş yayılmağa başlayır.

Şionozaki Şinya öz araşdırmalarında "Kəşkül" jurnalının məqalələrindən də istifadə etmişdir. O qeyd edir ki, "Kəşkül" jurnalında "azərbaycan dili" ifadəsi dəfələrlə işlədilibdir.

Bəs "azərbaycanlı" ifadəsi, millәti necə yaranıb? sualına cavabı Şionozaki yenə "Kəşkül" jurnalında cavab axtarmağa çalışır. O qeyd edir ki, "Kəşkül" jurnalında millət adı vahid olaraq göstərilməmişdir. "Qafqaz müsəlmanları", "müsəlmanlar", "türklər", "Qafqaz türkləri" ifadələrinə daha çox rast gəlinir. Şionozakiyə görə "Kəşkül" jurnalının 115-ci sayında (16 Noyabr 1890) ilk dəfə millət olaraq "azərbaycanlı" sözü işlənməyə başlayır.

O qeyd edir ki, "Kəşkül" jurnalının 115-ci sayında dərc olunmuş məqalədə millət olaraq özlərinin "müsəlman" və ya "tatar" olmadıqları aydın şəkildə qeyd olunur. Millət olaraq, dil, adət-ənənə, xüsusiyyət uyğunluğu əsas götürülərək, Araz çayından cənubda yaşayan insanlarla birlikdə "azərbaycanlı" ifadəsinin işlənməsi məqsəduyğun görülür. İranın şimalında "Azərbaycan" adlı regionun olmasının da təsiri olur.

Təbii ki, Şionozaki Şinya öz kitabını yazarkən, 19-cu əsrin sonları və 20-ci əsrin əvvəlində çap olunmuş farsdilli, osmanlı və rus dilli kitab, jurnal və qəzetlərdən daha çox oxumuş və istifadə etmişdir. Kitabında da bunun təsiri açıq şəkildə görsənir. Düşünürəm ki, bu mövzu bir kitablıq mövzu deyil və üzərində kifayət qədər işləmək olar. Amma bir elmi iş olaraq bu kitabın çap olunması Yaponiya elm dünyasında bu mövzuya marağı daha da artıracaq və əks mövqelərin yaranmasına təkan verəcəkdir. Düşünürəm ki, Şionozaki Şinya bir elm adamı olaraq əldə edə bilmədiyi dərsliklər, kitablar, jurnallar da ola bilər. Onların da tapılması, digər fikirlərin ortaya qoyulması və bu mövzuda elmi müzakirələrin davam etdirilməsinə Yaponiyanın elm dünyasında böyük ehtiyac vardır.

Azərbaycan 1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra da "azərbaycanlı" yoxsa "Azərbaycan türkü", eyni zamanda, "azərbaycan dili" və ya "Azərbaycan türkcəsi" ətrafında kifayət qədər müzakirələr, elmi

qarşıdurmalar olmuşdur. Bunun özü hələ də məsələnin aktual olmasından xəbər verir. İnanıram ki, sağlam müzakirələr sonunda ən uyğun variantı seçmək olar. Mən özüm bir azərbaycanlı kimi "azərbaycanlı" və "azərbaycan dili" ifadələrinin tərəfdarıyam, necə ki, qanunvericiliyimiz də bunu qəbul etmişdir.

Şionozakinin kitabında Mirzə Fətəli Axundzadə, Cəlil Məmmədquluzadə, Abbasqulu ağa Bakıxanov, Məhəmməd ağa Şahtaxtinski haqqında geniş məlumat verilib. Eyni zamanda Nizami Gəncəvi və Şah İsmayıl Xətainin fars yoxsa azərbaycanlı olması ilə bağlı tənqidi müzakirələr də yer almışdır.

## Azərbaycan Xalq Cumhuriyyəti və Məmməd Əmin Rəsulzadə haqqında

Azərbaycan Xalq Cumhuriyyəti (bundan sonra "AXC") ilə bağlı əsərlər də yapon dilli ədəbiyyatda mövcuddur. Lakin mənim araşdırmalarıma görə, yaponiyalı elm adamları AXC-dən daha çox Məmməd Əmin Rəsulzadənin tədqiqatına maraq göstərmişlər. Yaponiyada ən əsas Rəsulzadə araşdırmacısı Şizuoka Mədəniyyət və İncəsənət Universitetinin professoru Tokumatsu Katsumi-dir. Onun elmi tədqiqat sahəsi Azərbaycanın müasir tarixi, mövzusu isə 20-ci əsrin birinci yarısında Azərbaycanın siyasi tarixi ilə bağlıdır. 1995-ci ildə "Dağlıq Qarabağ problemi və İran", 1998-ci ildə "İran və Sovet arasında, Azərbaycan Milli Hökümətinin 1 ili", 2008-ci ildə "Azərbaycan dili" adı altında elmi məqalələri çap olunmuşdur.

Tokumatsu Katsumi olduqca maraqlı elm adamıdır. O, özü haqda və elmə gəlməsi haqda yazılarında qeyd edir ki, hələ orta məktəbdə oxuyarkən İranda baş vermiş inqilab, onda Yaxın Şərq regionuna və İslama qarşı böyük maraq oyatmışdır. Universitetə daxil olduqdan sonra Yaxın Şərq, xüsusilə İranı araşdırmağı qarşısına məqsəd qoymuşdu. Lakin magistraturaya daxil olduqdan sonra İranda olan azərbaycanlı əhalinin çoxluğu və onun tarixi mövqeyinin vacibliyini anlayaraq, azərbaycan dilində danışan insanların yaşadığı regionun (Cənubi Azərbaycan) tarixini araşdırmaqla, millət və xalqla bağlı problemləri düşünən zaman hər hansısa bir çıxış yolu tapacağını düşünmüşdür. Onun Azərbaycan və azərbaycanlılarla bağlı elmi araşdırmaları da məhz bundan sonra başlamışdır. Cənubi Azərbaycanla bağlı araşdırmalar edərkən, əsas diqqət yetirdiyi şəxs, Rusiyada baş vermiş inqilabdan sonra Azərbaycanda yaranmış hökümətin rəhbəri, eyni zamanda İran və Türkiyədə aktiv fəaliyyət göstərmiş Rəsulzadə olmuşdur. O, Rəsulzadənin şəxsində bu regionda yaşayan millətin yaranması, xalq kimi formalaşması prosesini dərinliklərinədək tədqiq etmək qərarını vermişdir. Tokumatsu həm də Türkiyədə tələbə kimi təhsil almış, mövcud dövlət sərhədlərini aşan insan şəbəkəsinin analizinin vacibliyinin fərqinə varmışdır. O, qeyd edir ki, Şizuoka Mədəniyyət və İncəsənət Universitetində dərs deməyə başladıqdan sonra fərqinə varmışdır ki, yaponiyalılar Orta Şərq və İslamla bağlı demək olar ki, heçnə bilmirlər. Qədim sivilizasiyaların yarandığı, hər zaman çoxmillətli, çoxdinli, qarışıq bir cəmiyyət formalaşdırmış Orta Şərqin hələ də sadəcə "islam dininə inanan ərəblərdən

ibarət olması” kimi sadəcə bir rəngli görmələri onda dərin təəssüf hissi oyatmışdır.

Tokumatsu Katsumi 2010-cu ildə Məmməd Əmin Rəsulzadənin “Bir türk milliyətçisinin Stalinlə ixtilal xatirələri” əsərinin bir hissəsinin yapon dilinə tərcüməsini etmiş və Şizuoka Mədəniyyət və İncəsənət Universitetinin tədqiqat külliyatında çap etdirmişdir.

Tokumatsudan əlavə olaraq, Hokkaydo Universitetinin doktorantı olmuş Nakajima Teppeyin 2009-cu ildə qələmə aldığı “Müasir Azərbaycanda millətçilik, Məmməd Əmin Rəsulzadə (1884-1955) timsalında” (The nationalism in modern Azerbaijan: focusing on Mehmet Emin Resulzade (1884-1955)), İşihara Keniçinin yazdığı “Məmməd Əmin Rəsulzadə və İran” (2003), “Məmməd Əmin Rəsulzadə: Bir demoratiya fəalının həyatı və yaradıcılığı” (2005), “Rəsulzadə və İran inqilabı” (2006) elmi əsərlərini göstərmək olar.

İşiharanın 2005-ci ildə qələmə aldığı, Rəsulzadənin həyat və yaradıcılığından bəhs edən əsərində o, Rəsulzadənin həyatına diqqət yetirməklə yanaşı, onun qələmə aldığı əsərlərin tərkibi haqqında məlumatlar vermişdir. Bu əsərləri oxuyub analiz edən İşihara qeyd edir ki, Rəsulzadə bəzən jurnalist, bəzən siyasətçi, bəzən də elm adamı kimi çoxtərəfli və geniş fəaliyyət göstərmiş, yüksək intellektual bir şəxsiyyət olmuşdur. Rəsulzadənin həyatının son anlarına kimi var gücü ilə, durmadan-yorulmadan qələmə aldığı əsərlərdən də bunu görmək olar. İşihara əsərinin nəticəsində qeyd edir ki, sosial-demokrat təşkilatı olan “Hümmət”-də fəaliyyət göstərmiş Rəsulzadənin sonradan fikrini dəyişərək milliyətçi siyasi partiya olan “Müsavat”-a üzv olma səbəbini izah edə bilməmişdir. Bunun üçün əsas şərt “Hümmət” jurnalında olan Rəsulzadənin yazılarını oxumaqdır ki, təəssüflər olsun ki, İşihara bu yazıları əldə edə bilməmişdir.

İşiharanın 2006-cı ildə çap edilmiş elmi yazısında isə, Məmməd Əmin Rəsulzadənin jurnalist kimi Bakıda çap olunan elmi yazı və məqalələrini tarixi sənəd kimi istifadə etməklə, onun 1905-1911-ci illərdə baş vermiş İran inqilabını necə izləməsi, necə qiymət verməsi analiz olunur.

Qeyd olunur ki, fars dilli jurnalları oxuyub, İrandakı rejim haqda məlumatlar yayan Rəsulzadə, İranda baş vermiş inqilabın əsas düşməni kimi qubernator və nazirləri, rüşvətə bulaşmış hakim dairələri tənqid edirdi. O qeyd edirdi ki, ifadə azadlığı, əsərlərin çap olunması azadlığı əsas şərtdir. Rəsulzadənin Rəştə olan səfəri, burada qələmə aldığı tənqidi yazıları da İşiharanın diqqət mərkəzində olmuşdur.

## Dağlıq Qarabağ araşdırmaları ilə bağlı

Yaponiyada müasir Azərbaycanı araşdırmaq istəyirsizsə onda hökmən Hirose Youko adlı elm adamını tanımalısız. Bu xanım hələ gənc yaşlarından Azərbaycanla, Dağlıq Qarabağla bağlı bir çox elmi məqalələr, kitablar çap etdirmişdir. Yaponiyada hal-hazırda Dağlıq Qarabağ problemi ilə bağlı elmi

məqalə yaza biləcək şəxsləri aşağıda qeyd etmək istərdim. Bunlardan ən nəhəngləri Tokio Universitetinin professoru Kimitaka Matsuzato, Vaseda Universitetinin professoru Takayuki Yoşimura, Hokkaydo Universitetinin tədqiqatçısı Taçibana Yu və Keio Universitetinin professoru Hirose Youkodur. Kyotoda yerləşən Doşişa Universitetinin professoru Tsukimura Taro da birbaşa Azərbaycan və ya Dağlıq Qarabağ probleminin araşdırmacısı olmasa belə, bu mövzu ilə bağlı kitablarında qeydlər etdirmişdir. Mənim müşahidələrimə görə, adlarına çəkilən elm adamları içərisində Azərbaycanın mövqeyinə daha yaxın olan elm adamı Hirose Youkodur. Takayuki Yoşimura erməni dilini bilib, Ermənistanda təhsil aldığına görə nisbətən Ermənistan tərəfinin təsiri hiss olunur. Amma bununla belə yazılarında kifayət qədər erməni tərəfini tənqid edən məqamlar da az deyil. Elm adamı kimi orta mövqeyi tutmağı bacarır. O həm də Dağlıq Qarabağla bağlı elmi yazısında bu konfliktə dini don geyindirməyə çağıranları qınayaraq bunun doğru olmadığını, dinin əsas rol oynamadığını vurğulayır. Münaqişənin milli münaqişə olmasını da qəbul etmir. O, qeyd edir ki, bu sırf ərazi problemidir.

Tokio Universitetinin professoru Kimitaka Matsuzato əsasən tanınmamış respublikaları araşdırdığına görə Dağlıq Qarabağın tanınmamış, qondarma rejiminə daha çox diqqət ayırır. Bu baxımdan Azərbaycanın mövqeyi ilə üst-üstə düşməyən yazıları və çıxışları mövcuddur. Qondarma rejimin təsiri az da olsa hiss olunur. Lakin müharibənin həlli ilə bağlı onunla söhbətimiz olan zamanı (2015-ci il Oktyabr) o, qeyd etmişdi ki, əgər hazırki vəziyyət davam etsə münaqişənin hərb yolundan başqa həlli düşünülə bilməz. Və əgər müharibə olarsa bu dəfə Azərbaycanın qazanması daha real görünür. Çünki Ermənistanın əhalisi azalır. Azərbaycanda isə artım müşahidə olunur. Hərbi büdcə və güc baxımından da Azərbaycan Ermənistanı üstələyir. Qüvvələr balansı Azərbaycanın xeyrinə dəyişir.

Kimitaka Matsuzatonun Rusiyanın hərbi müttəfiqi olan Ermənistana və eyni zamanda Azərbaycana silah satması ilə bağlı mövqeyi də maraqlıdır. O qeyd edir ki, Ermənistan buna görə Rusiyaya şikayət etdikdə, Rusiyanın cavabı belə olur: “Siz (Ermənistan) hərbi müttəfiqimiz olduğunuza görə sizə ucuz satırıq, Azərbaycan isə adi müştəri olduğuna görə ona baha satırıq”. Təbii ki, bu məsələ Ermənistanı narahat etməyə bilməz. Və bu bir növ hərbi müttəfiqinə qarşı inamsızlıq yarada bilər. Eyni zamanda, Azərbaycanın artan iqtisadi və siyasi gücü, Rusiya ilə olan xoş münasibətləri fonunda bu gerçəkləşir.

Azərbaycanın mövqeyinə daha yaxın hesab edilən Hirose Youko isə 2005-ci ildə çap etdirdiyi “Keçmiş Sovet regionu və münaqişələr: neft, millət, terrorla bağlı geosiyasətşünaşlıq” kitabında Azərbaycana və Dağlıq Qarabağ probleminə çox yer ayırmışdır. O kitabında qeyd edir ki, İran şiə dövləti olmasına baxmayaraq Azərbaycanı deyil, Ermənistanı dəstəkləyir. Bunun fonunda İranın Şimali və Cənubi Azərbaycanın birləşməsindən çəkinməsi faktorunun dayandığını qeyd edir.

Eyni zamanda 1918-ci ildə ermənilər və ruslar tərəfindən azərbaycanlılara qarşı törədilmiş soyqrıma da toxunur. Məhz bu soyqrımdan sonra azərbaycanlıların ermənilərə qarşı neqativ hissinin yarandığını, eyni zamanda "Azərbaycançılığın" daha da geniş vüsət almasına səbəb olduğunu vurğulayır.

O qeyd edir ki, ermənilər hər zaman Dağlıq Qarabağa sahib olmaq iddialarında olmuşlar. Lakin 1921-ci ildə Qars müqaviləsinə görə bu region rəsmən Azərbaycanın ərazisi kimi qərara alınır. Lakin ermənilərin bu regiona olan iddiaları durmaq bilmir. Ölkələrin sərhədləri bəlli olduqdan sonra belə ermənilərin təkcə Dağlıq Qarabağa deyil, Naxçıvana olan iddiaları da qələmə alınır. Bu iddiaların arxasında "Böyük Ermənistan" düşüncəsinin durduğunu, "dənizdən dənizə" yəni Qara dənizdən Xəzər dənizinə qədər olan bütün ərazilərin erməni torpaqları olması kimi xülyaların əsas rol oynadığını qeyd edir.

Bundan əlavə Azərbaycanın və Ermənistanın Rusiya, ABŞ və Fransa ilə münasibətlərinə toxunan Hirose qeyd edir ki, Rusiya ilə Ermənistanın münasibətləri hər zaman sıxdır. Ermənistanın Dağlıq Qarabağ müharibəsi zamanı Rusiyadan külli miqdarda silah və hərbi kömək aldığı vurğulanır. Azərbaycanın isə müstəqilliyi əldə etdikdən sonra münasibətlərin gərgin olması, bir müddət Azərbaycanın MDB-dən çıxması yazılsa da, son zamanlar münasibətlərin gözəçarpacaq dərəcədə normallaşması qeyd olunur.

ABŞ-la münasibətlərə toxunan Hirose, ABŞ-da çoxlu sayda ermənilərin olduğunu, onların əksəriyyətinin zəngin olmaqla yanaşı, lobbi fəaliyyətini davam etdirdiyini və buna görə də Ermənistanın dünyada ən çox yardım aldığı 2-ci dövlətin məhz ABŞ olduğunu vurğulayır. Dağlıq Qarabağda qurulmuş qondarma rejimin də birbaşa ABŞ-dan yardım aldığı qələmə alınmışdır.

Azərbaycanla ABŞ münasibətlərindən yazan Hirose, ABŞ-da olan erməni lobbisinin təsiri ilə Azərbaycanla münasibətlərin xoş olmadığını, bir müddət bu ölkəyə qarşı iqtisadi sanksiyaların tədbiq edildiyini yazır. Bununla belə, ABŞ-ın Azərbaycanla neft sahəsində əməkdaşlıq etmək istədiklərini və ABŞ-ın neft sahəsinin adamları eyni zamanda yəhudi icması tərəfindən Azərbaycanın dəstəkləndiyini vurğulayır.

Hər iki ölkənin Fransa ilə münasibətlərindən yazan Hirose, onu da bildirir ki, ABŞ-la olduğu kimi Fransa ilə də Ermənistanın çox sıx əlaqələri var. Burada yaşayan zəngin ermənilərin lobbi fəaliyyətinin nəticəsində. Azərbaycan isə Fransanın açıq-aşkar ermənipərəst mövqeyini qətiyyətlə qınayır və onun əvəzinə Türkiyənin ATƏT-in Minsk qrupuna həmsədr olmasının tərəfdarı olduğunu bildirir.

Hirose kitabında onu da qeyd edir ki, Dağlıq Qarabağla bağlı yazılmış ingilis dilli ədəbiyyatlarda neytral mövqedən məsələni araşdıran yazılar çox azdır. Bunun xaricdə olan erməni lobbisi ilə birbaşa əlaqəsinin olduğu qeyd olunur.

Erməni lobbisinin təsiri ilə yazılmış ingilis dilli əbəbiyyatların elm dünyasında geniş yayılması isə əslində çox böyük bir problemdir. Düşünürəm

ki, Azərbaycan tərəfi olaraq, ingilis dilində Azərbaycanın mövqeyini tamamilə ortaya qoyan səviyyəli elmi yazılara böyük ehtiyac vardır.

Üçüncü tərəflərin, üçüncü şəxslərin elmi yazıları çox vacibdir. Yəni nə erməni nə də azərbaycanlı olmayan hər hansısa digər bir millətin, dövlətin nümayəndəsinin yazdığı yazılar hər zaman yüksək qiymətləndirilir. Bu baxımdan düşünürəm ki, xaricdə olan diaspor təşkilatlarımız və nümayəndələrimiz öz büdcələrində bu istiqamətə yer ayırmalıdırlar. Düzgün məlumatı çatdırmaqla, Azərbaycanın mövqeyinin işıqlandırılmasına nail olmalıyıq. Əks halda, erməni lobbisinin təsiri ilə yazılmış yazılar gələcəkdə hökm sahibi olmuş olacaqlar.

Biz isə buna icazə verə bilmərik. Bunun üçün yorulmadan-durmadan elmi fəaliyyətimizi, lobbiçilik fəaliyyətimizi davam etdirməliyik.

**Fəridə Bağırova**

## Перспективы развития карабахского конфликта

Конфликт между Азербайджанской Республикой и Республикой Армения вокруг территории Нагорного Карабаха по своим политическим и гуманитарным последствиям является одним из самых масштабных среди региональных конфликтов на постсоветском пространстве. Главная причина, так называемой, "Нагорно-Карабахской проблемы" заключается в неразрешенности территориальных проблем между Азербайджанской республикой и Республикой Армения. Исторические корни Нагорно-Карабахского конфликта достаточно глубоки. В современной исторической литературе эта проблематика освещена достаточно широко. При этом некоторые авторы началом истории Нагорно-Карабахского конфликта считают 1918 год. По мнению других, точкой отсчета в истории нагорно-карабахской проблемы является 1813 г., когда был подписан «Гюлистанский мирный договор» между Россией и Ираном 24 октября в Карабахском селении Гюлистан. Иран признал присоединение к России Карабахского а также др. ханств (см 1). Следующим этапом, сыгравшим большую роль в судьбе Азербайджанского народа, стал «Туркменчайский мирный договор», подписанный в 1828 г. между Россией и Ираном. По условиям договора, правительство Ирана обязалось не препятствовать переселению армян на территорию Эриванского и Нахичеванского ханства. По официальным данным, если в 1810 году в «Карабахском владении» из 12000 семейств 2500 составляли армянские, то в 1829г. после русско-иранской войны на территориях этих ханств образовалась

Армянская область, куда из Ирана и Турции переселилось более 130 тыс. армян (см 2).

Позднее 28 мая 1918г. в состав образовавшейся Азербайджанской Демократической Республики входил и Карабах. Далее в том же году 4 июня, согласно Батумскому договору, подписанному между Турцией и Арменией, территория последней ограничивалась районами Араратской долины и Севанского бассейна (см 2). С этого периода, продолжавшийся процесс переселения армян на территорию Карабаха рождает жесткие противоборства между Арменией и Азербайджанской Демократической Республикой. Причиной тому было то, что Карабахская земля приютила десятки тысяч зарубежных армян, которым грозило физическое истребление со стороны Ирана и Турции.

Вековая экономическая и культурная связь Карабаха с другими областями Азербайджана, в частности, с Баку, и полная оторванность от Армении, от Еревана, были причиной того, что армянское крестьянство Карабаха в 1919 г. решило присоединиться к Азербайджану. Тем временем «Дашнаки-агенты» армянского правительства добиваются присоединения Карабаха к Армении, хоть это и значило бы лишиться источника своей жизни в Баку и связаться с Эриванью, с которой никогда и ничем не были связаны. Уже через год 28 апреля 1920 года в Азербайджане установилась Советская власть - это и спасло трудящихся Карабаха от новых страшных злодеяний дашнаков (см 3).

Карабах, издавна включавший в себя и низменную, и верхнюю части, сложился как единый регион с неразрывными экономическими, социальными, административно-политическими связями и исконно был органически связан со всем остальным Азербайджаном. Трудящееся крестьянство НК, составляющее основную массу населения области, получало благоприятные возможности разрешения земельного вопроса, поскольку Азербайджан, в отличие от Армении, располагал значительными плодородными земельными площадями. Отметим, что благодаря наличию крупнейшего индустриального центра Баку, немало выходцев из Нагорного Карабаха трудились на нефтяных промыслах и в строительстве. Тем временем, на протяжение всех десятилетий всякий раз, когда в политической жизни страны начинались перемены (1945-1977г.), армяне направляли в Москву петиции, требуя воссоединить Нагорный Карабах с Советской Арменией.

Новым поворотом в истории Нагорного Карабаха становится 1988 год после распада Союза, когда оба новообразованных государства оказались вовлеченными в кровавый вооруженный конфликт с самого момента обретения независимости. Военные действия, унесшие десятки тысяч жизней мирного населения привели к появлению более 800 тыс. беженцев и вынужденных переселенцев – азербайджанцев в своей стране.

В 1992-1994 гг. для азербайджанских властей стала очевидной невозможность военного решения карабахской проблемы, в следствии чего главный упор был сделан на дипломатию. В Баку всерьез рассчитывали на США и Европейский союз по делу возврата Карабаха в рамках формулы «нефть в обмен на Карабах». Но в дальнейшем стало очевидно, что подобные дипломатические маневры оказались безрезультатными, а это в свою очередь, привело к разочарованию в политике США, ЕС в азербайджанском обществе. Тем временем, все попытки выработать взаимоприемлемое мирное решение в ходе переговоров под эгидой Минской группы ОБСЕ также заканчиваются безрезультатно. Азербайджанская власть вынуждена вписать карабахскую проблему в «новую главу» политической жизни страны; возврат «оккупированных территорий» превращается в главную национальную идею, призванную объединить общество. Цель данной политики состоит в том, чтобы заставить армянскую сторону капитулировать путем постоянного давления по всем возможным направлениям. В настоящее время отказ от этой идеи для Баку практически невозможен.

Следует отметить, что по сей день не достигнуто решение конфликта, несмотря на многочисленные усилия, как сторон конфликтующих, так и многочисленных международных посредников. Наименование «Четырехдневная война» 2-5 апреля 2016 г. в зоне карабахского конфликта получило широкое распространение, хотя и не отражает всю суть происходящих событий. Война фактически возобновилась уже много лет назад, продолжилась она и после заключения договоренности о прекращении военных действий. События 2-5 апреля 2016 г. были лишь эпизодом этой многолетней войны, но во многом определяющим будущие перспективы развития карабахского конфликта.
Сегодняшний Азербайджан уже не исключает военное решение карабахской проблемы, о чем свидетельствуют масштабные закупки современного вооружения. Страна также повышает уровень напряженности на линии фронта, демонстрирую военное превосходство над армянской армией. Правительство также ведет активную дипломатическую работу по ослаблению позиций Армении на международной арене. Можно сказать, что Баку удалось использовать в своих целях сотрудничество с Россией в военно-технической области: поставки российского вооружения азербайджанской армии превратились в одну из наиболее болезненных проблем в российско-армянских отношениях. Нашим государством были подписаны соглашения о сотрудничестве в военной области и поставке соответствующих видов российского вооружения.

Под влиянием коммерческой привлекательности сделок с Азербайджаном как для российский, так и для производителей вооружения из других стран, Азербайджан по ряду видов вооружения (танки,

артиллерия, тяжелые огнеметные системы, разведывательные и ударные беспилотники и др.), во многом превосходит Армению. Наращивание потенциала азербайджанской армии сопровождается постоянным ростом военной напряженности в зоне конфликта.

**Список литературы**

1.Алиев И. Г. Нагорный Карабах: история, факты, события. - Баку, 1989.
2.Балаев А. Карабах от периода независимости АДР к советской автономии // Международный Азербайджанский журнал «Irs» - Москва, 2005. - № 2-3 (14-15).
3.Конфликт в Нагорном Карабахе: Сборник статей. - Баку, 1990.
4.Мамедов И., Асадов С. Азербайджанцы А

**Firuzə Əliyeva**

## Qarabağ müharibəsi və milli tarixi yaddaşımız

**Tariximiz bizim üçün dərs olmalıdır.**
**Heydər Əliyev**

Bəli, əsrlər boyu ermənilərin Azərbaycana qarşı yeritdiyi soyqırım siyasəti XXI əsrin əvvəllərində özünü büruzə verdi. Əslində biz azərbaycanlılar ermənilərin illər boyu xalqımıza qarşı törətdikləri vəhşilikləri H.Əliyevin qeyd etdiyi kimi tarix boyu unutmamalı və bizə dərs olmalıdır. Belə ki, ermənilər bildiyimiz kimi Rusiyanın Azərbaycana qarşı yeritdiyi işğalçılıq siyasəti nəticəsində Naxçıvanda və Qarabağda ən yaxşı xan-bəy torpaqlarında yerləşdirilməyə başlandılar. Qriboyedov bununla bağlı yazırdı: "Ermənilərin ilk dəfə buraxıldıqları torpaqlara əbədi sahib duracaqlarından müsəlmanlar içərisində yaranan qorxunu aradan qaldırmaq üçün mövcud ağır vəziyyətin uzun sürməyəcəyini bildirməklə onları sakitləşdirmək məqsədlərini dəfələrlə götür-qoy etmişik. Lakin Qarabağ və Naxçıvanda çar hökuməti tərəfindən elə bir siyasət yeridilirdi ki, öz başlarının hayına qalan xalq ermənilərin orada məskunlaşmasını unutmalı oldu"[44] (1,2).

Bəli, əsrin əvvəllərində öz dədə-baba torpaqlarımızda məskunlaşan, bizim ərazimizin hesabına Ermənistan respublikası adlandırılan yerləri artıq biz unutmuşuq. Bu torpaqlar yalnız kağız üzərində qalmışdır. Onlar xəritədən belə Azərbaycan torpaqlarını silmişlər. Ermənilərin əsas ideyası "Böyük Ermənistan" və ya "Dənizdən-dənizə dövlət yaratmaq" olmuş və bu yolda bütün vasitələrdən, o cümlədən kütləvi teerror, soyğunçuluq və s. kimi vəhşiliklərdən istifadə edərək, istədiklərinə nail olmuşlar. Qeyd etdiyimiz kimi əsrin əvvəllərindən

[44] "Naxçıvan" jurnalı, 2001.¹5.

Azərbaycan torpaqları işğal olunaraq ermənilərə verilmiş, müxtəlif regionlarda azərbaycanlıların soyqırımını həyata keçirmişlər.

Bildiyimiz kimi ermənilər işğal etdikləri ərazilərdə vəhşiliklər etmiş, qədim mədəni abidələrimizi öz adlarına çıxartmaq üçün məhv etmişlər. Azərbaycanın görkəmli yazıçısı M.S.Ordubadi "Qanlı illər" və M.M.Nəvvab "1905-1906-cı illərdə erməni-müsəlman davası" kitablarında azərbaycanlılara qarşı həyata keçirilən soyqırımını ətraflı qələmə almışlar. M.S.Ordubadi yazırdı: "Süni və çoxdan bəri hər iki millətin zatına qondarılmış ixtişaş bombası partladıldı və bütün Qafqaz aləmi bu bombanın təsiri şiddətindən yanıb-yaxıldı. Görəsən, o partlayıcı maddə həqiqətən bomba imiş? Bəli, bu bomba fevralın 6-da baş verən Bakı faciəsidir ki, bütün Qafqaza buradan atəş açıldı".[45]

M.S. Ordubadinin bu fikirlərini təsdiqləyən ermənilərin "Qnçaq" qəzeti özünün 26 may tarixli sayında yazırdı: "Dünən axşam saat 6-dək biz azərbaycanlılarla atışdıq. Bizə bunun üçün əlavə olaraq 166 müxtəlif tüfənglər paylanıldı, böyük sayda patron verildi, biz təmiz vicdanla şəhərimizi (yəni Naxçıvanı) müdafiə etdik, türkləri layiqincə qırdıq. Qnçaqçılar 2, daşnaklar isə 1 bombadan istifadə etdilər. Çoxlu türk evləri qarət edildi. Bizə silah paylayan adam yenidən silah dalınca getdi".[46](2,5) Təxminən iki ilə qədər davam edən qanlı toqquşmalar nəticəsində Azərbaycan şəhərlərinə böyük zərər dəymiş 300-dən çox müsəlman kəndi dağıdılmış, 10 min nəfərə qədər insan vəhşiliklə məhv edilmişdir. Bakıda erməni daşnaqları 17 min azərbaycanlını məhv etmiş, A.Mikoyanın "Qızıl qvardiyası" İçərişəhərdə yaralılar yatan xəstəxanaya od vurmuş 2 minədək xəstəni yandırmış, qaçanları isə güllələmişdir.

Erməni vəhşiliyini hələ 1905-ci ildə Almaniyanın dövlət xadimi və alimi bildirirdi ki, "ermənilər ki, bu cür yoil tutublar, çox tezliklə dünya üzündən məhv olub gedəcəklər, yer üzərində onlardan bir əsər-əlamət qalmayacaqdır".[47] (3,47) Ermənilərin qəddarlığı nəticəsində insanlarla bərabər 900 yaşayış məntəqəsi, 7 min sənaye və kənd təsərrüfat obyekti, 131 min ev, 1025 məktəb, 798 səhiyyə ocağı, 800 km avtomobil yolu, 160 körpü, 23 min km su və 15 min km elektrik xətləri məhv edilmişdir. Onlar mədəniyyət ocaqlarını – 22 muzeyi, 4 rəsm qalereyasını, tarixi əhəmiyyətli 9 sarayı qarət edib yandırmışlar. Nadir tarixi əhəmiyyətli 40 min muzey sərvəti və ekspanatı talan olunmuş, 44 məbəd və 9 məscid dağıdılmışdır. 927 kitabxanada 4,6 milyon kitab və qiymətli tarixi əlyazmalar məhv edilmişdir. İşğalçılar tərəfindən 220 min baş iribuynuzlu mal-qara Ermənistana aparılmışdır.[48] (1,79) Bildiyimiz kimi ermənilərin əsas havadarları Rusiya və İran hökuməti olmuşdur. Rusiya imperiyasının o vaxtlar əsas məqsədi Xəzər dənizinə çıxmaq, burada hərbi donanma yaratmaq, Qafqaz regionuna sahiblik etmək olmuşdur. Çarizmin regionda öz imperiya siyasətini

[45] M.S.Ordubadi "Qanlı illər"

[46] "Naxçıvan" jurnalı, 2001.¹5.

[47] N.Məmmədov Dağlıq Qarabağ gerçəklikləri: soyqırımı, terror, deportasiya, işğal (XX yüzillik)B., Təhsil, 2009.

[48] Nəsimli Ə. Qarabağın işğalının iqtisadi nəticələri. Qarabağ, dünən, bu gün, sabah. B.2007.

yeritməsini artıran “şanslardan” biri ermənilərin Rusiyanın hakim dairələri ilə əlbir hərəkəti idi. Erməni millətçiləri özlərinin “böyük siyasətlərinə” atılarkən başlıca məqsədləri Türkiyə Ermənistanında “azad hökmranlıq edən demokratik respublika”, “dənizdən dənizə qədər (Bakpı da daxil olmaqla) Böyük Ermənistan” dövlətini yaratmaq olmuşdur. Həyata keçirilməsi mümkün olmayan bu siyasi utopiyanı erməni ideoloqları əsrlər boyu təbliğ etməyə başlamış və bu siyasətlərində çox incə “üsullardan” istifadə etmişlər. Məsələn, 1608-ci ildə İran dövlətinin başçısı Şah Abbasın müşaviri olmuş Xoca Səfər (Şah İranın xarici siyasət məsələləri ilə məşğul olmağı və Avropa ölkələri ilə danışıalar aparmaq səlahiyyətini ona həvalə etmişdi) Roma papasına, İspaniya kralına, Toskano hersoquna və Venetsiya dojuna şahın məktubunu çatdırmaq fürsətindən istifadə edərək ermənilərin də məktubunun olduğunu bildirmiş, Avropanın o dövrdə nüfuzlu ölkələrinin başçılarının diqqətini “məzlum ermənilərin” problemlərinə cəlb etmişdi.[49] (2,2) Bu erməni millətçilərinin Avropaya açdıqları “siyasi pəncərə” oldu. Erməni millətçilərinin Rusiya ilə yaxınlaşmasında İranla Rusiya arasında ticarət əlaqələrində ermənilərin fəal iştirakı danılmaz faktdır. Ermənilər öz milli məqsədlərinə nail olmaq üçün rus məmurlarına bahalı hədiyyələr rüşvət verirdilər.[50] (3,3) Belə ki, tarixə nəzər salsaq görərik ki, 1660-cı il avqustun 28-də Rusiyada İran ipəyi alveri ilə məşğul olan İsfahan taciri Xoca Zakur Sarhadov (Sarhadyan) özünün şirnikləşdirici hədiyyələri ilə çar Aleksey Mixayloviçin qəbulunda olur. Göründüyü kimi ermənilər belə rüşvətləri ilə özlərinə dost tapırlar. Onlar Rusiya ilə əlaqələrini genişləndirmək üçün əsrlər boyu dəridən-qabıqdan çıxmışlar. Vaxtı ilə I Pyotr Şərq bazarlarında Rusiyanın mövqeyini möhkəmləndirmək üçün Avropa ilə aparılan ipək ticarət yolunu Volqa-Xəzər yolu istiqamətinə döndərərək, Osmanlı İmperiyasının xəzinəsinə axan “ipək gəlirini” öz əlinə keçirmək istəmişdir. Belə ki, həmin dövrdə Asiyadan Avropaya aparılan ipək mallar İran və Qafqaz yolu ilə daşınırdı.

Qeyd etmək lazımdır ki, ermənilərin əsrlər boyu azərbaycanlılara qarşı yeritdiyi təcavüzkar siyasəti torpaqlarımızın itirilməsi ilə bitdi. Hal-hazırkı dövrdə də onlar heç bir danışıqlara gəlmir, dövlətlərin, müxztəlif etnik qrupların təşkil etdikləri Mədəniyyətlərarası Dialoqu Forumlarında iştirak etməkdən çəkinirlər. Çünki ermənilərin heç bir mədəniyyəti yoxdur. Onlar yalnız başqa xalqların (azərbaycanlıların) mədəni irsini mənimsəməklə özününküləşdirirlər.

[49] S.Kərimova Böyük erməni xülyası və Böyük Pyotr. “Azərbaycan” qəzeti 22 iyun, 1990-cı il.
[50] N.MustafaErmənilər öz dövlətlərini yaratmaq üçün nə qədər rüşvət vermişlər. Yeni Azərbaycan, 5 avqust, 1992-cü il.

**Firdovsiyyə Əhmədova**

# 100 YAŞLI TƏHQİQAT İŞİ:
# TARİX NƏ DEYİR?

Azərbaycan ərazisində 1918-ci ilin yazından başlayaraq dinc müsəlman əhalinin kütləvi qırğınlarını təhqiq etmək üçün xüsusi təhqiqat aparılması zərurəti yaranmışdı. Azərbaycan hökuməti Bakı uğrunda savaş getdiyi bir zamanda Fövqəladə Təhqiqat Komissiyasının yaradılmasına qərar verdi. Gərgin və mürəkkəb iş şəraitində, 1918-ci il iyulun 15-də qəbul edilmiş hökumət qərarı olduqca əhəmiyyətli, strateji məzmunlu sənəd oldu. Cümhuriyyətin xarici işlər naziri M.-H.Hacınski hökumətə məruzə ilə müraciətində artıq dörd ayı keçən son müddətdə «Azərbaycan ərazisinin müxtəlif bölgələrində bolşevik adı ilə məsuliyyətsiz erməni hərbi hissələri»nin «mülki müsəlman əhalisinin həyatı və əmlakına qarşı eşidilməmiş vəhşiliklər» törətdiyini yazırdı (1, c.1, s.379). Belə bir məruzənin – müraciətin məhz xarici işlər naziri tərəfindən edilməsi ilə əsassız deyildi. Azərbaycan Cümhuriyyətinin beynəlxalq aləmdə tanıdılmasına nail olmaq üçün formalaşan ictimai rəy olduqca önəmli idi. Yeni yaradılmış gənc Azərbaycan dövlətini nəinki qəbul etdirmək, hətta varlığından xəbərdar etmək çətinliyini yaşayan hökumət əks təbliğatla üzləşmişdi. Müsəlmanları qətliama məruz qoymuş «quldur dəstələri tərəfindən göndərilən yalan məlumatlar əsasında Avropada bütün ictimai fikir tamamilə əks istiqamətə», yəni, azərbaycanlılara qarşı yönəldilmişdi. Bu məqamı vurğulayan xarici işlər naziri «fövqəladə təhqiqat komissiyası» xarakterli bir təşkilatın yaradılmasını zəruri sayırdı ki, «komissiyanın işinin nəticələri başlıca Avropa dillərində – rus, fransız, alman dillərində və əlbəttə ki, türk dilində» elan edilməliydi. Komissiyanın yaradılması 2 cəhətdən əsaslandırılırdı: «ümumi dövlət mənafeyi» və «əhalinin zərərçəkən qruplarının mənafeyi» baxımından. Hüquqa söykənən ədalətin təmin olunması gərəkliyi qədər Azərbaycan dövlətinin mənafeyi önə çəkilirdi. M.-H.Hacınski komissiyanın vəzifələrini 3 bənddə göstərsə də əslində 4 vəzifə müəyyənləşdirilmişdi: «Bütün zorakılıq hadisələrinin dəqiq qeydiyyatının aparılması; bu zorakılıqların həyata keçirildiyi şəraitin müəyyənləşdirilməsi; cinayətkarları aşkar etmək və onların vurduqları zərərin həcminin müəyyənləşdirilməsi». Göründüyü kimi 3-cü bənd 2 vəzifəsini ifadə edirdi. Komissiyanın əhəmiyyətini olduqca mühüm sayan nazir onun «təşkilinə bu gündən başlamaq lazımdır» deyirdi: «Çünki bir çox şeyləri indi isti-isti adamlardan soruşmaq, fotoşəkilləri çəkmək və hələ ki, mövcud olan digər əşyalar – dəlillər əsasında sübuta yetirmək olar»dı. «Sonralar bu təhqiqat işi çətinləşə və hətta sübutu tamamilə imkan xaricində ola bilər»di. İki ayı tamam olmamış, yaxın müqəddəratı təhdid altında olan, Bakı uğrunda savaşın aqibəti bəlli olmayan bir vaxtda M.-H.Hacınskinin uzaqgörənliklə etdiyi təklif hökumətin eyni tarixli qərarı ilə qəbul edildi: «Xarici işlər nazirinin məruzəsi

bəyənilsin və ona tapşırılsın ki, Avropa müharibəsi başladığı vaxtdan bütün Zaqafqaziya ərazisində müsəlmanlara və onların əmlakına qarşı işlənilmiş zorakılıq hallarını təhqiq etmək üçün Fövqəladə Təhqiqat Komissiyası yaratsın» (3, s.213). Qərardan bəlli olur ki, müsəlmanlara qarşı zorakılıq yalnız son aylardan deyil, birinci dünya müharibəsinin başladığı vaxtdan həyata keçirilmişdir, həm də bütün Cənubi Qafqaz coğrafiyasını əhatə etmişdir. M.-H.Hacınski məruzəsində xahiş edirdi ki, bu komissiyanın təşkili nazirlərdən birinə tapşırılsın və məsrəfləri üçün müvəqqəti olaraq 50000 rubl ayrılsın (2, f.1061, s.1, iş 105, v.1). Fövqəladə Təhqiqat Komissiyasının (FTK) qarşısında duran vəzifələr peşəkar hüquqşünasların birgə fəaliyyəti sayəsində yerinə yetirilə bilərdi. Məhz bu məqsədlə FTK «xarici işlər nazirliyi» yanında təşkil edilsə də, artıq həmin ilin sentyabrından, faktiki olaraq, ədliyyə nazirliyi nəzdində fəaliyyət göstərirdi. Bu da tamamilə təbii idi, çünki bu işlə bilavasitə məşğul olanlar əsasən hüquqşünaslar idilər» (1, c.1, s.380). 1918-ci il avqustun 30-da hökumət qərarı ilə FTK üçün 50000 rubl həcmində kredit açıldı (3, c.227). Avqustun 31-də isə qəbul edilmiş hökumət qərarına görə FTK 7 nəfərdən ibarət tərkibdə yaradıldı. Qərarı ixtisasca hüquqşünas, həmin dövrdə həm də ədliyyə naziri olan hökumət başçısı Fətəli xan Xoyski imzalamışdı. FTK-nın sədri andlı iclasçı Ələkbər bəy Xasməmmədov təyin edilmişdi.

7 nəfərlik heyətin əksəriyyəti peşəkar hüquqşünas, 3-ü qeyri-azərbaycanlı idi. Müxtəlif vaxtlarda komissiyanın tərkibində başqa hüquqşünaslar da fəaliyyət göstərmişdir. Komissiya tərkibinin əmək haqları və ezamiyyə xərclərinin həcmi qərarla müəyyənləşdirilmişdi.

1918-ci il iyulun 15-dən 1919-cu il noyabrın 1-nə qədər fəaliyyət göstərmiş FTK azərbaycanlıların həyatına və onların əmlakına qarşı cinayətləri təhqiq etmək üçün gərgin iş aparmışdır. Son dərəcə ağır şəraitdə, müxtəlif xəstəliklərin, dəhşətli epidemiyaların tüğyan etdiyi qəzalarda, kəndlərdə təhqiqat aparan komissiya üzvləri hətta açıq səma altında, qapısız-pəncərəsiz evlərdə döşəmə üstündə işləməli və gecələməli olurdular. Nəqliyyat vasitəsi ən ağrılı problemlərdən idi. Kilometrlərlə məsafəni piyada qət etmək lazım gəldiyindən komissiya üzvlərinin əməkhaqqı sıradan çıxmış çəkmələrini yeniləməyə belə imkan vermirdi (5, s.48-49). Beləki, istər 31 avqust, istərsə də 22 sentyabr 1918-ci il tarixli hökumət qərarları ilə komissiyanın üzvləri yalnız bu məqsədlə işlədikləri günlər üçün əməkhaqqı almaq hüququna malik idilər (3;1, c.1 s.380). Bütün maddi məhrumiyyətlərə və fəaliyyət çətinliklərinə baxmayaraq komissiya üzvləri sədr Ə.Xasməmmədovun dönə-dönə vurğuladığı «Qanun və vicdanın aliliyi» prinsipinə söykənərək 36 cild və 3500 vərəqdən ibarət material toplamışdı. Komissiyanın fəaliyyətinə əngəl törətməyə çalışan qüvvələr azərbaycanlıların kütləvi qətliamına səbəb olmuş, birbaşa iştirak və rəhbərlik etmiş təşkilatlar idi. Qırğınlardan bir il sonra, günahkarlar istintaqa cəlb edilməyə başlayanda Bakıda Erməni Milli Şurası və «Daşnaksutyun» partiyasının parlament fraksiyası həmişə olduğu kimi, ermənilərin müdafiəsinə qalxmış, onların günahsız olduqlarını sübut etməyə çalışmışlar (1, c.1, s.380).

FTK-nın fəaliyyəti Bakı və Gəncə quberniyalarının ərazilərini əhatə edirdi. Göyçay, Şamaxı, Cavad, Quba, Cavanşir, Cəbrayıl, Şuşa, Zəngəzur qəzalarında, o cümlədən Bakı, Quba və Şamaxı şəhərində müsəlmanlara qarşı törədilmiş vəhşilikləri sübut edən məlumatlar toplanmışdı.

Üçüncü, həmin bölgələri Azərbaycandan qopararaq Ermənistana birləşdirmək ideyasını açıq elan edən Andranikin hərbi hissələrinin bu yerlərə soxulması vəziyyəti daha da kəskinləşdirmişdir. Bu məqsədlə yerli ermənilər tərəfindən də silahlı dəstələr yaradılmış, onların azərbaycanlıların kəndlərinə basqınları çoxalmışdı. Nəticədə həmin ərazilərdə 150-dən çox Azərbaycan kəndi dağıdılmış, əhalinin çox hissəsi isə qonşu mahallara və hətta İrana üz tutmuşdur.

Dördüncü, yerli idarə orqanlarının nümayəndələri nə qədər təcrübəli olsalar da, ermənilərin ciddi hərəkatı ilə əlaqədar məsələlərdə və hadisələrdə sərbəst xətt yeritmək səviyyəsində deyildilər. Onların fəaliyyətinə fasiləsiz rəhbərlik və nəzarət edilməsinə ehtiyac duyulur. Qanuna görə bu iş Gəncə qubernatorunun səlahiyyətinə aid idi. Lakin baş verən hadisələr yerlərdə yerli idarə orqanlarının təcili tədbirlər görülməsini tələb etdiyi halda, qubernatorla əlaqə yaradılması nəinki xeyli vaxt aparır, hətta lazımı şərait olmadığından çətinlik yaranırdı. Deməli, yerlərdə xüsusi səlahiyyətləri olan və Mərkəz

Azərbaycan hökumətindən bilavasitə zəruri göstərişlər ala biləcək xüsusi ali hakimiyyətin təşkili şəksiz zəruriyyət təşkil edirdi .(**2,s.113).**

Belə bir nəticəyə gəlmək olar ki, məruzədə Zəngəzur, Şuşa, Cavanşir və Cəbrayıl qəzaları üçün mərkəzi Şuşa şəhəri olmaqla müvəqqəti general-qubernator vəzifəsi yaradılması zəruri hesab edilir. Əsas məsələ general-qubernatora mövcud qanunvericiliyə müvafiq hüquqlar və səlahiyyətlər verilməsi, məhkəmə və dövlət nəzarəti nümayəndələrindən savayı, qəzalardakı bütün idarələrin və vəzifəli şəxslərin ona tabe etdirilməsi qeyd olunurdu.

Müəyyən məsləhətləşmələrdən sonra Azərbaycan hökumətinin 1919-cu il yanvarın 29-dakı iclasında "Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzur qəzalarına general-qubernator təyin edilməsi haqqında DİN-nin məruzəsi" dinlənildi və aşağıdakı qərar qəbul edildi.

a) X.Sultanovun general-qubernator təyin edilməsi;

b) Nazirliyin 20 milyon manatlıq fondundan general-qubernatorluğun ehtiyacları üçün 5 milyon manat ayrılması;

v) Həmin məbləğdən 1 mil. manatın general-qubernatorun sərəncamına indi buraxılması, ondan isə 728 min 300 manatın qubernatorluğun ştatının saxlanması, 600 nəfərlik suvarı dəstənin təşkili və bir ay müddətində təmin olunmasına, 271 min 700 manatın isə gözlənilməz, təcili tədbirlərə xərclənməsi;

q) Yuxarıda qeyd olunan dəstənin sayının 3000 nəfərə çatdırılmasının mümkünlüyünü etiraf etməklə, bunun hökumətin xüsusi göstərişi ilə həyata keçirilməsi"(**3, s.114).**

Şuşaya gələn kimi Xosrov bəy Sultanov Qarabağ torpağını erməni quldur dəstələrindən azad etmək üçün gərgin fəaliyyətə başladı. O, 1919-cu il fevralın 12-də Şuşa, Zəngəzur, Cavanşir və Cəbrayıl qəzalarının əhalisinə müraciət edərək onlara general-qubernatorluğun yaradılması səbəblərini izah etmişdir. Müraciətdə deyilirdi ki, Azərbaycan hökumətinin yanvar ayında verdiyi qərarla Zəngəzur, Şuşa, Cəbrayıl və Cavanşir qəzaları xüsusi general-qubernatorluğa daxil edilmişdir. Bu fövqəladə tədbir onunla izah olunur ki, "Azərbaycanın ən gözəl güşələrindən olan dörd qəza bir ildən artıqdır ki, hərc-mərcliyin içindədir. Erməni quldurlarının rəhbərliyi altında silahlı dəstələr öz şəxsi iddialarını həyata keçirmək üçün kəndləri yandırır, əhalini məhv edir, minlərlə qadın və uşağı qaçqınlığa məruz qoyur. Bütün bunları nəzərə alaraq hökumət adları çəkilən dörd qəzada general-qubernatorluq yaratmağı nəzərə almışdır. Öz həyatını xalqına həsr etmiş bir ictimai xadim kimi mən bildirirəm ki, millətindən asılı olmayaraq qanunçuluğa və ədalətə ciddi əməl edəcəyəm və bildirirəm ki, general-qubernatorluğun rayonlarında yeganə hökumət — Azərbaycan hökumətinin hakimiyyətidir və hamı məcburi şəkildə ona tabe olmalıdır. Hər hansı bir şəkildə qayda-qanunun pozulması, hərc-mərcliyə gətirib çıxarmış hərəkət general-qubernatorluğun qanunları ilə ciddi şəkildə cəzalandırılacaq. Qanun qarşısında hamı bərabərdir**(4,v. 13).**

Xosrov bəy Sultanov Şuşada, Qarabağda və Zəngəzurda vəziyyətlə hərtərəfli tanış olmaq üçün ingilis, Azərbaycan və erməni nümayəndələrinin iştirakı ilə bir neçə rəsmi müşavirə keçirdi.

İlk müşavirə 1919-cu il fevralın 15-də keçirilmiş və aşağıdakı məsələlər müzakirə edilmişdir: Erməni-Azərbaycan münaqişəsi, erməni qaçqınlarının müvəqqəti məskunlaşdırılması və köç məsələsi;Milis orqanlarının fəaliyyətinin gücləndirilməsi və at-araba mükələfiyyəti.Ərzaq məsələləri,əkin və bağ sahələrinin genişləndirilməsi;Müsəlman qaçqınlarının öz yerlərinə qaytarılması;Tibbi işlər;Məktəb işləri;Çağırışçılar məsələsi;Poçt və teleqraf;Cari məsələlər.(**5, v.11).**

Müşavirədə çıxış edən Xosrov bəy Sultanov bildirmişdir ki, müşavirəni çağırmaqda məqsəd, onun iştirakçılarını ölkədə olan vəziyyətlə tanış etmək, müvafiq tədbirlər görməklə normal həyat tərzini bərpa etməkdən və həmçinin ahəngdar, planlı iş sistemi yaratmaqdan ibarətdir.

İclasda çıxış edən Cavanşir qəza rəisi Bəhram bəy Məlik Abbasov bildirmişdir ki, hələlik sakitlikdir, lakin "millət təəssübkeşləri" əhali içərisinə narazılıq salırlar. Onun verdiyi məlumata görə qəzada 48 erməni kəndi və 277 azərbaycanlı kəndi var. Əhalinin nisbəti isə belə imiş: 24607 nəfər erməni və 48064 nəfər azərbaycanlı. Onun dediyinə görə son məlumatda azərbaycanlıların sayının 63000 nəfər olduğu müəyyən edilmişdir.

Qəza rəisi aşağıdakıları təklif etmişdir: 1) Andranikin və onun hərbi dəstələrinin Qarabağdan çıxarılması, 2) Azərbaycanın dövlət hakimiyyətini qəbul edən kasıb erməni əhalisinə ərzaqla yardım göstərilməsi, 3) Münaqişədə olan kəndlər arasında polis gözətçi məntəqələri yaradılması, 4) Araqarışdıran erməniləri əhali özü kənddən çıxarsın.

Zəngəzurun qəza rəisi Camal bəy Sultanov çıxışında demişdir ki, Andranik Ararat respublikasından xüsusi göstəriş alır, ingilis nümayəndəliyi isə ona hərbi yardım göstərir və ona bu məqsədlə iki milyon manat pul vermişdir. O, qeyd etmişdi ki, Zəngəzur qəzasında 166 Azərbaycan kəndi dağıdılmışdır. Burada 37000 azərbaycanlı yaşayırdı. Qaçqınlıq zamanı azərbaycanlıların 30 faizi var-dövlətini itirmişdir və dağılmış Azərbaycan kəndlərində ermənilər yaşayırlar. Dörd kənd isə ermənilərin hakimiyyəti altındadır. Qəza rəisi daha sonra aşağıdakı faktları açıqlamışdır:1-ci sahədə 20 kənd ermənilər tərəfindən yandırılıb. Bunu ingilis missiyasının mayoru Qibbon da təsdiq etmişdir.

Zəngəzurdan didərgin düşmüş Azərbaycan qaçqınları özlərinə məxsus əmlaklarının böyük hissəsini itirmişlər.Andranikin dəstəsində 400-500 adam vardır. O, istəsə ingilislərin icazəsi ilə səfərbərlik elan edə bilər.Bu təkliflərə əlavə olaraq B.M.Abbasov bildirmişdir ki, Zəngəzur xəznədarında 400 atlı və 600 piyada qoşununa hazırlıq görür. Onun qoşunu Qatar zavodunda yerləşir.Andranikin Ararat Respublikası ilə əlaqəsi Sisyan vasitəsi ilə həyata keçirilir(**6, v.12).**

Göründüyü kimi, Azərbaycan hökuməti hadisələrə obyektiv yanaşmış, milli ədavəti dinc yolla nizama salmağa çalışmış, erməni və azərbaycanlı

qaçqınlarına münasibətdə heç bir fərq qoymamışdır. Lakin ingilislərin ikiüzlü siyasəti üzə çıxmışdır. Andranikə və onun quldur dəstəsinə qarşı ciddi tədbirlər görülməsi ön plana çəkilmişdir.

Şuşa qəza rəisi Abış bəy Qalabəyov çıxış edərək bildirmişdir ki, ikinci azərbaycanlı alayı Şuşa qalasına gələndən sonra vəziyyət nəzərə çarpacaq dərəcədə yaxşılığa doğru dəyişmişdir. Lakin ingilislər bu alayın gəlməsindən narazı qalmışlar. Qorxuya düşmüş ermənilər ayrı-ayrı yerlərdə iclaslar keçirirlər. Əgər ermənilər əvvəlcə müstəqil Qarabağ dövləti yaratmaq uğrunda mübarizə aparırdılarsa, indi Qarabağı Ermənistana birləşdirmək istəyirlər. Hətta onlar bu məqsədlə Ararat respublikasına göndərilmək üçün nümayəndə heyəti də seçmişlər.

O, demişdir ki, Şuşa qəzasının erməni başçıları gələcəkdə də Ermənistandan və Rusiyadan aldıqları maddi yardımla Qarabağ uğrunda mübarizəni davam etdirməyi planlaşdırmışlar. Buna görə də qəza rəisi aşağıdakıları təklif etmişdir:Şuşa qəzasında araqarışdıran Sokrat bəy və onun əlaltıları qəzadan çıxarılsın; Azərbaycanın Dövlət hakimiyyətini tanımayan erməni məmurlarına əmək haqqı verilməsi dayandırılsın; Şuşa şəhərinin erməni başçıları işləmədiyi üçün onların öz vəzifələrindən azad edilməsi məsələsi qaldırılsın **(7, v.12).** Bu axırıncı təklifə əlavə olaraq çıxış edən Kərim ağa Mehmandarov Şuşa şəhər idarəsinin yarıtmaz olduğunu qeyd etmiş və bildirmişdir ki, mən bu məsələni Bakı şəhər duması qarşısında qaldırmışam. Lakin yaxın gələcəkdə bələdiyyə seçkiləri keçiriləcəyi nəzərə alınaraq seçkilərə qədər bu məsələnin müzakirəsini təxirə saldılar.

Məruzədən belə məlum olur ki, Yuxarı Qarabağ məsələsini qaldıran yerli ermənilər deyil, əslində Ermənistan Respublikası və Daşnaksütun partiyasının buradakı emissarları olmuşdur. Həmçinin, məruzədə bu fikir də təsdiq olunur ki, Azərbaycan hökuməti az da olsa ciddi bir tədbir görən kimi ermənilər öz taktikalarını dəyişməyə məcbur olurlar, ingilislərin və Rusiyanın köməyinə üz döndərirlər.

Cəbrayıl qəzasından gələn nümayəndə öz çıxışında bildirmişdir ki, 28 kəndin 3-də ermənilər yaşayır. Burada da erməni-Azərbaycan münasibətləri gərgin vəziyyətdədir. Erməni kəndlərinin nümayəndəsi Artyom Lalayev və Cəbrayıl qəza rəisinin müavini Hacıbəyov bu gərgin münasibəti aradan qaldırmaq üçün görüşüb söhbət aparmışlar. Lakin bununla belə, Arakel kəndinin erməniləri azərbaycanlıların daha çox toplaşdığı bazara xaincəsinə hücum etmişlər. Çıxış edən nümayəndə axırda Andranikin və onun qaniçən quldur dəstəsinin Zəngəzur bölgəsindən çıxarılması təklifini irəli sürmüşdür. Müşavirədə öz ev-eşiyini tərk etmiş qaçqınları zəruri ərzaqla təmin etmək və erməni-Azərbaycan münasibətlərini dinc yolla nizama salmaq üçün əhali içərisində təbliğat işinin gücləndirilməsi məsələləri də müzakirə edilmişdir.

Xosrov bəy Sultanovun yanında keçirilən müşavirədə qarın yatalağı xəstəliyinə tutulmuş erməni qaçqınları üçün münasib binanın ayrılması haqqında məsələyə toxunularaq, bildirmişdir ki, hələlik xəstələr öz əvvəlki yerlərində

qalsınlar, ermənilərin və ingilis missiyasının nümayəndələri ilə birgə müşavirə keçiriləndən sonra həmin xəstələr müvafiq yerlərə köçürüləcəkdir. **(8, v.13).**

Qısa fasilədən sonra yenə həmin gün general-qubernatorun yanında müşavirə öz işini davam etdirmişdi. Bu müşavirə öz tərkibinə görə daha geniş idi. Müşavirədə Xalq Səhiyyə Nazirliyinin nümayəndəsi C.Lənbaranski, Ərzaq Nazirliyinin nümayəndəsi Selezniyov, Poçt və Teleqraf Nazirliyinin nümayəndəsi Şapalov çıxış etmişdilər. Axundov çıxış edib bildirmişdir ki, ərzaq hazırlığı və ərzağın paylanması general-qubernatorun səlahiyyətinə aiddir.

Xosrov bəy Sultanov bildirmişdir ki, əhalini taxılla təmin etmək üçün yerinə yetirilməsi mümkün olan real təkliflər versinlər. Şuşa qəza rəisi çıxış edərək demişdir ki, ermənilərin yaşadığı yerlərdə taxıl təchizatı normaldır. Azərbaycanlıların yaşadığı Xıdırlı və Gülablı kəndlərində isə quraqlıq olduğundan çörək təchizatı pisdir. Bu kəndlərdə yalnız bir aylıq taxıl ehtiyatı var.

Cavanşir qəza rəisi çıxışında bildirmişdi ki, qənaət olsa, taxıl ehtiyatı çatar. Bu qəzaya lazım olan sənaye və çox işlənən mallar gətirilməlidir. Müşavirədə bildirilmişdir ki, Zəngəzur və Şərur-Dərələyəz qəzalarında maldarlıqla məşğul olan 17 min əhalini taxılla təmin etmək lazımdır. Qeyd olunmuşdu ki, bölgənin əhalisini taxılla təmin etmək üçün əkin sahələrini genişləndirmək lazımdır. Belə ki, məlum hadisələr zamanı əkin sahələri 50 faiz azalmışdır.

Müşavirədə daha sonra taxıl, sənaye və çoxişlənən malların qiymətləri məsələləri müzakirə edilmiş və onların həll edilməsi üçün qəza rəislərinə göstərişlər verilmişdir. Cavanşir qəza rəisinə tapşırılmışdır ki, Tərtər çayından ayrılan su kanallarının normal işləməsini təmin etsin. Sonra Şuşa qəza rəisi at-araba mükələfiyyəti haqqında çıxış etmişdir. Müşavirədə qərara alınmışdır ki, əlavə yük avtomaşınları alınsın və digər nəqliyyat vasitələri səfərbərliyə alınsın. Əhalinin yoxsul vəziyyətdə yaşayan hissəsi bu mükələfiyyətdən azad edilsin**.(9, v.14).**

İkinci iclasın gündəliyinə salınan bir sıra məsələlər - poçt-teleqraf xətlərinin çəkilməsi, yaşayış binalarının və Şuşadakı xəstəxananın təmiri və sair vəsaitin çatışmamasına görə onların həlli müəyyən vaxta qədər təxirə salınmışdır.

Əsas məsələlərdən biri də orduya çağırış və ordunun təşkil edilməsi idi. Ona görə təklif olundu ki, hər bir yaşayış məntəqəsində xüsusi icma komissiya yaradılsın və ona nəzarət gücləndirilsin.

1919-cu il fevralın 16-da Xosrov bəy Sultanovun yanında növbəti müşavirə keçirilmişdir. Burada əsasən məktəb məsələsi müzakirə edilmişdir. Qeyd olunmuşdur ki, Qarabağ və Zəngəzurda erməni-azərbaycan münaqişəsi zamanı onsuz da sayca az olan məktəblər dağılmış və müəllimlər öz yerlərini tərk etmişlər. Müşavirədə Səhiyyə nazirinin nümayəndəsi C.Lənbaranski demişdir ki, Səhiyyə naziri Gendes respublikada yoluxucu və yoluxucu olmayan xəstəliklərə qarşı mübarizə aparmaq üçün ciddi tədbirlər görməyə başlamışdır.

General-qubernator Şuşada 100 çarpayılıq xəstəxananın tikilməsi və lazım olan tibbi avadanlığın alınması və həkimlərə maaş verilməsi üçün vəsait ayrılmışdır. Lakin Xosrov bəy bildirmişdir ki, Qarabağ əhalisinə tibbi xidmət göstərmək üçün böyük bir xəstəxananı təkcə Şuşada yox, həm də əlverişli coğrafi mövqeyə malik olan Ağdamda da açmaq lazımdır. Bizim hazırladığımız lahiyəyə görə bütün qəzalarda xəstəxanalar açılmalıdır(**10, v.18).**

Zəngəzur qəza rəisinin nümayəndəsi C.Sultanov çıxışında demişdir ki, doktor Paroyans xəstəxananı öz avadanlığı ilə birlikdə Zəngilandan erməni rayonlarına aparmışdır. Buna görə azərbaycanlılar tibbi xidmətdən məhrum olmuşlar.

Doktor K.Mehmandarov bildirmişdir ki, Azərbaycan xalqının tibbi xidmətə daha böyük ehtiyacı var. Buna görə də Şuşada nəinki mahal xəstəxanası, həm də feldşer-mama kursu təşkil etmək lazımdır. Burada hazırlanan feldşer-mamalar Qarabağın bütün qəzaları üçün lazım olacaqdır. O, əlavə olaraq demişdi ki, Zəngəzur qəzasında geniş şəbəkəli tibbi məntəqələr açmaq lazımdır.

Bu müşavirədə çıxış edən Sosial-Təminat Nazirliyinin nümayəndəsi və doktor Ağayev də general-qubernator X.B.Sultanovun təklifini müdafiə etmişdilər. Yekunda belə qərara gəlinmişdi ki, vilayət xəstəxanası üçün ayrılmış 100 çarpayıdan 30-u Şuşaya, qalanı Ağdama və Zəngəzur qəzasına verilsin. Qəzada olan köçəri maldarlara tibbi xidmət göstərilməsi də nəzərə alınmışdır **(11, v.19-20).**

17 fevral 1919-cu ildə general-qubernator X.B.Sultanov Şuşaya gələn ingilis missiyasının kapitanı Seraylini qəbul etmiş və bu münasibətlə əvvəlki tərkibdə geniş müşavirə çağırmışdır.General-qubernator aşağıdakı məsələləri müzakirəyə vermişdir:Böyük Britaniya təminatının 4-cü maddəsinə uyğun olaraq general Andranikin dəstəsinin tərk-silah edilməsi və Qarabağdan çıxarılması; Həmin təminatın 1-ci maddəsinə əsasən qaçqınların öz əvvəlki yerlərinə qaytarılması; Ağdam, Şuşa və Qaryagin yollarının gediş-gəliş üçün açılması; Mayor Qibbonun tələbi ilə ona xəzinədən pul ayrılması.

Birinci məsələ ilə əlaqədar olaraq ingilis missiyası işə başlamış və bu məqsədlə öz nümayəndəsini Gorusa göndərmişdir.

İkinci məsələ ilə bağlı aşağıdakı qərar qəbul edilmişdir: Qaçqınların hamısı bir yerdə cəmləşdirilsin. Ona görə ki, Qaçqınların çoxu yatalaq xəstəliyinə tutulmuşdur; Qış olduğundan binaların çoxu yaşamaq üçün yararsızdır; Həm də qaçqınları öz əvvəlki yerlərinə çatdırmaq üçün yollar boyunca ərzaq məntəqələri təşkil etmək lazımdır.

Üçüncü məsələyə gəlincə Ağdam, Şuşa və Qaryagin yollarının açılmasını ingilis missiyası öz üzərinə götürürdür.

Dördüncü məsələyə gəldikdə Xosrov bəy Sultanov təklif etmişdir ki, bu tələb Azərbaycan hökuməti xəzinəyə pul köçürüldükdən sonra yerinə yetirilə bilər.

1919-cu il fevralın 25-də X.B.Sultanovun yanında keçirilmiş müşavirənin protokolundan aydın olur ki, general-qubernator vurğulamışdır ki, milli

məsələdə xüsusi incəlik, səbr və sayıqlıq göstərmək lazımdır. Bu yolla dövlətin nüfuzunu qaldırmaq və digər məsələləri də həll etmək olar. Bu müşavirədə Şuşa şəhər məktəbinin müfəttişləri və şəhər ermənilərinin nümayəndələri də iştirak edirdilər. Müşavirədə çıxış edən ermənilər bildirmişlər ki, daşnak terrorçuları onları qorxudur və xüsusi göstərişlər verirlər. Belə olduqda X.B.Sultanov İngilis nümayəndələrinin iştirakı ilə yığıncaq çağırıb onlardan xahiş etmişdi ki, vəziyyəti olduğu kimi Tomsona çatdırsınlar. X.B.Sultanov ingilislərlə birlikdə şəhərdəki müəssisə və idarələrin vəziyyəti ilə tanış olmuşdur. Tomsonun göstərişi ilə mayor Mak-Mezonun göndərdiyi iki nümayəndə Şuşadakı vəziyyətlə tanış olub, X.B.Sultanovun fəaliyyətindən razı qalmışlar. İngilislər X.B.Sultanova təklif edirlər ki, milli məsələni dinc yolla nizama salmaq üçün, o, Şuşa şəhərinin başçısı Şahnəzərovu və Vərəndə baş komandanı Məlik Sokrat bəyi qəbul etsin. Lakin adları çəkilən bu iki şəxs general-qubernatorun hüzuruna gəlməmişlər. Çünki onlar özlərini Rusiyanın təbəəsi sayırdılar. Onların bu hərəkəti ingilislərin narazılığına səbəb olmuşdur. Belə olduqda X.B.Sultanov ingilislərə bildirmişdir ki, ermənilər Qafqazda rus monarxiyasının dayaqlarıdır. Rusiyanın məqsədi Qafqaz vasitəsi ilə Hindistana yol açmaqdan ibarət idi. Təbii ki, bu niyyət ingilislərin mənafeyinə toxunurdu. X.B.Sultanov ingilislərdən xahiş etmişdir ki, erməni-azərbaycan münaqişəsini nizama salmaq üçün birlikdə müzakirə aparsınlar. Buna cavab olaraq ingilislər belə bir təklif irəli sürmüşlər ki, X.B.Sultanov bölgənin general-qubernatorudur. Onun müavini isə hökumət tərəfindən təyin olunur.

Lakin Ermənistan Milli şurası bu təklifə qəti etiraz etdi. Bundan sonra X.B.Sultanov ingilis mayoruna bildirmişdir ki, ermənilər sülh istəmir və Qarabağı Azərbaycanın tərkibindən ayırmaq və Zəngəzuru da zəbt etmək niyyətindədirlər. Buna görə də ermənilər daima Azərbaycan tərəfinin təkliflərini öz təklifləri ilə əvəz edirlər.

X.B.Sultanov ingilislərə bunu da demişdi ki, Qarabağ məsələsi diplomatik yolla nizama salınsa, general Andranikin məsələsi də həll olunur və onun dəstəsi qısa müddətdə Qarabağın ərazisini tərk edə bilər. Bundan sonra isə Türkiyədən olan erməni qaçqınlarının məsələsini həll etmək olar **(12, v. 8-9).**

X.B.Sultanovun Azərbaycan hökumətinin Daxili İşlər Nazirliyinə məktubundan aydın olur ki, Şuşaya gəldiyi ilk günlərdən başlayaraq o, bölgədə məsələləri obyektiv və yerində həll etmək üçün qəza rəislərinin, şəhər ictimai xadimlərinin və ingilis missiyasının iştirakı ilə müşavirələr keçirmişdir. Bu müşavirələrin sənədlərini təhlil edərkən məlum olur ki, general-qubernator erməni-azərbaycan münaqişəsini dinc yolla həll etməyə çalışır. Təsadüfi deyildir ki, o, keçirdiyi müşavirələrə erməni tərəfinin nümayəndələrini və ingilis missiyasının üzvülərini dəvət edirmiş.

Göstərmək lazımdı ki, Qarabağı Azərbaycandan ayırmaq istəyən və daima azərbaycanlılarla ermənilər arasında nifaq toxumu səpən Erməni Milli Şurasının rəhbərləri bu müşavirələrə gəlməmiş, hətta həyasızcasına Azərbaycan dövlət hakimiyyətini tanımadıqlarını bəyan etmişlər.

Çoxsaylı arxiv sənədləri və bir sıra tədqiqatçıların (T.Svyataxovski) araşdırmaları sübut edir ki, ADR hökuməti tərəfindən Zəngəzur qəzasını da əhatə edən Qarabağ general-qubernatorluğunun yaradılması və Xosrov bəy Sultanovun ona başçı təyin olunması Ermənistanı xeyli təşvişə salmış və onun diplomatik-hərbi fəallığını artırmışdır. R.Hovannesyan bu barədə belə yazırdı: "Açıqlanmış ermənilərin özləri üçün təhqir üstündən təhqir hesab etdikləri, bir də bərk qorxduqları məşhur armenofob Xosrov Sultanovun Tomson tərəfindən hər iki ərazinin qubernatoru təyin edilməsi idi" **(13, s.115).** "Azərbaycan hökumətinin özünün tarixi torpaqlarında general-qubernatorluq yaratması və bu vəzifəyə Xosrov bəy Sultanovun təyin edilməsi haqqında qərarını ermənilər etirazla qarşılamışlar. Ermənistanın Xarici İşlər Nazirliyi və Daşnak mətbuatı aparıcı dövlətlərə və beynəlxalq təşkilatlara çoxsaylı müraciətlərində və ADR rəhbərliyinə etiraz notalarında Azərbaycan hökumətini "Ararat Respublikasının ərazi hüquqlarını" və iki qonşu ölkə arasında münasibətləri pozmaqda ittiham edirdilər. Ermənistan tərəfi yaranmış vəziyyətdən çıxış yolunu ya Azərbaycan general-qubernatorunun ləğv edilməsində, ya da müvəqqəti ingilis general-qubernatorluğunun yaradılmasında görürdü" **(14, N 2,1919).**

Azərbaycan hökuməti təbii ki, ölkənin ərazi bütövlüyünün və suveren hüquqlarının pozulmasına yol verməzdi və qonşu dövlətin onun daxili işlərinə qarışması cəhdləri ilə barışa bilməzdi. Buna görə də ADR-in xarici işlər nazirinin vəzifəsini icra edən Adil xan Ziyadxanov Ermənistan hökumətinə cavab notalarında bir daha Qarabağın və Zəngəzurun Azərbaycanın tarixi torpaqları olduğunu xatırlatmışdır **(15, s.160).** Ermənistanın etirazını onun suverenliyinə qəsd kimi qiymətləndirən Azərbaycan hökuməti qətiyyətlə bildirmişdir ki, özünün ərazi toxunulmamazlığını hər vasitə ilə müdafiə edəcəkdir. Bununla yanaşı, Azərbaycan hökuməti bütün münaqişələri sülh yolu ilə həll etməyə hazır olduğunu bildirmişdir.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT


1. *Azerbaydcan qaz....* (na russkom əzıke), **N 12, 1919.**

2. Musayev İ.R. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921). Bakı, Universitetin nəşriyyatı, 328, s113

3.Yenə orada, **s.114**

4. SPİHMDA.F. 276, siy. 9, iş 4**.v. 13**

5. SPİHMDA.F. 277, siy. 2, iş 43**.v.11**

**6.** SPİHMDA.F. 276, siy. 9, iş 4**.v. 13**

7. SPİHMDA.F. 277, siy. 2, iş 43**.v.12**

8. Yenə orada, **v.12**

9.Yenə orada, **v.14**

10.Yenə orada, **v.18**

11.Yenə orada, **v.19-20**

12.Yenə orada, **v.8-9**

13. İ.R. Musayevin göstərilən əsəri , **s.115**

14. *Azerbaydcan qaz....* (na russkom zıke), **N 2,1919**

15. Azerbaydcanskaə Respublika. Dokumentı i materialı 1918-1920 qq. Baku, Glm, 1998, 616 s.**s.160**

**Həcər Abdallı**

## Ermənilərin türklərə qarşı törətdikləri soyqırımının tarixi mərhələləri

Xalqın və millətlərin dostluğu, düşmənçiliyi əks olunan beynəlxalq münasibətlərin tarixi göstərir ki, bu hadisələr zaman boyu təsadüfi olmamışdır. Əksinə müharibələr, sülh, mühacirət, razılaşmalar, rəngarəng ticarət mallarının mübadiləsi, səfirlərin mübadilə edilməsi və s. çox qədim zamanlardan mövcud olmuşdur, coğrafi mövqedən, insani, iqtisadi, siyasi, mədəni, ictimai və bu kimi cəhətlərə tabe olmuşdur. Bu münasibətlərin nümunəsinə miladdan əvvəl müasir dövrümüzədək rast gəlirik.

Kütləvi soyqırımını həyata keçirmək üçün ermənilər uzun illər ərzində silahlanmış könüllülər toplanmış, sonra isə mütəşəkkil surətdə eyni vaxtda müxtəlif yerlərdə müsəlmanları kütləvi surətdə qırmağa başlamışlar. 1905, 1915, 1918, 1921-ci illərdə Bakıda, Gəncədə, Qubada, Şuşada, Şamaxıda, Naxçıvanda, Lənkəranda və 1992-1993-cü ilərldə təkrarən Şuşa, Kəlbəcər, Xankəndi, Laçın, Ağdam, Füzuli, Xocavənd, Kəlbəcər, Xocalı, Zəngilan və s. işğal etdikləri Azərbaycan ərazilərində müsəlmanları kütləvi surətdə qətlə yetirmişlər.

1905-ci il iyunun 13-dən Cəbrayıl bölgəsində ermənilər tərəfindən müsəlmanların kütləvi surətdə öldürülməsini M.S.Ordubadi (1872-1950) şərh edərək yazır ki, "...1905-cı il iyulun 12-də Şuşada çar hakim dairələrinin ikibaşlı siyasəti üzündən ikinci dəfə ermənilər olmazın vəhşiliklər törətdilər". Gəncə və Qazaxda baş verən hadisələrdən bəhs edərək M.S.Ordubadi yazır ki, ermənilərin

əsas hədəfi müsəlmanları Gəncə ərazisindən köçürüb, yerində Ermənistan təşkil etmək idi (6,s.17). (M.S.Ordubadi. “Qanlı sənələr”, “Səda mətbəəssi”, Bakı,1911., Ordubainin “Qanlı illər : 1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi” (əsəri ərəb əlifbasından çevirən, sadələşdirən və çapa hazırlayan Ə.Bağırov.-Bakı, 1991.)

Ermənilərin müsəlmanlara qarşı qəddarlığının şahidi olan Mir Möhsün Nəvvabın (1833-1918) yazdığına görə, ermənilər tikdirdikləri məktəb binasında işləyən 17 nəfər iranlı fəhləni qətlə yetirmişdilər. O, yazır: “Qələmlə yazılması qeyri-mümkün olmayan erməni vəhşiliyi idi. Ermənilər onların başına mismar çalaraq əzdikdən sonra cəsədlərini bir dərəyə ataraq üstlərini peyinlə basdırmışdılar”.(47,s.112.) (M.M.Nəvvab.1905-1906-cı illərdə erməni-müsəlman davası.Bakı, 1993).

Daşnakların müsəlmanlara qarşı Bakıda törətdikləri soyqırımı hadisələrini öz gözü ilə görmüş Seyid Cəfər Pişəvəri yazır: “1918-ci ilin martın 18-də daşnakların vəhşiliklərini, saysız-hesabsız günahsız adamların, xüsusilə bitərəf Cənubi azərbaycanlıların öldürülüb karvansaraylarda meyitlərinin yandırılmasını öz gözümlə görmüşdüm. Bu, çox faciəli və nifrət doğuran bir hərəkət olmuşdur...” (56,s.297.) (Seyid Cəfər Pişəvəri.Seçilmiş əsərləri.1965,səh.297).

Tarixi faktlara əsaslanaraq daha bir faktı göstərmək mümkündür. Rus ordusunun generalı L.Odişe Liyetzenin rəsmi hesabatında yazılmışdır ki,.. «kimin kim olduğu bu qırğin zamanı özünü büruzə verdi. Əlbəttə, XX əsrdə ilk genosidi törədən ermənilər olub. 1915-ci ilin 11-12 mart gecələrində erməni cəlladları Ərzincan ətrafındakı ərazilərdə müsəlmanları süngülər və baltalarla ucdantutma qətlə yetirdilər. Bu vəhşilər öz qurbanlarını dərin xəndəklərə atırdılar. Hər xəndəyə təxminən 80 nəfər müsəlman nəşi tullanırdı. Mənim adyutantım 200 belə xəndək saymış və cinayətlərin üstünü açmışdır. (Baxın! Hansı bir tarixi sənədləri araşdırdıqca erməni qəddarlığı çılpaqlığı ilə görünür - H.A.). (3, iş 95.vərəq 2.) Azərbaycan Milli Dövlət Arxivi).

Polkovnik-Leytenant Qçyaznov rəsmi hesabatında bir daha göstərmişdir ki,..«Kəndlərə uzanan yollara müsəlmanların süngüyə keçirilmiş meyidləri, kəsilmiş bədən hissələri və dağıdılıb tökülmüş, daxili orqanları səpələnmişdi..,» Əfsus! Əsasən qadınlar və uşaqlar. Ermənilər öz vəhşiliklərini ört-basdır etmək üçün dərin quyular qazır və köməksiz insanları heyvan kimi doğrayaraq həmin quyulara atırdılar. Quyu meyitlə dolduqdan sonra onun yanında dayanmış erməni deyirdi: «70 nəfərin meyiti quyudadır. Daha 10 meyit də atıla bilər». Daha sonra 10 müsəlman meyiti də parça-parça edilib quyuya atılır və quyu dolduqdan sonra üstü torpaqla örtülürdü. Qətllər üçün məsuliyyət daşıyan erməni bir yerə 80 nəfər müsəlman toplayır, sonra yenidən bir-bir onların başı kəsilirdi. Bu, görünməmiş bir vəhşilik idi» (3). Azərb. Milli Dövlət Arxivi 1915-ci il.).

Tarixi qaynaqlar göstərir ki, daşnaklar 1918-ci ilin martında Bakının müsəlman əhalisini məhv etmək üçün müxtəlif cəbhələrdən 7 min erməni əsgəri

gətirmişdilər. Bundan başqa «Qırmızı qvardiya» adlanan 10-12 minlik ordunun da 70 faizini ermənilər təşkil edirdi. Martın 31-də səhərə yaxın bütün erməni hərbi dəstələrinin başçıları inqilabi komitənin qərərgahına gəliblər və qısa təlimatdan sonra müsəlman məhəllələrinə göndəriliblər. Yaxşı silahlanmış və təlim görmüş erməni əsgərləri müsəlmanların evlərinə soxulur, sakinləri öldürür, onları xəncər və süngü ilə doğrayır, uşaqları yanan evlərin içinə atır, 3-4 günlük uşaqları süngülərin ucuna keçirirdilər. Erəmənilər müsəlman qadınlarını daha ağır formada qətlə yetirirdilər. Şəhərin müxtəlif yerlərindən qulaqları, burunları kəsilmiş, qarınları yırtılmış, cinsi orqanları doğranmış yüzlərlə müsəlman qadınının meyiti tapılmışdır. Gənc qadınların bir çoxunu diri-diri divara mıxlamışdılar. Qaçıb canını qurtarmağa çalışan əhalini güllələbaran etmək üçün şəhərin müvafiq yerlərində pulemyot mövqeləri qurulmuşdu ki, bu da ermənilərin vəhşi xarakterli məqsədlərini yerinə yetirməkdə mühüm vasitələrdən biri idi (2.iş16,vərəq 20.) (Azərbaycan Respublikası Dövlət Arxivi 1918-ci il).

1918-ci il 24 mart tarixli "Naş Qolos"qəzetində bu facıə belə verilmişdir. "Həmin proseslər zamanı «Bakının Nikolay küçəsi ilə» hücuma keçmiş erməni əsgərlərinə, əsasən, erməni ziyalılarının nümayəndələri rəhbərlik edirdi. Belə dəstələrdən biri evə girib 8 qadın və uşağı güllələmişdi. Başqa dəstə fars küçəsində Bala Əhməd Muxtarovun evinə girərək 9 ziyalı müsəlmanı küçəyə çıxarmış və kilsə meydanında güllələnmiş meyitlərin ikisini yanmaqda olan «Dağıstan» mehmanxanasının alovları içinə atmışdır" (15,s.2-3.). "Azərbaycan" qəzeti, 10 aprel 2005.)

Qeyd etmək lazımdır ki, ermənilərin bütün dünyaya car çəkdikləri «erməni soyqırımı» ilə bağlı bircə dənə də olsun tutarlı fakt yoxdur. Bu onu sübut edir ki, türklərin ermənilərə qarşı soyqırımı baş verməmişdir- (H.A.). Bu hadisələrin davamı olaraq ermənilər Xocalıda soyqırımı həyata keçirdilər. Bu oyun planlaşdırılmış bir siyasət idi. Yəni XX əsrin əvvəllərindən başlanan planlaşdırılmış və böyük dövlətlərin maraqları ilə məqam yetişəndə uzlaşdırılan və həyata keçirilən bir siyasət idi. Əslində ermənilər mənfur niyyətini həyata keçirməkdən ötrü «Daşnaksütyun», «Qnçak» təşkilatlarını yaradaraq bu təşkilatlardan istifadə etmişlər- (H.A.).

Hadisələrlərlə əlaqədar, yəni mart soyqırımının ildönümü münasibətilə 1924-cü ilin 31 martında (ermənilərin törətdikləri qanlı hadisələr-H.A.) çapdan çıxmış «Yeni Qafqasiya» qəzetinin 13-cü sayında yazılmışdı ki, «1918-ci ilin martı başıbəlalı Bakının keçirdiyi pək qara və məzlumi günləri təşkil edir. Stepan Şaumyan Rusiyada hökuməti ələ alan bolşevik rəhbəri V.İ.Lenin tərəfindən bütün Qafqaza fövqəladə komissar təyin edilir. Şaumyan Qafqaz komissarı sifətilə Tiflisə getmişkən kəndisinə müxalifət edən Məvareyi-Qafqaz (Cənubi Qafqaz) komissarlığı hökumətinə müqabil menşeviklərin əlində olan Tiflis sovetlərində istinadgah tapmayaraq yaxasını ələ verməkdən bir tövrlə sivişib Bakıya dönmüşdür. Bakıya qayıdan Şaumyan tez bir zamanda öz niyyətlərini həyata keçirmək üçün genişmiqyaslı iş planı işləyib hazırlayır. İran cəbhəsindən dönərək Bakıda toplu halında bulunan rus ordusu soldatlarını min

cürə yalan və təşviqələrlə məmləkətlərə getməkdən məhrum etdilər, onları siyasi məqsədlər üçün istifadə etmək istədilər. S.Şaumyan artıq bu istəklərinə nail olmuşdur. Göründüyü kimi həmin hadisələr artıq mətbuat orqanlarında da əsas mövzulardan birinə çevrilmişdi.

Hətta bu mövzu xaricdə nəşr olunan informasiya vasitələrində də yer almışdı. Məsələn, 1933-cü ilin aprelində Almaniyanın Münhen şəhərində nəşr olunan «İstiqlal» qəzeti isə (31-ci nömrəsində) bu hadisənin 15 illiyi ilə bağlı məqalə dərc etmişdir. Məqalədə göstərilir: «1918-ci il 22 martda Bakının «İsmailiyyə» binasının möhtəşəm salonunu milli musiqi, tans, sevinc və gülüş titrədirdi. Novruz bayramı qarşılanmaqda idi. Bir həftə sonra martın 31-də isə bu tarixi bina, Azərbaycanın bütün siyasi, elmi, ədəbi, bədii, iqtisadi və ictimai cəmiyyət və təşkilatları ilə kitabxana, qiraətxana yetimlər yurdunun yetişmiş olduğu bu qoca saray quru bir kabus halında matəm içərisində idi. Yandırılmışdı. Yandırılan bir tək «İsmailiyyə» deyildi, türklərə məxsus bütün mətbəələr, mətbuat idarəxanaları, milli teatr binası, məktəblər, xəstəxanalar, camilər, milli-mədəni müəssisələr yerlə-yeksan edilmişdi. Bir həftə ərzində Bakı bütün simasını itirmişdi. 31 martda 15 min günahsız türk kəsilmişdi» (114). (“İstiqlal” qəzeti, 10 aprel 1933, N 31).

Tarixi mənbələrə istinadən demək olar ki, sadalananlar ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı hadisələrinin sonu deyildi.

Şərqdə isə demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyəti hökuməti tərəfindən 1920-ci il martın 31-i (ermənilərin Azərbaycana qarşı törətdikləri soyqırımı-H.A.) matəm günü kimi qeyd olunmuşdur. Əfsuslar olsun ki, sovetlər dövründə qanlı mart hadisələri tamamilə unutdurulmuşdur. Lakin 80 il sonra Ulu öndər H.Əliyev «Azərbaycanlıların soyqırımı haqqında» tarixi fərmanı xalqımıza qarşı törədilmiş soyqırımın obyektiv mənzərəsini əks etdirdi və ona siyasi qiymət verməyə şərait yaratdı. H.Əliyev Azərbaycanın soyqırımı günü ilə bağlı xalqa müraciətdə demişdi: «Erməni şovinist millətçilərinin azərbaycanlılara qarşı soyqırımı siyasətinin iki yüz ildən artıq tarixi vardır. Bu mənfur siyasətin qayəsi azərbaycanlıları öz tarixi torpaqlarından qovmaq, bu ərazilərdə mifik «Böyük Ermənistan» dövləti yaratmaq olmuşdur. Müəyyən tarixi dövrlərdə bəzi aparıcı dünya dövlətlərinin planlarına uyğun gələn bu siyasəti reallaşdırmaq üçün ardıcıl olaraq ideoloji, hərbi və təşkilati xarakterli tədbirlər həyata keçirilmişdir. Xalqımızın tarixi kobud surətdə təhrif olunmuş, erməni tarixçiləri və ideoloqları toponimlərimizi, mədəniyyət abidələrimizi öz adlarına çıxmaq üçün davamlı səylər göstərmişlər. Onilliklər boyu davam edən soyqırımı siyasəti total ideoloji təcavüz, terror, hətta ayrı-ayrı vaxtlarda tammiqyaslı hərbi əməliyyatlarla müşayiət olunmuşdur”(77). “Azərbaycan” qəzeti,27 mart 1998-ci il.)

Qeyd edək ki, təkcə XX yüzillikdə bir milyona yaxın azərbaycanlı ermənilər tərəfindən öldürülmüş, 1,5 milyondan artıq soydaşımız Qərbi Azərbaycandan (indiki Ermənistan) departasiya edilmişdi - (H.A.).

Bütün bunları nəzərə alaraq X1X-XX əsrlərdə ermənilərin xalqımıza qarşı

törətdikləri soyqırımı və kütləvi represiya aksiyalarina hüquqi-siyasi qiymət vermək məqsədilə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 26 mart 1998-ci ildə "Azərbaycanlıların soyqırımı haqqında" fərman imzalamışdır. Fərmanda qeyd edilir ki, əsrlər boyu Qafqazda azərbaycanlılara qarşı düşünülmüş və planlı şəkildə həyata keçirilmiş deportasiya və soyqirimi siyqsəti nəticəsində xalqımız çox ağır işgəncələrlə və milli faciələrlə üzləşmişdir."Böyük Ermənistan" dövləti yaratmaq xülyası ilə yaşayan, tarix boyu özgə torpaqlarında gözü olan ermınilər-azərbaycanlıları öz dədə-baba torpaqlarından didərgin salmış, kütləvi qətl və qırğınlara məruz qoymuş, xalqımıza məxsus minlərlə tarixi abidə və yaşayış yerlərini dağıdıb xarabalıqlara çevirmişlər.(7,s.103). (H. Abdallı. Azərbaycan: müstəqilliyimizin sosial-siyasi problemləri.B.2005.)

Müstəqil Azərbaycan dövlətinin bu istiqamətdə apardığı ardıcıl və davamlı siyasəti bu gün də davam edir.Qeyd edək ki, Respublikanın Prezidenti cənab İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar olaraq bildirmişdir ki, qarşılıqlı güzəştdən söz belə gedə bilməz. Bizim güzəşt etməyə heç nəyimiz yoxdur.

Qeyd edək ki, ermənilərin uydurma soyqırımı böyük bir iftiradır. "Erməni soyqırımı" ilə bağlı türkiyəli Yusif Sarinay "Azərbaycan" qəzetinə müsahibə vermişdir. Həmin müsahibədə onların riyakarlığı, xəbisliyi və qəddarlığı açıqlanmışdır. Bu faktlara nəzər salaq və "ermənilərin soyqırımı" hadisəsinin faktiki olaraq kim tərəfindən törədildiyini bütün dünyaya bəyan edək. Göründüyü kimi, elə, Yusif Sarinay da bu fikirdədir!

Türkiyə Arxivləri İdarəsinin başqanı Yusif Sarinay ermənilərin hər il 24 aprel tarixini dünyaya «erməni soyqırımı günü» kimi təqdim etmələrinin yalan olduğunu sübut etmək məqsədilə Türkiyə arxivlərinin, xüsusən də Osmanlı dövrünə aid arxivlərin qapılarını bütün ölkələrin tarixçilərinin, alimlərinin üzünə açdıqlarını bəyan edərək və bu fakta aydınlıq gətirərək bildirmişbir ki, 24 aprel erməni terrorçularının başçılarının həbs olunduğu gündür.

Ermənilərin tarixi faktları araşdırmaqdan yayınmalarına etiraz edən bir fakta nəzər yetirək. Hələ, 2005-ci ildə Türkiyənin baş naziri Rəcəb Təyyib Ərdoğan Ermənistan prezidenti R.Koçaryana müraciət edərək soyqırımla bağlı araşdırmalar aparılması üçün müştərək komissiya yaradılmasını bildirsə də, lakin Ermənistan tərəfindən cavab alınmadı.

Yenə də Yusif Sarınayın gəldiyi qənaətə diqqət yetirək. Arxiv başqanı bildirmişdir ki, 1915-ci il aprelin 24-ü erməni terror təşkilatları - «Qnçak», «Daşnak» və «Ramqavar»ın liderlərinin həbs olunduğu gündür. Bu təşkilatlar XIX əsrin sonları, XX əsrin əvvəllərində Osmanlı torpaqlarında terror və qətllər törətmək məqsədilə yaradılmışdı. 24 aprel həbsi onların qətllər törətmək, Anadolu torpaqlarında «Böyük Ermənistan» dövləti yaratmaq məqsədlərinə nail oldu. Əslində, 1915-ci il aprelin 24-də, nə də ondan bir neçə gün əvvəl və sonra Anadoluda heç bir döyüş və ya köçürmə hadisəsi baş verməmişdir. Ermənilər bu günü ona görə soyqırımı hadisəsi kimi qeyd edirlər ki, qurduqları plan boşa

çıxmış, terrorçu liderləri məhz həmin gün həbs olunmuşdur. Biz dünyanın bütün alimlərini, tədqiqatçılarını arxivlərimizə dəvət edir, elmi araşdırmalar aparılmasını təklif etsək də hələ Ermənistandan bir nəfər də gəlməyib. Düzdür, başqa dövlətlərdə yaşayan erməni mənşəli alimlər də gəlir, lakin onlar da Osmanlı dövrünün tarixi ilə maraqlanırlar»(9). ("Azərbaycan" qəz.,25 aprel 2007.) Erməni xalqına belə bir sual verəsən, arxivə gəlməkdən, bu sahəni araşdırmaqdan niyə qorxursunuz? Bəs soyqırımı bütün dünyaya tanıtmaq istəyirsiniz? Ermənilərin səs-küyü sayəsində indiyədək «ermənilərin uydurma soyqırımı» iddiasını 18 dövlət tanıyıb - (H.A.).

Yusif Sarinay daha sonra bildirmişdir ki, ötən əsrin əvvəllərində Türkiyədə yaşamış isveçli minbaşı Hyalmar Pravitzin 1917-ci ildə İsveçdə «Nya Daglikt Allehanda» qəzetində çap etdirdiyi məktubu bu günlərdə Türkiyəli tədqiqatçılar tapmışdır. Həmin bu məktub ermənilərin soyqırımı iddialarını alt-üst edir və aprelin 24-də belə hadisə baş vermədiyini ortaya çıxardır. Ona görə ki, bu isveçli minbaşı 1915-1917-ci illərdə ermənilərlə bərabər Türkiyədə yaşayıb. Həmin məktub kiçik ixtisarla verilir: «Bu yaxınlarda xaricdən ölkəmə döndüm. Erməni məsələsi ilə bağlı əlimə iki kitab keçdi, hər ikisini oxudum. Birincisi, Karl Dustağın «Soylu insan -Sven Hedin», ikinci kitab isə Marina Stcernstegin «Ermənilərin acınacaqlı vəziyyəti» adlı kitab idi. Birinci kitabı oxuyarkən zibilliyə atdım, ikinci kitabın əsas ideyası isə ermənilərin yaşadıqları «dəhşətləri» qabardıb insanların zehninə həkk etməkdir. Bu kitabı birnəfəsə oxudum. Təqdim etdiyim bu yazıda məqsədim kitabda deyilənlərin yalan və uydurma olduğunu ortaya qoymaqdır. Çünki mən, məhz həmin hadisələrin canlı şahidiyəm və ona ədəbiyyatın bədii obrazları ilə yanaşmıram. Ermənilərin «səfalətini» mənim qədər heç bir isveçli yaxından görmək və öyrənmək fürsəti qazanmayıb. Səfərimin əsas məqsədi hər iki yazarın hadisələri görmədən iddia etdikləri soyqırımın gerçəkliklərini öyrənmək idi. Hər iki müəllif yazılarında türklərin və almanların ermənilərə qarşı qeyri-insani, barbarcasına davrandıqlarını iddia edirlər. Səfərimə Türkiyədə Ermənilərin köçürüldüyü əraziləri gəzib dolaşmaqdan başladım. Elə bilirəm ki, mənim yazdıqlarım həmin müəlliflərin yalan yazdıqlarını oxuculara inandıra biləcək. Mən bu müəlliflərə qarşı protest edirəm.

Real tarixi faktlara əsaslanan Y.Sarınay yazır ki, əslinə qalsa, almanların və müttəfiqlərinin (Türkiyə, Avstriya, Macarıstan, Bolqarıstan) tərəfdarıyam. İstanbuldan Anadoluya doğru səfərə başladım. Bu arada qulaqlarıma amerikalıların «zavallı ermənilərin» türk əfəndiləri tərəfindən öldürüldüyü və soyqırımı söz-söhbətləri çatırdı. Uzun illər Yaxın Şərqdə yaşadığım üçün ermənilərin özlərini Tanrının ən sevimli bəndələri kimi təqdim etmələrini heç vaxt qəbul etməmişəm. Ancaq bunun məsələyə dəxli yoxdur, türklərin öldürdükləri insanlar haqqında gerçəkliyi öyrənməyə qərar vermişdim. Türkiyənin hər yerində aclıq, səfalət, ehtiyac baş alıb gedirdi. Ancaq heç bir soyqırımı və kütləvi şəkildə öldürmə halları yox idi. Müharibənin əvvəlində Osmanlı imperatorluğunun erməniləri Şimal ərazilərindən cənuba daşınmasının

səbəbini öyrəndim və türk hökumətinin məcburi səbəblər üzündən bunu yerinə yetirdiyini başa düşdüm. Yerli müsəlman əhaliyə nifrət hissi daşıyan və istila ordusu ilə birləşib yerli planlar hazırlayan, yeni zamanda rusların gəlməsini gözləyən ermənilərin Ərzurumdan çıxarılması həm gərəkli, həm də əhəmiyyətli bir addım idi. 1916-cı ilin fevralında Ərzurum rusların əlinə keçərkən hələ Rusiyadan yaxşı tanıdığım bir erməni mənə dedi ki, əgər ermənilər Ərzurumdan əvvəlcədən çıxarılmasaydılar, biz bunlara çoxdan sahib olmuşduq.

Türkiyə kimi bir ölkə içində gizlənmiş bu cür insanlara qarşı tədbir görülsə, bunu normal qarşılamaq lazımdır. Ermənilərin türk əsarəti altında yaşadıqlarını və davamlı olaraq təzyiq gördüklərini iddia edənlərin tamamilə yalan danışdıqlarını söyləyirəm. Əslində, o dövrdə ermənilərdən dəfələrlə pis yaşayan və əsarət altında əziyyət çəkən xalqlar var idi. Məsələn, rusların təzyiqi altında əzilən azərbaycanlılar, belçikalıların əzab-əziyyətinə qatlaşan Konqo zənciləri, Fransanın işgüzar və talan etdiyi qvineyalılar ermənilərdən daha pis vəziyyətdə idilər. Bu xalqlar ermənilərin özləri haqqında yalandan iddia etdiklərini həqiqətən yaşamışlar, onlar ermənilərdən daha çox itki verdilər.

Zaman-zaman müxtəlif yerlərdə ermənilərə qarşı müşahidə olunan düşmənçilik münasibətlərinə yalnız və yalnız ermənilərin özləri səbəbkardır. Mən məhz osmanlıda ermənilərə qarşı xoş münasibətlərin şahidi oldum.Ermənilər öz dinlərini yaşadıblar, dillərində danışırlar, məktəbləri olub,bir sözlə, hər bir xalqa lazım olan hər cür şəraitdə təmin olunublar. Köç məsələsinə gəlincə,qeyd edim ki, Türkiyənin o zaman yaşadığı ağır şəraitlərə, yəni üç güclü düşmən tərəfindən hücuma məruz qalmasını nəzərə alsaq, demək olar ki, bu köçə bundan artıq yardım göstərmək olmazdı.

Problemi araşdıran tədqiqatçı kimi bunu da deməliyəm ki, problemlə bağlı ermənilərin əsassız olaraq köç iddialarına və bununla ilgili məsələlərə də aydınlıq gətirməyi zəruri hesab edirəm. Köç məsələsinə gəldikdə qeyd etmək lazımdır ki,Türkiyənin həmin zaman kəsiyində yaşadığı ağır şərtlərə yəni üç güclü düşmən tərəfindən hücuma məruz qalmasını nəzərə alsaq, demək olar ki, bu köçə bundan artıq yardım göstərmək olmaz. Buna baxmayaraq, onların Anadoluda qatarda Konyaya,öküz arabalarında Toros dağlarına getdiklərini, Tarsus və Adanada çadır düşərgələrində görmüşəm. Bundan başqa, Hələbdə, Deur-əl-Zor və başqa yerlərdə onlarla rastlaşmışam, Hələbdə bir hotel sahibi olan erməni tanışımla dəfələrlə türklər barədə söhbətimiz olub. O, heç vaxt türklər haqqında pis danışmayıb. Mən bir gün Camal Paşa ilə görüşəsi idim. Həmin erməni tanışımla bu barədə danışdım. O, Camal Paşa haqqında yumşaq və səmimi danışdı.” (91,s.3) . (“Azərbaycan”qəzeti,24 aprel 2007).

Mən hadisələri gözü ilə görən bir şahid kimi erməni köçünü müşahidə edən türk candarma birliklərinin ermənilərə qarşı soyqırımı həyata keçirdiyi iddiasına qətiyyətlə qarşı çıxıram. Gələcəkdə fərqli yerlərdə erməni mövzusuna bir də qayıdacağam, eynən indiki kimi tərəfsiz olacağam. Daha sonra məlum oldu ki, isveçli minbaşı Hyalmar Praviz sonralar daha böyük, geniş həcmli məqalələr yazmış, dünyanın bir neçə kitabxanalarında 1918-ci ilin oktyabrında

Stokholmda çap olunan «Fran Persien, Stiltye Osh Storm» kitabının 215-222-ci səhifələrində eyni mövzuya toxunmuşdur. Müəllif haqlı olaraq yazır ki, Türkiyə kimi bir ölkə içində gizlənmiş bu cür insanlara qarşı tədbir görülsə, bunu normal qarşılımaq lazımdır. Ermənilərin türk əsaərəti altında yaşadıqlarını və davamlı olaraq təzyiq gördüklərini iddia edənlərin tamamilə yalan danışdıqlarını söyləyirəm. Əslində, o dövrdə ermənilərdən dəfələrlə pis yaşayan və əsarət altında əziyyət çəkən xalqlar var idi.

Reallıqlar sübut edir ki, zaman-zaman müxtəlif yerlərdə ermənilərə qarşı müşahidə olunan düşmənçilik münasibətlərinə yalnız və yalnız ermənilərin özləri səbəbkardır. Araşdırmaların nəticələri göstərdi ki, ermənilərə qarşı həmişə xoş münasibət olmuş, məhz bu səbəbdən onlar indiyə kimi dinlərini yaşadıblar, dillərində danışırlar, məktəbləri olub, bir sözlə, hər bir xalqa lazım olan hər cür şəraitlə təmin olunublar.

**Həcər Verdiyeva**

## Erməni terroru kürdlərə qarşı

"Erməni məsələsinin" həlli məqsədilə, hakimiyyət nümayəndələrinə qarşı silahlı çıxışların təşkilinə meylini heç vaxt gizlətməmiş "Daşnaksutyün" partiyası Osmanlı imperiyasında bir sıra uğursuz cəhdə əl atdıqdan sonra XIX əsrin sonunda bütün diqqətini Qafqaza yönəltdi. Rusiya imperiyası erməni-qriqorian kilsəsinin əmlakı üzərinə sekvestr qoyduqdan sonra, XX əsrin əvvəllərində daşnaklar artıq Rusiya hökumət nümayəndələrinin, xüsusilə Qafqaz administrasiyasının yüksək vəzifə sahiblərinə qarşı çıxmağa başladılar. Bunun nəticəsində Birinci rus inqilabı ərəfəsində erməni terror dalğası öz pik nöqtəsinə çataraq, Cənubi Qafqazı da keçdi. Bu zaman erməni şovinist dairələri öz çirkin planlarının həyata keçirilməsi üçün xüsusi yaraqlı dəstələr yaradırdılar. Bu dəstələr "Daşnaksutyün" partiyasının I qurultayının 1892-ci ildə qəbul etdiyi qərardan sonra formalaşmağa başladı. Döyüşçü dəstələrin maliyyələşdirilməsi üçün daşnaklar xüsusi maliyyə büdcəsi yaratdılar. Burada həm "Daşnaksutyün" üzvlərinin partiyaya üzvlük haqqı, həm də erməni lobbisinin imkanlı nümayəndələrinin ianələri toplanılırdı. Bakının "qara qızılı" hesabına Rusiya imperiyasının ən varlı sahibkarlarından birinə çevrilən A.Mantaşev daşnakların maliyyələşdirilməsində böyük rol oynayırdı. Arxiv sənədləri göstərir ki, erməni ideoloqlarının heç bir izahı və əsası olmayan iddialarının həyata keçirilməsi üçün maliyyə mənbəyi rolunu öz üzərinə götürən "Erməni milli bankı"nın əsasını 1902-ci ildə Londonda məhz A.Mantaşev qoymuşdu(2, 38arxa).

Daşnak terroru Birinci rus inqilabından sonra da bütün Rusiya ərazisi boyunca həyata keçirilirdi. Təkcə 1907-ci ildə xüsusi məktəblərdə hazırlanmış "Daşnaksutyün" döyüşçüləri tərəfindən 3.060 terror aktı həyata keçirilmişdi. Belə məktəblərdən biri də Bolqarıstanda, Ril monastırında yerləşirdi (8, 42-43). Elə həmin ildə daşnaklar imperator II Nikolaya və imperiyanın hökumət başçısı

P.A. Stolıpinə qarşı sui-qəsd hazırlamışdılar. "Daşnaksutyün" partiyasının bu niyyətini onun malik olduğu real qüvvə - sayı 100.000-dək olan - zinvorlar (döyüşçülər) ordusuna sahib olması faktı da izah edə bilər(8, 33). Qeyd etmək lazımdır ki, Birinci rus inqilabı illərində, bu hərbi qüvvənin saxlanması üçün daşnaklar çar əskinasları ilə 10 milyon rubla qədər maliyyə vəsait xərcləmişdilər (8,34).

Mühafizə bölməsinin agentura məlumatlarına əsasən Birinci dünya müharibəsi ərəfəsində "Daşnaksutyün" partiyası çox aktiv şəkildə silahlanmağa davam edir, hətta ABŞ-dan da silah alırdı. Erməni ekstremistləri tərəfindən alınan silahlar Qafqaza müxtəlif marşrutlar üzrə və əsasən Qara dəniz limanlarından gətirilirdi. Bu faktlar, erməni millətçilərinin inqilabdan sonrakı dövrdə hökumət əleyhinə çıxışlara və zorakı aksiyalara çox fəal şəkildə hazırlıq görmələrindən xəbər verir. Onların bu fəaliyyətinin tərkib hissəsi isə Birinci dünya müharibəsi dövründə eybəcər bir forma almış erməni terroru idi.

Birinci dünya müharibəsi erməni terrorizminə yeni təkan verdi. 1914-cü ilin sonu - 1915-ci ilin əvvəllərində Osmanlı imperiyasının Van, Zeytun, Bitlis, Muş əyalətlərində fəaliyyət göstərən erməni quldur birləşmələri, Kiçik Asiyanın bir hissəsinin rus ordusu tərəfindən işğal edilməsindən istifadə edərək və bu işğalın onların planları üçün əlverişli şərait olduğunu hiss edərək, Osmanlı ordusuna qarşı çıxmağa başladılar. Bu çıxışlar nizami ordu ilə uğursuz toqquşmalar xarakteri daşımaqla yanaşı, həm də dinc əhaliyə qarşı cəza aksiyaları ilə, onların kütləvi qətlə yetirilməsi ilə müşayiət olunurdu. Qeyd olunmuş konkret xoronimdə* türklərlə yanaşı, həmçinin burada yaşayan kürdlər də zorakılığa və qətliamlara məruz qalırdı. Rusiya Federasiyasının arxivlərində saxlanılan tarixi sənədlər 1915-ci ilin yanvarında erməni silahlılarının törətdiyi azğın əməllərə şahidlik edir. Bu sənədlərdə ermənilərin kürd kəndlərini talan etdiyi və kürd qadınlarına qarşı zorakılıq törətdikləri göstərilir(12,87).

Regionda erməni özbaşınalığı 1915-ci ilin yazında da davam etdi. Belə ki, infanteriya generalı P.Oqanovskinin fərmanı ilə daşnak S.Tiqranyan Rusiya qoşunları tərəfindən işğal edilmiş ərazidə mülki hissə üzrə müdir təyin olunmuşdu. Tutduğu vəzifədən sui - istifadə edərək P.Oqanovski erməni yaraqlı dəstələrinə geniş səlahiyyətlər verir, onları inzibati vəzifələrə təyin edir, "erməni qaçqınlarını kəndlərdə yerləşdirir, onlara kürdləri qarət etmək, mal-qarasını sürüb aparmaq imkanı verirdi"(8, 66).

1915-ci ilin yayında Van əyalətinin rus Qafqaz ordusu tərəfindən işğal olunmasından və zinvorların və zinvorların ideoloqları olan daşnakların tam ixtiyarına verilməsindən sonra, regionda yaranmış ictimai-siyasi vəziyyət yerli əhali üçün dözülməz bir hala çevrilmişdi. Daşnak Aram Manukyanın göstərişi ilə zinvorlar "türklərin və kürdlərin bu əraziləri tərk etməsindən sonra qalan əmlakını talan etmiş, kürdlərə və türklərə məxsus otlaq və zəmilər erməni əhalisinə verilmişdi"(8,67). Sovet ermənişünası A.B.Karinyan Birinci dünya müharibəsi

*coğrafi məkan

illərində erməni silahlı dəstələrinin vəhşilikləri barədə öz əsərlərində yazır, kürd və türk əhalisinin zinvor dəstələri tərəfindən sistematik qətliamlara məruz qaldığını göstərən faktları vurğulayırdı (10, 65-66).

Erməni yaraqlılarının müsəlman əhalisinə, xüsusilə kürdlərə qarşı zorakılıq əməlləri 1916-cı ildə də davam etməkdə idi. Belə ki, 1916-cı ilin sentyabr ayında Qafqaz ordusunun səhra qərargahı yanında hərbi məhkəmə tərəfindən 3-cü və 4-cü erməni dəstələrinin yaraqlılaqrı "kürd qadın və qızlara zorakılıq tətbiq edərək, 26 qadın və uşağa işgəncələr verərək və ölümcül zərbələr endirərək qəsdən zərər vurmaqda" təqsirləndirilirdilər (12,124).

Kürdlərin Birinci dünya müharibəsi illərində törətdikləri qətliamlar barədə bu dövrdə nəşr olunan "Erməni xəbərləri" adlı ictimai-siyasi həftəlik qəzet də yazırdı. Qeyd etmək lazımdır ki, bu jurnalın səhifələrində "erməni qələmi"dominantlıq edirdi. Erməni zinvorlarının törətdiyi vəhşilik faktları o qədər təkzibedilməz idi ki, hətta bu millətçi qəzetin ermənipərəst redaksiya heyəti də həqiqətin səsini batıra bilməmişdi.Belə ki, "Erməni xəbərləri" qəzetində dərc olunmuş materialların birində aşağıdakı məlumatlara rast gəlmək olar: "Müharibəyə qədər 800 000-dən çox kürdün yaşadığı - Van gölündən cənub və qərb tərəfə, Bitlis-Muş rayonundan, daha sonra Xnıs, Bulanık, Patnots, Manazkert, Ala-Dağıdan və Alaşkertlə birgə Basen və Bayazid - Diadinin rayonlarına qədər uzanan bütün sahə hazırda tamamilə boşdur" (7, 15). Bu fraqment birmənalı olaraq sübut edir ki, Osmanlı imperiyasının Kiçik Asiya regionunun müsəlman əhalisinin yaşadığı demoqrafik kollapsın səbəbkarı məhz erməni yaraqlılarıdır.Onların Şərqi Anadolu əhalisinə - türklərə və kürdlərə qarşı törətdiyi soyqırım nəticəsində, artıq 1916-cı ilin yazında bu məkandan Cənubi Qafqaza müsəlman qaçqınların axını müşahidə olundu. Onların Azərbaycan Respublikası Dövlət Tarix Arxivində aşkar etdiyimiz qeyri – dolğun siyahıları bu faciənin böyük miqyasından xəbər verir (4, 62, 63, 86-90, 96, 96 arxa).

Erməni terroru Osmanlı imperiyasının Kiçik Asiya regionunda törədilən cinayətlərlə məhdudlaşmadı. "Böyük Ermənistan" əfsanəsini Şərqi Anadoluda həyata keçirməyə nail ola bilməyən erməni şovinistləri Azərbaycan xalqına qarşı soyqırım və terror törətmək taktikasına keçdilər. Qeyri-dəqiq hesablamalara əsasən təkcə Bakı quberniyasında 1918-ci ilin yazında 40 mindən çox azərbaycanlı erməni millətçiləri tərəfindən qətlə yetirilmişdilər. Demoqrafik kollapsa səbəb olmuş total şəkildə aparılan erməni terroru sonrakı dövrlərdə də davam etmişdi.Həmin ilin payızında erməni silahlı dəstələri 1897-ci ildə aparılan Rusiya ümumi siyahıyaalma məlumatlarına əsasən 314 müsəlman kəndinin qeydə alındığı Zəngəzurda 115 Azərbaycan kəndində qırğınlar törətmişdilər (5,127-128;6,18). Yelizavetpol quberniyasında 69 kürd kəndinin qeydə alındığını (9, 162) və onların bir hissəsinin Zəngəzur mahalında məskunlaşdığını nəzərə alsaq, belə bir reallığı göstərə bilərik ki, XIX ərin sonundan etibarən erməni terror hərəkatında aktiv iştirak etmiş və 1918-ci ilin payızında Zəngəzurda törədilən qırğın zamanı xüsusi "fərqlənmiş" məşhur terrorçu Andranikin dəstəsi kürd kəndlərini də qırğınlara məruz qoymuşdu.

Bu məsələni araşdıran tədqiqatçılar ötən əsrin birinci yarısında İrəvan torpaqlarında baş verən erməni terrorunun dəhşətli nəticələrini diqqətə çatdıraraq, göstərmişlər ki, erməni milətçiləri bu məkanın əhalisini - Azərbaycan türkləri və kürdləri fiziki cəhətdən məhv etmişlər. XX əsrin 20-30-cu illərində müxbir kimi fəaliyyət göstərən erməni tədqiqatçısı Anait Lalayan öz əsərlərində faktiki materiallara istinad edərək, 1918-1920-ci illərdə Azərbaycan türkləri ilə yanaşı, həmçinin kürdlərin də erməni terrorizminə məruz qaldığını bildirmişdir. A.Lalayan "müsəlmanlar- düşmənlərimizdir" şüarı altında Azərbaycan torpaqlarında daşnak hökumətinin "azərbaycanlı və kürd kəndlərini bombardman edərək, müsəlman əhalisini məhv etdiyini" yazmışdır. Müəllif erməni quldurları tərəfindən törədilmiş soyqırımı nəticəsində, bu illərdə İrəvan bölgəsində müsəlman kürdlərin 98%-nin və yezidi kürdlərinin 40%-nin qətlə yetirildiyini vurğulamışdır (11,99).

Bizim hesablamalarımıza əsasən, əgər 1916-cı ildə İrəvan quberniyasında 43.784 müsəlman kürd və 17.219 yezidi kürdü yaşayırdısa(9, 249), 1920-ci ildə soyqırımı nəticəsində yuxarıda göstərilən Anait Lalayanın verdiyi məlumatı nəzərə alsaq bu dövrdə müsəlman kürdlər təxminən 43 min, yezidi kürdləri isə təxminən 7 min insan itirmişdi. Bu faktlar Azərbaycan türkləri ilə yanaşı, həm də kürdlərə qarşı erməni vandalları tərəfindən törədilmiş erməni terrorunun dəhşətli nəticələrini birmənalı şəkildə diqqətə çatdırır. 1918-1920-ci illərdə daşnak hökuməti İrəvan bölgəsində ümumilikdə 300 müsəlman kəndini məhv etmişdi. Bu vəhşi qətliamdan yalnız Uluxanlı kəndi və Azərbaycan şəhəri olan İrəvanın müsəlman təbəqəsinin cüzi bir hissəsi – 300 ailə xilas ola bilmişdi (3, 19).

Erməni millətçi şovinizminin ideoloqları artıq bir əsrdən çoxdur ki, Aralıq dənizindən Qafqaza qədər olan geniş ərazilərə bədbəxtlik və ölüm gətirir. Bu regionda yaşayan insanlar - müsəlmanlar, xristianlar və iudeylər də həmçinin öz təcrübələrində erməni vandalizminin şahidi olmuşlar. Bu acı aqibəti XIX əsrin 90-cı illərindən başlayaraq erməni millətçiləri tərəfindən zorakılığa məruz qalan, şər və zülmət yayan erməni terrorçularının cinayətkar əməllərindən əziyyət çəkən kürdlər də yaşamışlar. Belə ki, yenidənqurma illərində* uydurma "Dağlıq Qarabağ" probleminə qayıdan erməni millətçiləri, 1988-ci ilin noyabrında daşnak alqoritmlərini əsas götürərək İrəvan torpaqlarında "etnik təmizləmə" həyata keçirdilər.Bu zamanı say 1000 nəfərdən çox olmayan ruslar da Ermənistan SSR-dən çıxarıldılar(1,135). Kürdlərin böyük bir qismi də bu dövrdə bütün Azərbaycan türkləri kimi Ermənistan SSR- dən qovuldu. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatına görə SSRİ-nin dağılmasına qədər Ermənistan SSR-dən təxminən 18 min kürd Azərbaycan SSR-ə üz tutmuşdu(1, 135). Beləliklə,

* 1987-1991

SSRİ-nin dağılması ərəfəsində, erməni millətçiləri tərəfindən həyata. keçirilmiş "etnik təmizləmə" Ermənistan SSR-i monoetnik dövlətə çevirdi və bu da "erməni sindromu" nun parlaq göstəricisidir. Hazırkı dövrdə

tseqakronizmi* rəhbər tutan Ermənistan Respublikası rəhbərliyi bu siyasəti davamlı olaraq aparır, erməni irqçilik nəzəriyyəsinin ideoloqu olan Njdeyə İrəvanda abidə ucaldır, dünya xalqlarının qanına susayan Dronun xatirəsini əbədiləşdirir.

*irqçilik

---

**Ədəbiyyat:**


1.Arzumanlı Vaqif, Mustafa Nazim. Tarixin qara səhifələri. Deportasiya. Soyqırım. Qaçqınlıq. Bakı, 1998.

2. Azərbaycan Respublikası Prezidentinin işlər İdarəsinin Siaysi sənədlər Arxivi(sonra-ARP İİ SSA, f.276, siy.8,s.v.277.

3.ARP İİ SSA, surətlər fondu, №1836. Отчет Тюрксекции ЦК КП(Б) Армении.

4.Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, f.335, siy.1, s.v.1.

5. İsgəndərov Anar. Azərbaycan həqiqətləri 1917-1920. Bakı, 2012.

6.Mustafayev N.Y.1905-1906-cı illərdə İrəvan quberniyasında və Zəngəzur qəzasında ermənilərin azərbaycanlılara qarşı törətdikləri kütləvi qırğınlar. Tarix üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı.Bakı, 2014.

7.Армянский вестник. М., 1916.13 ноября. №42.

8.Багиров М.Б., Вердиева Х.Ю.В поисках истины…Лицо армянства. Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики.Документы свидетельствуют…Баку, 2011.

9.Вердиева Х.Ю. Переселенческая политика Российской империи в Северном Азербайджане. Баку, 1999.

10.Кариняан А.Б. К характеристике армянских националистических течений. Журнал «Большевик Закавказья». Тифлис, 1928. №9-10

11.Лалаян А.А. Контрреволюционная деятельность партии Дашнакцутюн. //Исторические записки.1938 .№2.

12.Перинчек Мехмет. Армянский вопрос в 120 документах из российских государственных архивов. Москва, 2011.


---


**İsmayıl Musa**


## “Madrid sənədi – prinsipləri”: baxışlar və problemlər

Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanmasına dair “Praqa prosesi”nin gedişində **“Madrid sənədi” məsələsi** ortaya çıxdı və onun ətrafında diplomatik qalmaqal yaşandı. Belə ki, ATƏT XİNŞ-in 2007-ci il noyabrın 27-də keçirilən iclasından öncəki görüşdə həmsədrlər Ermənistan və

Azərbaycanın Xarici İşlər nazirlərinə birgə yazılı təkliflərini təqdim etdilər. Rusiya (S.Lavrov) və Fransa (B.Kuşner) baş diplomatlarının, habelə ABŞ Dövlət katibinin müavini U.Bernsin də qatıldıqları həmin görüşdə münaqişə tərəflərinin Xarici İşlər nazirlərinə verilən təkliflər sənədi öncə tam açıqlanmadı, hətta "gizlədildi".

**Həmsədrlərin təkliflər paketi ("Madrid sənədi")** onun müəlliflərinə görə, münaqişənin dinc yolla tənzimlənməsinin - axırıncı fikir ayrılıqlarını aradan qaldırmalı olan - ədalətli, qarşılıqlı məqbul, qərəzsiz və tarazlaşdırılmış baza prinsipləridir. Buradan da göründüyü kimi, həmsədr dövlətlər və ATƏT baza prinsipləri haqqındakı sənədi "gələcək nizamlama üçün daha real əsas" hesab edirlər. Bir sıra politoloq-ekspertlər isə sənəddə yeniliklərin olmadığını vurğulayaraq, onun sadəcə əvvəlki danışıqların tezislərini özündə cəmləşdirdiyini bildirirlər. Onların nəzər nöqtəsinə görə, həmin təkliflər paketinin təqdimatında (özü də müzakirələrsiz) başlıca məqsədlər bunlar olmuşdur:

**1.** Tərəflərin məsuliyyətdən yayınmalarının önlənməsi.

**2.** Hər iki dövlətdə 2008-ci ildə keçiriləcək prezident seçkilərindən sonra da danışıqların davam etdirilməsinə əvvəlcədən təminat alınması.

Bu məqsədlərin detallarına varıldıqda həmsədrlərin (bütövlükdə, ATƏT-in) təklif edilən baza prinsiplərinin qəbulu ilə danışıqların hazırkı mərhələsini bitirib yeni dönəmə-hərtərəfli sülh sazişinin layihəsinin işlənilib hazırlanılmasına-keçirilməsini istədikləri bəlli olur. Sənəd habelə həmsədrlərin bu kimi niyyətlərini də açıqlamağa imkan verir. Yəni prezidentlərin: **a)** mümkün olan bütün sahələrdə tərəflərarası etimadın möhkəmləndirilməsinə yönəlik tədbirləri davam etdirmələri; **b)** öz ölkələrinin əhalilərini sülhə hazırlamaları; **c)** müharibənin münaqişənin həlli vasitəsi olmasına dair bəyanatlarla çıxışlara təcili son qoymaları və s.

Həmsədrlər seçkidən sonrakı dönəmdə danışıqlar prosesinin "ağ vərəq" dən, yəni "sıfır"dan başlanılması durumunun yaranmaması üçün prezidentlərin baza prinsipləri ilə bağlı "şifahi razılaşmaları"nı əldə etməkdə də maraqlı olmuşdular. Tələsdikləri gözönündə olan həmsədrlərin prezidentlərin seçkilərə qədər həmin sənədi birgə bəyanat olaraq (guya ki, status-kvonun saxlanması üçün) elan etmələrinə cəhd göstərmələri də alınmadı. Yəni belə bir birgə bəyanat verilmədi. Bu tələskənlik prezidentlərdən birinin (Ermənistanda) və habelə həmsədrlərin dəyişməsi ehtimalı ilə də izah olunurdu.

Çoxlu mübahisəli və ziddiyyətli məqamlara malik olan və bir müddət açıqlanmayan **"Madrid sənədi" diplomatik çevrələrdə müxtəlif mövqelər** yaratdı:

- sülh danışıqlarının "Praqa formatında davamı" imkanı (E.Məmmədyarov);
- Azərbaycan üçün "kapitulyasiya aktı", başqa sözlə, təslimçi sülh (ölkədaxili bəzi qeyri-rəsmi dairələr);
- Ermənistanın uğuru və onun maraqlarının ən çox təmin edilməsi və mövqelərinin möhkəmlənməsi (V.Oskanyan);

- konfliktin nizamlanması üçün “qızıl şans” (Q.Lenmarker);
- “kompromislər üçün ən optimal variant”-“yeni təşəbbüs deyil, təşəbbüslərin sonu” (M.Brayza);
- “münaqişənin həlli üçün indiyədək əldə edilən bütün müsbət elementlərin ilk dəfə olaraq bir yerə toplanıldığı və gələcək addımları asanlaşdıracaq sənəd” (S.Lavrov);
- “referendum razılaşması” (Beynəlxalq Böhran Qrupu-S.Frayzer);
- “status-kvo sənədi”, “kövrək ümidlər” (Qərb mətbuatı: İngiltərənin “Ekonomiks” qəzeti və s.).

Bu kimi konkret tezislərin arxasındakı mövqelərin bir qədər ətraflı açıqlanması “Madrid sənədi” ətrafında yaranan diplomatik mənzərənin (qalmaqal və s.) anlaşılması baxımından faydalıdır. Həmsədrlərin təklif (təqdim) və münaqişə tərəflərininsə inkişaf etdirdikləri **bu paketlə bağlı haçalanmış mövqelər** mövcuddur.

**Ermənistanda da hakimiyyətlə qeyri-rəsmi dairələrin yanaşmaları fərqli** olmuşdur. “Madrid sənədi” ilə bağlı açıqlamalarında o vaxtkı Xarici İşlər naziri V.Oskanyan bunları bildirmişdi: bu sənəd bizim uğurumuzdur; ermənilər indiki kimi heç vaxt uğur qazanmayıblar; hazırkı baza prinsipləri mövqeyimizi möhkəmləndirir; diplomatiyamızın mövqeyi indi “müqayisə edilməz dərəcədə” möhkəmdir; Azərbaycan tərəfinin sərt bəyanatlarının xeyri yoxdur və həllə mane olur: biz danışıqlardan çəkilsək, sülh prosesinə ciddi zərbə dəyər; prosesdən imtina və “sıfır vəziyyəti”nə qayıdış Azərbaycana əlavə şans olardı; münaqişənin həllinin əsas prinsipləri sənəddə öz əksini tapıbdır, yəni əsas (açar) məsələ, birinci dərəcəli problem Dağlıq Qarabağın statusudur; Azərbaycan əvvəllər ərazilərin boşaldılmasını və qaçqınların qayıtmalarını başlıca problem sayırdısa, indi statusun aparıcı məsələ olması ilə razılaşmışdır; DQ-nin AR-dən ayrılmaqla öz müqəddəratını təyinetmə hüququ vardır; öz müqəddəratını həlletmə və yekun statusun səsvermə ilə müəyyənləşdirilməsi danışıqların əsas prinsipləridir.

“Madrid sənədi”ni Ermənistan üçün uğurlu sayan ölkə və diaspora-lobbi daxilindəki fikirlərlə əsla razılaşmayan keçmiş prezident L.Ter-Petrosyan isə bu təkliflər paketi ilə onun prezidentliyi vaxtındakılar arasında ciddi fərqlərin olmadığını iddia edir. Əlavə olaraq habelə Ermənistanın danışıqlar prosesindəki mövqeyinin onun zamanında indikindən qat-qat üstün olduğu da bildirilir.

**Azərbaycan iqtidarı ilə ölkənin qeyri-rəsmi dairələri** (siyasətçiləri, politoloqları,ekspertləri) də həmsədrlərin bu **təkliflər paketinə münasibətdə həmrəy deyillər. Azərbaycan Xarici İşlər nazirliyi:**

- “Madrid sənədi”nə normal yanaşdığını bəyan edərək danışıqların Praqa formatında davamını mümkün (faydalı) sayır;
- sənədin münaqişənin “mərhələli həll”ə üstünlük verdiyini iddia edir (Bu zaman başlıca dəlil kimi , 5 və ya 7 rayondan işğalçı qoşunların çıxarılması, demilitarizasiya tədbirləri, bərpa-tikinti işləri, sülhməramlı qüvvələrin

yerləşdirilməsi, kommunikasiyaların açılması, qaçqınların qayıtmaları və yalnız bunlardan sonra statusun müəyyənləşdirilməsi ardıcıllığı gətirilir;

- DQ-yə AR daxilində status (Tatarıstan, Başqırdıstan və s. kimi) verilməsinə problem olmadığını bildirir (Bununla yanaşı rəsmi İrəvanın sənəddə əksini tapdığını iddia etdiyi məsələlər, yəni Azərbaycanın da statusu birinci dərəcəli problem və danışıqların əsas prinsipi sayması təkzib olunur);
- ATƏT Xarici İşlər nazirlərinin bu (Madrid) toplantısında E.Məmmədyarovun vurğuladığı kimi, "Azərbaycanın bir sm torpağını da verməyəcəyi"nə dair mövqeyini təkrarlayır.

**Respublikamızın qeyri-rəsmi dairələrinin yanaşmasına** görə isə "Madrid sənədi"-Azərbaycan üçün "kapitulyasiya aktı, yəni təslimçi ("ədalətli") sülh deməkdir. DQ-yə de-yure müstəqillik vəd edən bu sənəd əslində "Kosovo həll modeli" deməkdir. Belə bir mövqe isə bu kimi dəlillərlə əsaslandırılır:

- yalnız 5 rayonun, özü də tədricən boşaldılması;
- məhdud erməni silahlı qüvvə kontingentinin bir müddət Kəlbəcərdə qalması;
- DQ-də bir müddət beynəlxalq idarəçiliyin tətbiq edilməsi;
- Ermənistanın nəqliyyat blokadasının birbaşdan götürülməsi;
- Azərbaycan ordusunun işğaldan azad edilən rayonlara dərhal daxil olmaması və həmin ərazilərə sülhməramlı qüvvələrin gətirilməsi (Bunun da AR-in statusdan yayınmaması üçün edildiyi vurğulanır);
- ermənilərin referendum hüququndan faydalanması və DQ-nin Azərbaycan-dan ayrılması, bununla da, AR-in suverenliyi prinsipinə riayət olunmaması - (Ermənilər referendumu Azərbaycandan ayrılma kimi qəbul edirlər);
- AR-in ərazi bütövlüyünün və BMT-nin Dağlıq Qarabağa dair məlum qətna-mələrinin sənəddə əksini tapmaması və orada "işğal" ifadəsinin işlənməməsi. (Bu da geriyə doğru addım sayılır, çünki bu məsələ Lissabon sammitinin sənədində qeyd edilmişdi).

ATƏT rəhbərliyi və strukturlarının həmsədrlərin təkliflərinə münasibətinə gəldikdə **Parlament Assambleyasının sədri Q.Lenmarker** Madrid toplantısında onları münaqişənin tənzimlənməsi üçün "qızıl şans" kimi dəyərləndirmişdi. Baza prinsipləri haqqındakı bu sənəd ATƏT, rəsmi Moskva, Paris və Vaşinqton tərəfindən həm də "nizamlanmanın həyat qabiliyyətli təməli" olaraq səciyyələndirilmişdi. **ABŞ-dan olan təmsilçi M.Brayza** "Dağlıq Qarabağ problemi"ni "zərif, kövrək məsələ" olaraq səciyyələndirərək "Madrid sənədi"ni belə dəyərləndirmişdi: "kompromislər üçün ən yaxşı, optimal variant", "yeni təşəbbüs deyil, təşəbbüsün sonu". (Bu iki mənada başa düşülə bilər: indiyə qədərki işlərin (təkliflərin) yekunu və ya danışıqların davamının önəmsizliyi, yəni sona (özü də uğursuzluqla) yetməsi). "Hər hansı tərəfin hərbi uğuru məğlubun qisas almaq niyyətilə törədə biləcəyi növbəti müharibə üçün əsas yaradır" mülahizəsini söyləyən amerikalı həmsədr də seçkilər öncəsi yürüdülən "məkik diplomatiyası" vasitəsilə prezidentlərin şifahi razılığının alınması mövqeyində olmuş, özü də buna çalışmışdı."Seçkilərə qədər heç bir fasilə olmaya-

caqdır, biz iki ölkə prezidentləri arasında şifahi razılaşmaların əldə olunacağını gözləyirik".

M.Brayza "Madrid sənədi"nin ortaya çıxmasından bir il sonra (XI.2008) APA-ya müsahibəsində "prinsiplər üzərində işi sona çatdırmağa çalışacaqlarını" bildirmişdi. O habelə danışıqlarda başlıca məsələ və diskussiyaların əsas məğzinin Azərbaycanın ərazi bütövlüyü ilə Dağlıq Qarabağ ermənilərinin öz müqəddəratını təyinetmə prinsiplərini uzlaşdırmaqdan ibarət olduğunu açıqlayıbdır. Amerikalı diplomat bunu da vurğulayıbdır ki, onun həmsədrliyi müddətində prezidentlərin razılığa gəlməyə bu dərəcədə hazır-yaxın olduqlarını heç bir zaman xatırlamır və onlar konstruktiv dialoqa çox meyllidirlər.

**Fransalı həmsədr B.Fasyenin yanaşmasına** görə, təklif olunan prinsiplər razılaşdırılardısa, onların detalları seçkilərdən sonra da müzakirə edilə və konkretləşdirilə bilərdi."Gəlin, münaqişənin həlli üçün 50 il gözləməyək" deyən B.Fasye onların təkliflərində heç bir tələ və ikimənalılıq olmadığının tərəflərə izah edildiyini də bildirmişdi. O, xülasə səciyyəli açıqlamasında həmsədrlərin "yeni" paketini, yəni "Madrid sənədi"ni "bizim ölkələrin Qarabağ münaqişəsinin tənzimlənməsi prosesində kompromis əldə olunması üçün təklif edə biləcəyi yaxşı tövsiyə kimi" qiymətləndirmişdi. Fransalı həmsədrin şərhləri "Madrid sənədi"nin Qarabağ danışıqlarının baza razılaşdırılması çərçivəsində "əsas prinsiplər üzrə kompromislər layihəsi" olduğunu da söyləməyə əsas verir.

**Rusiyanın mövqeyini** onun Xarici İşlər naziri S.Lavrov belə ifadə etmişdi: həmsədrlərin təkliflərinə münaqişənin həlli yolunda indiyədək əldə olunan bütün müsbət nəticələrin toplu (ümumiləşdirilmiş) ifadəsi və gələcək fəaliyyəti asanlaşdıran sənəd kimi baxmaq lazımdır. Həmin ölkədən olan həmsədr Y.Merzlyakov isə baza prinsiplərinin razılaşdırılmasından sonra bütün münaqişə tərəfdarlarının müzakirələrə cəlb olunmasının zəruriliyini bildirmişdi: "Əgər Azərbaycan istəyərsə, azərbaycanlı icması da müzakirələrlə iştirak edə bilər".

**Beynəlxalq Böhran Qrupu (S.Frayzer)** də həmsədrlərin Madriddə tərəflərə təqdim etdikləri sənəddə zor tətbiqindən imtina, erməni qoşunlarının tutulan ərazilərdən çıxarılması, məcburi köçkünlərin (azərbaycanlıların) yerlərinə qayıtmaları, müvəqqəti status, sülhməramlı qüvvələr də daxil olmaqla əhəmiyyətli beynəlxalq yardım, qəti status haqqında referenduma dair qarşılıqlı razılaşma və digər məsələlərin özünə yer aldığını iddia edirdi.

Bir müddət məqsədli olaraq "gizlədilən" və bu üzdən də ətrafında müxtəlif şərh-izahlar verilən, barəsində çoxlu məlumatlar yayılan "Madrid sənədi", nəhayət ki, açıqlandı, rəsmən elan edildi. Bu, diplomatik hərəkət (akt) **"Böyük səkkiz"lərin İtaliyanın Akvila şəhərində keçirilən sammitində (VII.2009)** razılaşdırıldı (Həmin razılaşmaya dair ilkin anlaşmanın hələ B.Obamanın Rusiyaya rəsmi səfəri zamanı (IV.2009) əldə edildiyi bildirilir). Belə ki, həmsədr dövlətlərin prezidentləri **(D.Medvedyev, B.Obama, N.Sarkozi) Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair birgə bəyanat** qəbul (10.VII.2009) etdilər.

Üç prezidentin bəyanatı ilə "Madrid sənədi"nin "mövcudluğu barədəki

şübhələr”ə ziddiyyətli inkar və təsdiqlərə son qoyuldu. Yəni həmin bəyanatla “Madrid prinsipləri”nin mövcudluğu rəsmən etiraf edildi. Orada “2007-ci il noyabrın 27-də tərəflərə təqdim olunmuş “Madrid sənədi”ndən bəhs olunurdu. **Birgə bəyanatın əsas qayəsini və məzmununu** bunlar təşkil edirdi:

- həmsədrlərin “Madrid sənədi”nin münaqişənin nizamlanmasının baza prinsiplərinə dair son təkliflər əsasında yeniləşdirilmiş variantını Ermənistan və Azərbaycan prezidentlərinə verməleri;
- Azərbaycan və Ermənistan prezidentlərinin konfliktin tənzimlənməsinə dair həll edilməmiş qalan bir neçə məsələni də öz aralarında razılaşdırmaları və baza prinsipləri ətrafında danışıqları başa çatdırmaları.

Rəsmən açıqlanan **“Madrid prinsipləri” aşağıdakılardan** ibarətdir:

**1.** Dağlıq Qarabağ ətrafındakı rayonların Azərbaycanın nəzarətinə qaytarılması.

**2.** Dağlıq Qarabağa keçid statusu verməklə onun təhlükəsizliyi və özünüidarəsinə təminat verilməsi.

**3.** Ermənistanla Dağlıq Qarabağı birləşdirən dəhlizin yaradılması.

**4.** Dağlıq Qarabağın yekun statusunu müəyyənləşdirəcək hüquqi səlahiyyətli iradəni ifadə etmək hüququ.

**5.** Bütün qaçqın və köçkünlərin münaqişədən əvvəl yaşadıqları ərazilərə qayıtmaq hüququ.

**6.** Sülhməramlı əməliyyatları nəzərdə tutan beynəlxalq təhlükəsizlik təminatının verilməsi.

Bu, bənd və şərtlərdən açıqca göründüyü kimi, “Madrid sənədi-prinsipləri” Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair sülh prosesinin belə bir prosedurunu (mexanizmini) əsas tutur: **ilk mərhələdə —** hələlik beş rayonun boşaldılması+ qaçqınların qayıtması+ sülhməramlı qüvvələrin yerləşdirilməsi+ bərpa işlərinə başlanılması və kommunikasiyaların açılması; **ikinci mərhələdə isə —** digər iki rayonun qaytarılması və “Laçın dəhlizi məsələsi”nin həlli + yekun statusunun referendumla razılaşdırılması.

Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi prosesində keçilən yola nəzər saldıqda aydın şəkildə bunu görmək olar: baza prinsipləri sayılan “Madrid sənədi” əslində ermənilərin daima irəli sürdükləri üç şərt əsasında qurulubdur. Yəni həmin məlum şərtlərlə Madrid prinsiplərini qarşılaşdırdıqda belə bir siyasi-diplomatik mənzərə ortaya çıxır. Belə ki, ermənilərin **birinci şərti** (“DQ ilə AR arasında hər hansə bir şaquli idarəçilik – tabeçilik və asılılıq ola bilməz”) “Madrid sənədi”nin **ikinci və dördüncü prinsipləri**,yəni müvafiq surətdə “keçid statusu” və “referendum hüququ” məsələlərində ifadə olunubdur. Onların **ikinci şərti** (“Dağlıq Qarabağla Ermənistan arasında quru yolu ilə əlaqələrin təmin edilməsi”) Madrid prinsiplərinin **üçüncüsü** ilə (“dəhliz yaradılmasıyla”) səsləşir**. 3-cü şərtsə** (DQ-nin təhlükəsizliyinə beynəlxalq təminatın verilməsi”) həmsədrlərin təkliflərinin **altıncı** bəndində (“beynəlxalq təhlükəsizlik təminatlı sülhməramlı əməliyyatlar”) öz əksini tapmışdır.

“Madrid sənədi”nin üzərindən “məxvi”liyin götürülməsi və onun “yeniləşdirilmiş” variantının tərəflərə təqdim ediləcəyinin elanı da müxtəlif yönlü diskussiyalara və xeyli sayda mövqe-yanaşmanın ərsəyə gəlməsinə rəvac vermişdir. Yəni açıqlanan sənədin ayrı-ayrı bəndləri (müddəaları) barədə çoxlu diplomatik və elmi dəyərləndirmələr ortaya çıxmışdır. Onların yığcam xülasəsi aşağıdakılarda ehtiva olunur:

**1)** Dağlıq Qarabağ ətrafında işğal olunan 7 rayonun “5+2” formulu üzrə boşaldılması planlaşdırılır. Buna əsasən gerçəkləşdirilən boşaldılma prosesi əvvəlcə beş rayonun qaytarılmasını nəzərdə tutur və işğalçı qoşunların Kəlbəcərlə Laçını tərk etmələrini isə sazişin imzalanmasından 5 il sonraya saxlayır. (Azərbaycandakı bəzi yanaşmalara görə isə, bu halda ermənilər DQ-nin 7 rayonu da daxil olmaqla işğal etdikləri 14 rayonumuzun yalnız yarısını qaytarmış olurlar). Burada M.Brayzanın açıqlamalarından birində özünə yer alan müddəaya istinad olunur. İrəvanda verilən (VII.2009) həmin açıqlama-bəyanatdan məlum olur ki, həmsədrlər “ərazi bütövlüyü” dedikdə BMT-nin Azərbaycan ərazisi kimi tanıdığı torpaqları, yəni DQ-ni nəzərdə tutmurlar. Onlar yalnız DQ ətrafındakı 7 rayonun qaytarılmasına AR-in ərazi bütövlüyünün təmin olunması kimi yanaşırlar.

**2)** Azərbaycan tərəfi, dəfələrlə bildirildiyi kimi, AR-in tərkibində Dağlıq Qarabağa yüksək muxtariyyət və onun təhlükəsizliyinə təminat verilməsinə etiraz etmir. (AR prezidentinin Dağlıq Qarabağ danışıqları üzrə xüsusi nümayəndəsi, XİN-in müavini A.Əzimov bununla bağlı baxışını belə ifadə etmişdir: Azərbaycan prinsipial mövqeyində dayanaraq hansısa kompromisə gedə bilər və Dağlıq Qarabağa (orada yaşayacaq iki icmaya) ölkəmizin ərazi bütövlüyü çərçivəsində ən yüksək səviyyəli idarəetmə statusu verməyə hazırdır; AR öz kompromis yolunu gələrək körpünün ortasında dayanıbdır və Ermənistan da maksimalist mövqeyindən çəkilərək körpünün ortasına gəlməli, məsələlərin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə razılığını qəti bildirməlidir. Diplomatın bu yanaşma-mövqeyi dövlət başçısının “Rossiya” telekanalının “Vesti v Subbotu” proqramına (4.VII.2009), Kişinyovda “AzTV” televiziyasına (9.X.2009) verdiyi müsahibələrdə də dəstəklənmişdir). Ancaq **“keçid-aralıq statusu**” və ondan sonrakı referendum məsələsinin ölkəmizdə doğurduğu rahatsızlıq gözönündədir. (Proseslərin belə inkişaf ssenarisinin verə biləcəyi nəticələrlə bağlı burada “Kosovo təcrübəsi”xatırlanır).

**3) “Laçın dəhlizi məsələsi**” münaqişənin nizamlanmasında **“açar problem**”lərdən biri olmaqla yanaşı Azərbaycan tərəfini daha çox qayğılandıran məqamlardandır. O, Ermənistanın konfliktin tənzimlənməsinə dair şərtləri sırasında mərkəzi yerlərdən birini tutur. “Madrid prinsipləri”ndən Kəlbəcərlə Laçının taleyinin müəyyənləşdirilməsinin (qoşunların çıxarılması, “dəhliz məsələsi”nin rəsmiləşdirilməsi və s.) sülh sazişindən, hətta ola bilsin ki, referendumdan sonraya saxlanılması mexanizmi görünür.

**4)** “Madrid prinsipləri” nizamlama prosesinin ikinci mərhələsində Dağlıq Qarabağın yekun statusunun müəyyənləşdirilməsini nəzərdə tutur. Bu şərt

sənədin hazırda başlıca mübahisələrə səbəb olan 4-cü bəndində (prinsipində) əks olunmuşdur. AR-də müəyyən çevrələr bunu Azərbaycana qarşı qurulan hiylə təki səciyyələndirirlər (Belə bir hal beynəlxalq diplomatiyada evfemizm sayılır. Yəni qarşı tərəfin narazılığına səbəb ola biləcək hansısa arzuolunmaz ifadə və ya termin mənası onunla eyni anlama gələn digər ifadə ilə (anlayışla) əvəzlənir). Bununla əlaqədar olaraq da yenə M.Brayzanın Ermənistan mətbuatına açıqlamasında (VII.2009) özünə yer alan izaha dayanılır: "öz iradəsini ifadəetmə anlayışı ilə "referendum" və ya "plebissit" terminləri arasında heç bir fərq yoxdur. Bu isə teferendumla bağlı diskussiya, mübahisə və s. yeni təkan olmuşdur.

Azərbaycan tərəfi belə hesab edir ki, Dağlıq Qarabağın yekun statusu–- "Madrid prinsipləri"nin 4-cü bəndindəki kimi– öz müqəddəratını təyinetmə yolu ilə deyil, yalnız danışıqlarla və özü də azərbaycanlıların DQ-yə, o cümlədən də Şuşaya qayıtmalarından sonra müəyyən edilə bilər. İ.Əliyev son vaxtlardakı çıxışlarında Dağlıq Qarabağın heç vaxt, hətta 100 ildən sonra belə müstəqilliyə çıxmayacağını, yəni bunun gülünc və perspektivsiz ideya olduğunu dəfələrlə vurğulamışdır. Bəzi yanaşma və təhlillərə görə isə, "Madrid sənədi"nin yekun statusa dair ibarəli (üstüörtülü**) referendum təklifi əslində DQ-yə verilən "müstəqillik vədi**"dir.

"Madrid sənədi"nin açıqlanmasından sonrakı dönəmdə, xüsusilə də MDB-nin Kişinyov sammiti və Türkiyə-Ermənistan protokollarının imzalanması öncəsi referendumun detalları ilə bağlı da yeni nüanslar ortaya çıxmışdır. Bəzi ekspertlərin fikrincə, referendum məsələsi danışıqlar prosesinin başlıca əngəllərindən biridir və münaqişənin özündən də mürəkkəbdir. **Azərbaycan üçün referenduma razılıq, bir tərəfdən, Dağlıq Qarabağı "mübahisəli ərazi" kimi qəbul etmək, digər yandansa, artıq DQ-nin müstəqilliyinin tanınması deməkdir**.

Ermənistanda isə referendum, təbii olaraq, tam dəstəklənir. Referenduma erməniləri əvvəlcə (hələlik) "bir millət, iki dövlət" edəcək tarixi imkan kimi yanaşılır. Ancaq referendumla bağlı onların da müəyyən "problem və qayğıları" yox deyil. Keçiriləcəyi hələlik ehtimal olunan referendumda uğur qazanmaq üçün ermənilər neçə illərdir ki, DQ-də öz "saylarını artırmaqla" məşğuldurlar. Bundan ötrü də, bir tərəfdən, rəqəmlər şişirdilir, digər yandansa, xaricdə və Ermənistanda yaşayan ermənilər Dağlıq Qarabağda və işğal edilən ətraf ərazilərdə məskunlaşdırılır (Ermənistan belə bir məskunlaşdırma ilə bağlı da problemlə üzləşmişdir. Ermənilərin işğal olunan rayonlarımızda məskunlaşmaları müşkülə çevrilmişdir. Onların çoxu həmin ərazilərdə qalmaq istəmirlər.

Ermənistan hökuməti bu prosesi (geriyə qayıdışı) əngəlləmək üçün müxtəlif üsul və vasitələrə əl atır. Məsələn, hər bir sakinə min dollarlıq səhm paketinin verilməsi və s."DQR rəhbərliyi" 2009-cu ildə Qarabağa erməni köçünü gücləndirmək məqsədilə xüsusi konsepsiyanın həyata keçirilməsinə başlamışdır. Sözgəlişi, Azərbaycanla həm də "İnformasiya müharibəsi" aparan Ermənistan

KİV-i və bütün təbliğat maşını azərbaycanlı qaçqınların da öz yerlərinə dönməkdə maraqlı olmadıqlarına dair fikirlər yayırlar .

Rəsmi İrəvanın digər bir rahatsızlığı da var. Bu da Dağlıq Qarabağın erməni və hazırda qaçqınlıq həyatı yaşayan azərbaycanlı əhalisinin artım dinamikasındakı göstəricilərin onların xeyrinə olmaması ilə əlaqədardır. Bunu nəzərə alan rəsmi İrəvan DQ azərbaycanlılarının referendumda iştirakına tərəfdar olsa da, belə bir hüququn yalnız münaqişəyədək orada yaşayan soydaşlarımıza verilməsində israr edir. Bu halda "gözlənilən referendum"adək səsvermə hüququna malikolma yaşına çatacaq, ancaq DQ-dən kənarda doğulmuş qarabağlı azərbaycanlılar həmin hüquqdan məhrum edilmiş olurlar. (Münaqişə ərəfəsində, yəni 1989-cu il siyahıyaalmasına əsasən DQ-nin erməni və azərbaycanlı əhalisinin nisbəti 70-30% olaraq götürülmüşdür). Ehtimal edilən referendumun nəticəsinin legitimliyi üçün çoxluq faizinin nə qədər olacağının bilinmədiyi bir şəraitdə xeyli rahatsız olan ermənilər "orijinal" təkliflər irəli sürüblər: statusun müəyyənlşdirilməsi (bunun üçün tələb olunan referendumun keçirilməsi) azərbaycanlılar DQ-yə qayıtmazdan əvvəl reallaşdırılsın; azərbaycanlılar hazırda yaşadıqları yerlərdən səs verməklə də referendumda iştirak edə bilərlər. Bu "üsul" Ermənistana ikiqat sərfəlidir. Ona görə ki, DQ ermənilərinin də nəzərəçarpacaq hissəsi vilayətdən kənarda yaşayır.

**5)** Regionun təhlükəsizliyinə beynəlxalq təminat verilməsi adı altında oraya sülhməramlı qüvvələrin göndərilməsi də "Madrid sənəsi"nin sütun prinsiplərindən sayılır. Diplomatik çevrələrdə yayılan məlumatlar artıq Ermənistanla Azərbaycanın münaqişə bölgəsində beynəlxalq sülhyaradıcı qüvvələrin yerləşdirilməsi ilə razılaşmalarını təsdiqləyir. Bu işdə hələlik uzlaşma olmayan məqamsa həmin qüvvələrin tərkibi ilə bağlıdır. Ortalıqda olan mülahizə və variantlardan birinə görə, sülhməramlı qüvvələrin tərkibinə həmsədr ölkələrin heç birinin hərbi kontingenti daxil edilməyəcəkdir. Bu halda sülhyaratma missiyasının Avropa İttifaqının təhlükəsizlik qüvvələrinin üzərinə düşəcəyi (qoyulacağı) gözlənilir.

Sülh razılaşmasının qarantı olmağa iddia edən Rusiya münaqişə bölgəsinə MDB ölkələri qoşunlarının, xüsusilə də KTMT-nin Çevik Reaksiya Qüvvələri kontingentinin yerləşdirilməsi niyyətini gizlətmir. Bunu isə, bir yandan, münaqişə tərəflərinin (Ermənistanla Azərbaycanın) hər ikisinin razılığının problemli görünməsi və habelə birincinin KTMT-nin üzvü olması bəribaşdan istisna (mümkünsüz) edir. Digər tərəfədən də, Ermənistanın beynəlxalq sülhməramlı qüvvələrin tərkibinə rus qoşun hissələrinin daxil edilməsində israrı Azərbaycanın orada türk əsgərlərinin də özünə yer almaları tələbi ilə üzləşə bilər.

Ekspertlərin bir qismi belə hesab edir ki, DQ-də qonşu dövlətlərin yox, ABŞ-ın və Avropa ölkələrinin sülhməramlılarının yerləşdirilməsinə dair təkliflər təxribat səciyyəlidir və Rusiyanı qıcıqlandırmağa yönəlik (özü də əsla yolverilməz) addımdır. Politoloq V.Quluzadənin qənaətinə görə: Kremlin iştirak etdiyi bütün danışıqlarda təhlükə var və onun əsas planı Azərbaycanı

Ermənistanın gününə salmaqdır; Kreml bir neçə rayonun boşaldılmasının əvəzində DQ-nin Ermənistana verilməsində və regiona Rusiya sülhməramlılarının yerləşdirilməsində imperiya durduqca onların orada qalmasında maraqlıdır; Rusiya ilə oyun oynamaq təhlükəlidir və ona taleyüklü güzəştlərə getmək (təslimçilik) bağışlanılmaz hərəkət olardı.

"Madrid prinsipləri"nin rəsmən elan edilməsi ilə həm də onun ─ həmsədr dövlətlərin başçılarının məlum birgə bəyanatında (10.VII.2009) nəzərdə tutulan─**"yeniləşdirilməsi prosesi - (dönəmi)"**nə başlanıldı. Bu sırada Azərbaycan və Ermənistan prezidentlərinin "baza prinsiplərinin əsas elementləri üzrə indiyəcən ən detallı, dərin məzmunlu və konstruktiv müzakirələrinin aparıldığı" (M.Brayza) Moskva görüşü (17.VII.2009) və sonra D.Medvedyevin də iştirakı ilə keçirilən qeyri-rəsmi danışıqlar diqqət mərkəzində olmuşdur. Bunu E.Məmmədyarovun həmin danışıqlara dair açıqlamalarında özünə yer alan bu fikirdən də görmək olar: "Rusiya prezidenti D.Medvedyev öz təşəbbüsü ilə Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı ən xırda detalları belə müzakirə edir". Müxtəlif siyasi-diplomatik çevrələrdən Rusiya, Azərbaycan, Türkiyə və Ermənistan KİV-lərinə sız(dırıl)an məlumatlara görə isə, həmin detallar "ərazilər=referendum" variantını, bu kontekstdə də "aralıq statusu" və yekun statusdan ötrü keçirilməli olan səsvermə proseduru, sülhməramlı qüvvələrin konkret tərkibi, habelə digər məqamları əhatə etmişdir.

Y.Merzlyakovun "prezidentləri konstruktiv mövqedə və nəticə əldə etməyə meylli" gördüyü Moskva danışıqlarının nəticələri ─ "Madrid prinsipləri"nin yeniləşdirilməsinə dair yanaşma və təkliflər **həmsədrlərin Krakov görüşündə (25-26.VII.2009**) intensiv müzakirə olundu. "Madrid sənədi"nin təzələnməsi səyləri **MDB-nin Kişinyov sammiti** (X.2009) çərçivəsindəki **"ikili" (Əliyev-Sərkisyan) və "üçlü" ("ikilik" + D.Medvedyev) formatlarda** baş tutan rəsmi və qeyri-formal görüşlər, danışıqlar vasitəsilə də davam etdirildi.

**"Madrid prinsipləri"nin yeniləşdirilməsi prosesi Ermənistanda** köhnə-təzə bir çox maddə və şərtləri gündəmə gətirmiş və qarışıq reaksiyalar, **çoxçalarlı rəylər doğurmuşdur.** Bu ölkənin bəzi siyasi-hərbi-diplomatik dairələrində "Madrid prinsipləri"- antiErmənistan, antiQarabağ prinsipləridir", "Koçaryanla Oskanyan buna görə məsuliyyətə cəlb olunmalıdır" kimi fikirlər səsləndirildi.

Yeniləşməkdə olan "Madrid sənədi" ilə əlaqədar **Ermənistandakı köhnə-təzə yanaşmalar (şərtlər) arasında onun 4-cü bəndi**nə aid "qayğı, rahatsızlıq" diqqəti çəkir. Ölkənin başlıca müxalifət qüvvəsi sayılan Erməni Milli Konqresinin təmsilçilərindən keçmiş Xarici İşlər naziri A.Arzumanyan həmin bənddə əks olunan "hüquqi səlahiyyətli iradəni ifadə etmə" anlayışını sübhəli, danışıqların gedişindən asılı olaraq müxtəlif yönlərdə yozula-şərh oluna bilən yanaşma sayır. Erməni diplomatının fikrincə, beynəlxalq hüquqda "referendum" anlayışı var və onun "Madrid sənədi"ndə öz əksini tapmamasıyla, habelə Azərbaycanın yekun statusuna dair ehtimal edilən gələcək səsvermə prinsipi ilə razılaşmaq olmaz. (Az öncə də qeyd edildiyi kimi, M.Brayza "öz

iradəsini ifadə etmə" ilə referendumun arasında fərq olmadığını bildirmişdi). Sabiq baş diplomat həmçinin "Madrid prinsipləri"nin DQ ətrafındakı regionlardan çıxarılan erməni qoşunlarını kimin əvəzləyəcəyi, Azərbaycana həmin ərazilərə silahlı qüvvə yerləşdirmək hüququnun verilib-verilməyəcəyi və digər məsələlərə konkret aydınlıq gətirmədiyini də bildirirdi.

Ermənilərin maraqlarını təmin edən "Madrid prinsipləri"nə Ermənistandakı etirazlara (onları diplomatik gediş, məqsədyönlü hərəkətlər sayan yanaşmalar da vardır) Dağlıq Qarabağ separatçıları da qoşulmuşlar. "DQR" Ermənistanı indiyədək "rəsmi Xankəndi"ni sülh danışıqları prosesinin üçüncü tərəfi etməyə müvəffəq olmamaqda "günahlandırır". Separatçılar Ermənistandan ətraf rayonların boşaldılması və referendum barədə uzunsürən müzakirələr aparmaqdansa, Dağlıq Qarabağın da danışıqların (münaqişənin) tərəfi kimi tanınması şərtini qoymasını istəyirlər. DQ-nin danışıqlarda tərəf kimi tanınmayacağı şəraitdə əldə olunacaq hər hansı bir razılaşmanı qəbul etməyəcəkləri ilə hədələyən qarabağlı ermənilər "rəsmi Xankəndi"nin AR-lə birbaşa müzakirələrində israrlıdırlar.

Onların bu israrı, bir sıra digər amillərlə yanaşı, habelə həmsədrlərin "sözdəki dəstəyi-açıqlamaları"ndan qaynaqlanır. Vaxtılə V.Kazimirov, son zamanlarsa Y.Merzlyakov, artıq sabiq həmsədr olan M.Brayza vaxtaşırı Azərbaycan tərəfini bu məsələdə də güzəştə getməyə "dəvət ediblər". M.Brayzanın qənaətinə görə, "Dağlıq Qarabağ hakimiyyətinin (?!-İ.M.) danışıqlarda birbaşa iştirakına ehtiyac vardır". Amerikalı diplomat "DQ erməniləri nümayəndələrinin bir neçə il əvvəl danışıqlar masası arxasında oturduqlarını" bildirmişdi. Həm də əlavə etmişdi ki, rəsmi İrəvanın danışıqlarda onları da təmsil etməsinə dair öz qərarı üzündən müzakirələrə qatılmayan qarabağlı erməni nümayəndələrinin yenidən danışıqlar masası arxasına dönmələri üçün qarşılıqlı razılıq olmalıdır. **"Uğursuz həmsədr**" kimi də səciyyələndirilən M.Brayza onların gec-tez danışıqlarda birbaşa iştirak edəcəklərinə ümidli olduğunu da söyləmişdi.

**"Madrid prinsipləri"nin yeniləşdirilməsinə** dair yayılan məlumatlar rəsmi İrəvanı və "DQR"-i Azərbaycanın "erməni xalqı Ermənistanın timsalında artıq öz müqəddəratını təyin edib" təki əksdəlilinə qarşı da fəallaşdırdı. Ermənilər Türkiyə Cümhuriyyəti ilə Şimali Kipr Türk Respublikasının mövcudluğu (ikincisi beynəlxalq birlik tərəfindən— Ankara çıxılmaqla rəsmən tanınmasa da), albanların iki (Albaniya və Kosovo), ərəblərinsə xeyli müstəqil dövlətlərinin olduğu bir şəraitdə onlara belə bir hüququn (imkanın) verilməməsini dövlətlərarası hüquqda nonsens sayırlar. Erməni tərəfinin bu kimi dəyərləndirmə-izahı onun "**Madrid prinsipləri"nin Dağlıq Qarabağın müstəqilləşməsinə və ya Ermənistana birləşməsinə "yaşıl işıq"** yandıracağına ümidli olduğunu təsdiqləyir.

"Madrid sənədi"nin üzərində "təkmilləşdirmə" işlərinin getdiyi bir şəraitdə Azərbaycanda onun qəbulunu Dağlıq Qarabağla ətrafındakı iki rayonun (Kəlbəcərlə Laçının) itirilməsi kimi dəyərləndirən yanaşma və mövqelər üstünlük təşkil etməkdədir (Digər yandan, həmin sənədin qəbulunun Ermənistan-Azərbaycan

münaqişəsinin ədalətli həllini təmin edəcəyini düşünənlər də yox deyil). Vəziyyətdən çıxış yolu olaraq müxtəlif təkliflər irəli sürülür. Bəzi siyasi-elmi çevrələr Qərbi azərbaycanlıların Ermənistanda (Zəngəzur və Göyçə mahallarını əhatə edən ərazilərdə) assimmetrik dövlət yaratmaları (muxtariyyət qazanmaları) məsələsinin danışıqların mövzusu edilməsinə çalışılmasını məsləhət bilirlər.

Bəzi siyasilərin və ekspert-analitiklərin qənaətinə görə, danışıqlar prosesindəki durumu Azərbaycanın xeyrinə dəyişmək, başqa sözlə, müzakirələri yeni şərtlərlə davam etdirmək üçün "diplomatik masa" arxasındakı Ermənistandan ötrü çəkindirici ola biləcək amil işə salınmalıdır. Yəni AR **"savaşmamaq öhdəliyi**"ndən imtina – müharibə haqqını önə verməlidir (Əkshal BMT-nin DQ-yə dair məlum qətnamələrinin avtomatik sıfırlanması, işğalın rəsmiləşdirilməsi, Dağlıq Qarabağın itirilməsi və bütün bunlar razılaşma kimi səciyyələndirilir). Öz növbəsində, bunu olduqca riskli sayan yanaşmaların müəllifləri ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini T.Kaydenaunun regiona səfərini və Bakıda AR rəhbərliyi ilə danışıqlarını (X.2009) həm də Azərbaycanın "müharibəyə gizli hazırlıqları"nı əngəlləməyə yönəlik diplomatik xəbərdarlıq (təzyiq) tədbiri təki nəzərdən keçirirlər (AR-in ehtimal edilən "müharibə hazırlıqları" beynəlxalq siyasətdə təklənməkdə olan Azərbaycanın vəziyyətdən çıxış yolu, yəni durumu dəyişdirmək üçün əl atdığı vasitə kimi də dəyərləndirilir).

**"Madrid prinsipləri"nin yeniləşdirilməsi prosesi ilə əlaqədar yaranan durumun başlıca cizgilərini isə** bunlar təşkil edir:

- prinsiplərə dair fundamental konsepsiya öz əksini həmsədr dövlətlərin prezidentlərinin məlum bəyanatında (Akvila, VII.2009) tapıbdır;
- həmsədrlərin Krakov görüşündə (VII.2009) prinsiplərə yalnız texniki düzəlişlər edilib və müəyyən detallar əlavə olunubdur;
- yekun statusu məsələsi danışıqların dalana dirənməsinin başlıca səbəbidir. Bu kontekstdə də hələ ki, həllini tapmayan problem – hələlik razılaşdırılmayan məqam isə DQ-də referendumun keçirilmə vaxtının müəyyənləşdirilməməsindən ibarətdir;
- "Madrid sənədi"nin yeniləşdirilmiş variantının artıq hazır olduğunun bildirilməsinə baxmayaraq müvafiq müzakirələr 2009-cu il oktyabrın axırlarında Lüksemburqda Azərbaycan və Ermənistan Xarici İşlər nazirlərinin danışıqlarında və həmsədrlərin məsləhətləşmələrində də aparılmışdır. Həmsədrlər ATƏT-in münaqişələrin qarşısının alınması Mərkəzinin Vyanada keçirdiyi (X.2009) konfransda da iştirak etmişlər;
- həmsədrlər Azərbaycanla Ermənistana növbəti səfərdə (XII.2009) oldular və ATƏT XİNŞ-in toplantısı çərçivəsində (Afina, XII.2009) Dağlıq Qarabağ münaqişəsinin müzakirəsini apardılar;

Bütövlükdə isə, öncə Azərbaycan və Ermənistan prezidentlərinin "Madrid sənədi"nin yeniləşmiş variantını─"baza prinsipləri"ni razılaşdırmalarına müvəffəq olunmasına və sonra da detallar üzrə danışıqların aparılmasınaçalışılır.

**İlqar Niftəliyev**

## «Армянская область» (1828-1840) : история несостоявшегося проекта

Активный процесс завоевания северных земель Азербайджана Российской империей, который завершился оккупацией Нахчыванского и Иреванского ханств, потребовал от российских властей создания новой системы управления на захваченных территориях. После подписания 10 февраля 1828 года русско-иранского Туркменчайского договора встал вопрос о переселении армянского населения из Каджарского Ирана в пределы захваченных Нахчыванского и Иреванского ханств. Необходимость решения данного вопроса проистекала из содержания 15 статьи договора, который предполагал массовое переселение на добровольных началах населения из Каджарского Ирана. Очень интересно, что вопрос о переселении армян возник именно после захвата Иреванского ханства. Видимо решающую роль в этом сыграло нахождение на территории ханства престола армянского католикоса. Именно Эчмиадзин, стал идейным вдохновителем массового переселения армян на вновь завоеванные территории Российской империи. Ранее, когда армянский католикос находился в подчинение Каджарского шаха и его сюзерена Иреванского хана, он просто не осмелился бы открыто выступить с подобными инициативами.

Накануне подписания Туркменчайского договора некоторые армянские деятели попытались воспользоваться создавшейся благоприятной ситуацией и предложили Петербургу очередной проект о создании армянского царства под покровительством России. Автором его стал Христофор Лазарев, камергер при генерал-адъютанте, начальнике политической полиции Российской империи А.Бенкендорфе. 25 декабря 1827 г. Х. Лазаревым был подан «особый» проект под названием «Некоторые предположения о Грузии и сопредельных ей областях». Лейтмотивом его являлась мысль о «возрождении армянского царства» в составе Российской империи. Хотя проект не был принят, однако армянские политики продолжали искать пути к сердцу русского царя. После подписания Туркменчайского договора, который закрепил присоединение к Российской империи Нахчыванского и Иреванского ханств, последовала новая записка Х.Лазарева царю Николаю I, которая уже более детально поясняла русскому самодержцу истинные желания армян. Записка датировалась концом февраля – началом марта 1828 года. В ней Лазарев предлагал царю Николаю I принять титул царя Армении «дабы возбудить армянский народ к большему водворению в Россию, особенно в новопокоренные области». В записке Лазарев попытался также очертить границы будущего армянского царства. И здесь у Лазарева вовсю

разыгралась фантазия и его понесло: «Многие области, как то: древнее Нахичеванское, Эриванское, Шакинское и Шемахинское с первопрестольным монастырем Эчмиадзинским составляют общее средоточие и главную основу древнего бывшего царства Армении». Лазарев обещал царю, в короткие сроки решить и проблему освоения этих территорий : «Общеполезная сия мера окажет в настоящие и грядущие времена большие плоды, как из ближайших, так и из отдаленных стран, Персии, Турции, даже из самой Индии будут стекаться многие тысячи армянского народа с семействами и с достоянием своими под Всемогущий покров благотворной эгиды Царя Армении». Не забыл Лазарев и об армянской церкви : «Как скоро Высочайшее соизволение на сие последует, тогда Верховный патриарх по азиатскому обыкновению повергнет к стопам Государя Императора Патриархальную Грамоту».

Записки Х.Лазарева, наряду с обращениями Эчмиадзинского католикоса, сыграли для правящих кругов Российской державы роль идейного обоснования создания «Армянской области» [51]. Так, в хвалебной записке «Краткие сведения о сношениях иерархов армянской церкви. О действиях гг. Лазаревых» прямо указывается: «Сама Армянская область была наименована по их проекту и мысли, изложенной Х. Е. Лазаревым в докладной записке, которая через ген. ад. А. Х. Бенкендорфа представлена была в 1828 г. государю императору Николаю и высочайше утверждено было тогда название Армянской области...» [52]. 21 марта 1828 года последовал специальный указ царя Николая I сенату об образовании «Армянской области»[53]. В официальном титуле, утвержденном 25 марта, царь стал именоваться «государем Армянской области»[54]. На основании этого указа было создано управление «Армянской области». Возглавлял управление начальник. На эту должность был назначен генерал-майор, князь А. Г. Чавчавадзе (тесть А.Грибоедова), который сменил генерала А.Красовского и подчинялся главному управляющему Грузией генералу И.Паскевичу. 13 февраля 1830 года на должность начальника управления областью был назначен тифлисский армянин В.О. Бебутов, который оставался на этой должности до 1838 года. Областное управление состояло из трех советников (из русских чиновников), один из которых возглавлял исполнительную часть, второй – финансовую и хозяйственную, а третий ведал гражданскими и уголовно-судебными делами. При областном управлении была введена должность прокурора, функции

---

[51] Материалы к новой истории Восточной Армении// Вестник общественных наук, № 8 (524). Ереван. АН АрмССР, 1986, с.82-83

[52] Там же, с.89

[53] Акты Кавказской Археографической Комиссии. Т.VII. Тифлис: 1878, с.487.

[54] Полное Собрание Законов Российской Империи : Собрание второе. Т. 3 : 1828. Санкт-Петербург: 1830, с.273, 331

которого соответствовали выполняемым функциям в центральных губерниях. При временном областном правлении был создан, в числе других учреждений, комитет по переселению христиан. Председателем комитета был майор Володимеров, а позже — М. З. Аргутинский-Долгоруков. «Армянская область» территориально делилась на Иреванскую и Нахчыванскую провинции и Ордубадский округ. Провинции в свою очередь делились на магалы, а магалы – на села. Для управления городами Иреван, Нахчыван и Ордубад были организованы полицейские управления. Однако примечательно, что в Нахчыване и Ордубаде власть была сохранена за бывшими мусульманскими правителями – наибами. Для помощи в организации дела им были назначены русские офицеры, владеющие тюркским языком. Управление магалами и селами также было оставлено за бывшими местными чиновниками. С целью восстановления судебной системы в Иреване и Нахчыване были основаны городские суды, которые возглавляли руководители органов местной власти.

Таким образом, попытки быстрого внедрения российских порядков и законов в «Армянской области» не были эффективны. С одной стороны, это было связано с недостаточным количеством русских чиновников, которые могли бы разъяснить эти положения не знакомым с русскими законами, формами управления и русским языком местным мусульманским чиновникам. С другой стороны, сохранившие за собой власть бывшие мусульманские наибы и чиновники, в своей деятельности руководствовались старыми законами и обычаями и не торопились внедрять новые положения. Кроме того, российские власти вынуждены были считаться с обычаями, традициями коренного тюрко-мусульманского населения.

Высочайше утвержденным мнением Государственного Совета «Об устройстве управления Армянской областью» от 23 июня 1833 года были внесены новые изменения в систему управления и территориально-административное устройство «Армянской области». По 4 пункту этого закона Иреванская провинция была разделена на четыре округа – Иреванский, Шарурский, Сардарабадский и Сурмалинский. Начальниками округов были назначены русские чиновники, которые напрямую подчинялись начальнику области, а также должны были выполнять распоряжения управления по сбору доходов и повинностей. Во главе Нахчывана и Ордубада осталось прежнее руководство – бывшие наибы. Административный аппарат в магалах и деревнях также оставался без изменений[55]. Принятие этого закона в некоторой степени упорядочило систему управления «Армянской областью» и стало одним из первых

[55] Полное Собрание Законов Российской Империи : Собрание второе. : Т. 8 : 1833. Санк-Петербург: 1834, с.374-375

серьезных шагов по упрочению и русификации административного аппарата региона.

Начиная с 1830 года, рассматривались различные проекты по административно-судебному устройству края, суть которых выражалась в приведение его в соответствие с общеимперским положением. В ходе обсуждения этих проектов выдвигались даже предложения по расширению границ «Армянской области», путем передачи в его состав Карабахской провинции[56]. Работа по решению этого вопроса завершилась указом царя Николая I от 10 апреля 1840 года, по которому «Армянская область» как самостоятельная административная единица упразднялась. Вся ее территория, включавшая в себя Иреванский и Нахчыванский уезды, Ордубадский округ и вновь созданный Александропольский уезд, были включены в Грузино-Имеретинскую губернию с центром в Тифлисе[57].

İngilis komandanlığı danışıqların əvvəlində Azərbaycan hökuməti ilə hesablaşmadı. General Tomsona Azərbaycan Xalq Cümhuriyyəti hüquqlarına daxil olmazdan əvvəl onun müstəqilliyini tanımaq təklif olunanda, o, “Azərbaycan Cümhuriyyəti adı altında bizə yalnız xalq kütlələri içərisində heç bir dayağı olmayan türklərin fitnə-fəsadla ilə yaradılmış hökumət məlumdur” (18, s. 45)... – deyə diplomatrik bəhanə və təklifi qəbul etməkdən qəti surətdə yayındı. Danışıqların sonunda Tomson bəyanat verərək elan etdi ki, noyabrın 17-nə səhər saat 10-dək Bakı həm Türkiyə, həm də Asərbaycan qoşunlarından təmizlənməlidir. Bakı və onun neft mədənləri ingilislərin nəzarətinə keçməsi, ölkənin qalan hissəsinin Azərbaycan hökuməti və ordusunun nəzarətində qalması nəzərdə tutulur, eyni zamanda deyilirdi ki, Azərbaycan rəsmi surətdə tanınır, lakin İngiltərə, Fransa və ABŞ nümayəndələri Azərbaycan hökuməti ilə defakto əlaqə yaradacaqlar. V.M.Tomson Bakının general qubernatoru olacaq, şəhər polisinə ingilis zabiti rəhbərlik edəcək (20, v.1). Bakıya gələn ingilislər əvvəl Bakı Realnı məktəblərinin binasında, sonradan isə “Metropol” mehmanxanasında yerləşdirildilər ( 21, s. 57).

Azərbaycan parlamentinin əsas özəyini keçmiş Milli Şuranın 44 üzvü təşkil edirdi. Daha 36 müsəlman deputat isə keçmiş milli komitələrin xətti ilə şəhər və qəzalardan seçilmişdi. Şəhər özünüidarəsi və milli komitələri olmayan qəzalarda deputatlar kənd icmaların nümayəndələrinin qurultayı tərəfindən seçilə bilərdilər.

Nəzərdə tutulan 120 deputatdan 80 nəfəri türk-müsəlman nümayəndəsi, 40 nəfəri isə digər azlıqda olan xalqların nümayəndələri olmuşlar. Bakı şəhəri və qəzasından – 5 nəfər, Quba qəzasından- 2 nəfər, Lənkəran qəzasından 2 nəfər, Səlyan qəzasından 2 nəfər, Şamaxı qəzasından 2 nəfər və sairə qəzalardan seçilmişlər (1, s.346).

Azərbaycan Xalq Cümhuriyyəti mövcud olduğu üç ay müddətində ərazi bütövlüyünü qorumaqla bərabər cəmiyyətin demokratik dəyişiklikləri, iqtisadi və mədəni yüksəlişinə də ciddi fikir vermişdir. “İttihad” partiyasının Q.Qarabəyov tərəfindən təqdim edilmiş bəyannaməsində hakimiyyətin millətə məxsus olması AXC-nin azadlıq uğrunda apardığı mübarizənin əsas məqsədi sayılırdı” (22, s.68-73).

“Əhrar” partiyasının bəyannaməsi dekabrın 26-da keçirilmiş parlament iclasında Abdulla bəy Əfəndiyev tərəfindən açıqlandı. Aqrar islhatlarla bağlı “Əhrar” iri mülkədar torpaqlarının kəndlilərə bölünərək paylanması düzgün sayıldı (29, s.131-137).

Azərbaycan parlamentində görkəmli mövqedən ən nüfuzlu qüvvə “Müsavat” partiyası idi. Bu partiya koolisiya prinsipinin dövlətin maraqlarına uyğun hesab edərək öz fəaliyyətində bütün siyasi təşkilatlar və əməkdaşlığa meyl göstərirdi (23, s.14). Torpaq məsələsi yenə həllini gözləyən başlıca məsələlər sırasında qalırdı.

Araşdırılan dövrdə sosial-siyasi vəziyyətin yaxşılaşdırılması üçün əsas tədbirlərdən biri də Azərbaycan ordusunun qurulması və daha da gücləndirilməsi olmuşdur. Osmanlı-Türk ordusu Azərbaycanda olarkən 1918-ci il oktyabrın 23-də respublika hökumətinin Hərbi Nazirliyi yaradılması qərara alındı (24, s.28). Əski Rusiya imperiyasında Tam Ordu generalı rütbəsinə yüksəlmiş (əslən Qarabağın Şuşa qəzasının, sonradan Ağdam qəzasının, hazırda Ağcabədi rayonunun Hindarx və Hüsülü kəndlərinin Kəbirli bəylərindən olan) Səməd bəy Mehmandarov milli ordunun yenidən qurulması başa çatmamış, parakəndə halda olan hissələri möhkəmləndirmək, onları vahid rəhbərlik altına gətirmək üçün ilk növbədə mərkəzi hərbi idarəetmə orqanlarını təşkil etməkdən başladı.

Nazilər Şurasının 1918-ci il 25 dekabr tarixli qərarı ilə artireriya generalı Səməd bəy Mehmandarov hərbi nazir təyin olundu (1, s.395-396). 1919-cu il yanvarın 10-da Hərbi Nazirlikdə Müvəqqəti Hərbi Şura yaradıldı (1. s.399). Həmin il yanvarın 15-də isə Azərbaycan Cümhuriyyətinin Silahlı Qüvvələrin Baş Qərargahı təşkil olundu (1, s.558). Bu təşkilatı işlərin həyata keçirilməsi nəticəsində Hərbi Nazirlik Azərbaycan Ordusunun şəxsi heyətinin sayını 20 min nəfərə, ordudakı atların sayını isə beş min başa

çatdırmağı, 1920-ci ildə isə ordu heyətini 40 min nəfərə, atların sayını isə on min başa çatdırılması nəzərdə tutulurdu (1, s. 401).

Müsavatçılar 1918-ci ilin əvvəlindən Lənkəran bölgəsində silahlı dəstələri tərksilah edib hakimiyyət idarələrini nəzarət altına aldıqlarına baxmayaraq, 1918-ci ilin aprel ayında bölgəyə gələn "Aleksandr Jander" gəmisində gələn sovet qoşunları hakimiyyəti ələ keçirdi (25, s.18.).

Lənkəran və Cavad bölgələrində məskunlaşdırılmış rus əhalisi tərəfindən müdafiə olunan Rusiya ordusunun millətçi zabitləri fəallaşmağa başladılar. Denikin qoşunu ilə sıx əlaqəsi olan bu qüvvələrə polkovnik İlyaseviç rəhbərlik edirdi. O, İran sərhəd xəttini qorumaq üçün Muğanın cənubunda yerləşdirilmiş 29-cu rus sərhəd briqadasının komandiri idi ( 26, s.28). 1918-ci ilin avqust ayında öz qərargahı ilə Cavad qəzasının Biləsuvar kəndindən Lənkaran qəzasının Prişib kəndinə köçən İlyaseviçin briqadasında altı min nəfər silahlı var idi. Bu hərbi qüvvənin təzyiqi ilə avqust ayının 4-5-də Prişib kəndində fövqəladə qurultay cağrıldı. Qurultayda Lənkəran və Cavad qəzalarında hakimiyyət məsələsi müzakirə olundu.

Qəzaları idarə etmək üçün beş nəfərdən ibarət "Müvəqqəti diktatura" yaradıldı (27, s.52). Şovinist millətçi rus zabitləri AXC-nin cənub bölgəsində hakimiyyəti ələ keçirdilər. Onlar tabeliklərində olan silahlı qüvvələrə, bölgəki rus qolçomaqlarına, Bakıdakı Rus Milli Şurasına və Denikinin yardımlarına arxalanaraq, "Müvəqqəti Diktatura" əhalini qarət etmək , çapıb-talamaq, öz mənafeylərinə uyğun olan yeni bir rejim yaratdılar. 1919-cu ilin fevralında rus-zabitlərinin nəzarəti altında olan ərazilır "Lənkəran Respubliksaı" elan olundu və Suxorukovun rəhbərliyi ilə "demokratik" hökumətin təşkil olunduğu bildirildi (27, s.59).

1919-cu il martın 21-də müstəqil AXC-ni parçalamaq iddiasında olan qüvvələrin Prişibdə qurultayı çağrıldı. Qurultayda qərara alındı ki, Paris sülh konfransı qurultayınadək, Lənkəran qəzası Azərbaycan hökumətinə verilməsin və "Muğan vilayəti" adı altında yaradılan müstəqil quruma tabe etdirilsin (27, s.59-60).

1919-cu il mayın 15-dən "Muğan Kəndli Deputatları Sovetinin fövqəladə qurultayı" çağrıldı. Bu qurultayda iştirak edən deputatların yarısı qeyri-azərbaycanlı idi (26, s.38). 1919-cu il aprelin 25-də kommunistlər palkovnik İlyaseviç və onun tərəfdarlarını həbs edərək Lənkəran bölgəsində nəzarəti ələ keçirmişdilər (1, s.404). Cənubi Qafqazda Sovet hakimiyyətinin yeganə dayaq nöqtəsi olan Lənkəran bölgəsində üsyanın baş tutması xəbərini alan kommuistlər buraya pul, silah yardımı gücləndirdilər. 1919-cu ilin aprel ayının axırıncı günləri kommunistlər Bakıdan gizli olaraq "Vstreçni" gəmisi ilə Lənkərana xeyli miqdarda silah və sursat, doqquz milyon rubl və çoxlu siyasi ədəbiyyat göndərdilər (28, s.226).

İ.V.Leninin tapşırığı ilə Həştərxandan Lənkərandakı antiazərbaycan qovvələrə kömək göstərmək üşün kommunist T.İ.Ulyantsev (Otradnev) Lənkərana göndərildi. O, da gəlib Lənkəranda İnqilabi Şura təşkil etdi (29,

s.191). 1919-cu il may ayının sonunda cənubda elan olunmuş Sovet hakimiyyətinin sərəncamında bir piyada taboru, üç hidroplan var idi. Muğanda bolşevik silahlı qüvvələrin sayı 6-7- min nəfərə çatırdı (29, s.192). "Muğan Sovet Respublikası" nın ömrü uzun sürmədi. Ağqvardiyaçı rus zabitlərinin rəhbərliyi altında qüvvələr iyun ayının 24-25-də Lənkəranda hakimiyyəti ələ aldılar. İyulun 26-da isə Prişibdəki qurultayında bölgədə öz hakimiyyətlərini bərpa etdiklərini elan etdilər (30).

1919-cu ilin avqustunda Qarabağda vəziyyət nisbətən sakit keçdi. AXC-nin Hərbi Nazirliyin rəhbərliyi Lənkəran bölgəsinə qoşun çıxarmağı qərara aldı. Bu barədə AXC hökuməti 1919-cu il iyul ayının əvvəlində göstəriş vermişdi (1, s.404). Azərbaycana əks olan qüvvələri sıxışdırıb bölgədən çıxarmaq və burada AXC-nin hakimiyyətini yaratmaq üçün Lənkəran dəstəsi yaradıldı. 1919-cu ilin avqust ayının əvvəlində Lənkəran dəstəsi formalaşdırılmış, hərəkəti üçün hazırlıq işləri görülmüşdü. Dəstənin komandanlığı general-mayor Həbib bəy Səlimova həvalə olundu. Həbib bəyə göstəriş verildi ki, tabeliyində olan hissələrlə Hacıqabul, Salyan, Pokrovisk, Prişib və Lənkəran marşrutu ilə Lənkəran qəzasına doğru irəliləyərək oralarda qayda- qanunu bərpa etməlidir (1, s.405).

Hacıqabulda toplaşan Lənkəran dəstəsi avqustun 13-də Lənkərana doğru hərəkata keçdi. AXC-nin gənc ordusu yayın güclü istisində məsafəni on beş günə qət etmişdir (1, s.405). Heç bir qan tökülmədən Lənkəran qəzası və Muğan bölgəsi AXC-nin tərkibinə qatılmışdır. Lənkəranda piyada taboru təşkil olundu. Kapitan S.Rəfibəyov komandir təyin edirdi. Onlar ağqvardiyaçı qüvvələrdən və rus əhlisindən müsadirə olunmuş yüngül silahlarla təmin olundular.

AXC- hökuməni xarici siyasət sahəsində uğurlar qazanmışdır. Avropanın və Asiyanın bir çox ölkələrində Azərbaycan Cümhuriyyətinin diplomatik nümayəndələri təsis olunmuşdur. 1920-ci ilin aprelində Bakıda 20-dən çox ölkənin diplomatik missiyaları fəaliyyət göstərməyə başladı (1, s.446).

Yanvar ayının 13-də Amerika Birləşmiş Ştatlarının Parisdəki səfiri Valles İngiltərə və Fransanın Azərbaycan və Gürcüstan dövlətlərinin müstəqilliklərini de-fakto tanımaları və onlara yardım göstərməyə hazırlaşmaları barədə Vaşinqtona məlumat verdi. Yanvarın 15-də Azərbaycan və Gürcüstan nümayəndələri Fransa Xarici İşlər Nazirliyinə dəvət olundular. Azərbaycan nümayəndələri Ə.M.Topçubaşov və M.Məhərrəmov, Gürcüstan nümayəndələri İ.Sereteli və Z.Avalov Fransa Nazirliyinin birinci katibi Jül Kambon, İngiltərə nümayəndəsi Filipp Kerr və İtaliya nümayəndəsi markiz de la Torreta tərəfindən qəbul olundular (31, s.241). Jül Kambvon Azərbaycanın Ali Şura üzvüləri və müttəfiq dövlətlər tərəfindən de-fakto tanıması haqqında Paris sülh konfransının rəsmi qərarını Ə.M.Topçubaşova təqdim etdi (1, s.441).

Hələ aprel ayının ortalarında XI ordunun birləşmələri və hissələrinin Azərbaycan sərhəddində cəmləşməsi başlandı. Gələcək əməliyyatlarda iştirak

etmək üçün 20-ci, 28-ci və 32-ci atıcı diviziyaları ( 20 minə yaxın süngü), sonralar 2-ci süvari korpusuna birləşdirilən 7-ci və 8-ci süvari diviziyaları və Taman süvari briqadası (cəmi 7 min qılıncla) ayrılmışdı. Dərbənddə yerləşən beş zirehli qatar, həmçinin bir neçə aviasiya dəstəsi də XI ordunun sərəncamında idi (32, s.148).

Sovet Rusiyasının XI ordusunun 72 minlik hərbi hissələri 1920-ci ilin aprel ayının 26-da Azərbaycan Xalq Cümhuriyyətinin sərhədlərini keçərək sürətlə Bakıya doğru irəliləməyə başladı (33, s.7). Şimal sərhəddindən Bakıya qədər Azərbaycan Ordusunun çox az qüvvələri-cəmisi üç min nəfərlik nizami qoşun dəstələri və ehtiyat batalyinu (onlara verilmiş zirehli qatarlarla birlikdə cəmi beş min süngü və qılınc) yerləşdirilmişdi (34, s.112).

1920-ci iln aprel ayının 27-də AXC XI ordunun süngülərinə arxalanan bolşeviklər tərəfindən devrildi. Aprel ayının 28-də Azərbaycan K(b)P MK yeni yaradılmış Azərbaycan İnqilab Komitəsini respublikanın yeni ali siyasi hakimiyyət orqanı elan etdi. Azərbaycan İnqilab Komitəsi xalqa olan ilk müraciətində elan etmişdir ki, XI orduya qarşı silahlı müqavimət göstərəcəyi taqdirdə terrora əl atacaqdır (35, s.11-13). Aprel ayının 27 –si gecə saat 12.55-də III "Beynəlmiləl" zirehli qatarı Samur çayı körpüsündən keçəcək iki saatlıq qanlı döyüş nəticəsidə Yalama stansiyasını ələ keçirdi. Xudat və Xaçmaz dəmir yol stansiyalarında Azərbaycan Milli Ordusu XI ordunun zirehli qatarlarının Bakıya doğru irəliləməsini dayandırmağa çalışdılar. Aprelin 27-də Quba-Xaçmaz bölgəsini ələ keçirən XI ordunun yeddinci süvari diviziyası (1, s.522), aprel ayının 30-da Şamaxıya daxil oldular, Səlyanı ələ keçirdilər (36, s.24-25).

Mayın 1-də Volqa-Xəzər Hərbi Donanmasının gəmiləri Bakı limanına daxil oldu. May ayının 3-Lənkarana, 4-də Astaraya hərbi dəniz desantı çıxarıldı (37, s.197).

İşğaldan sonra Azərbaycan xalqının olduqca ağır günləri başladı. AXC-nin rəhbər işçilərinə qarşı terror və cəza tədbirləri gücləndi. Azərbaycan Milli Ordusunun Qarabağ və Gəncədə XI Ordusunun işğalına qarşı başlanmış üsyanı amansızlıqla yatırıldı. Azərbaycan Milli Ordusunun 12 generalı, 27 polkovniki və podpolkovniki, 46 kapitanı və ştabs kapitanı, poruçik, podporuçik, 146 praprosik, 266 nəfər başqa hərbi işçiləri qülləl追nmişlər. 1920-ci il aprel ayının 28-dən 1921-ci ilin avqustuna kimi Azərbaycanda 48 min insan qırmızı terrorun qurbanı olmuşlar (38, s.188).

Azərbaycanın türk müsəlman əhalisi Şura hökumətinin bu anti Azərbaycan siyasətindən qəzəblənərək üsyan edəcəkləri ilə bolşevikləri hədələyirdilər. M.Ə.Rəslzadə Azərbaycanın 1920-ciil işğalı dövrünü dəqiq anlayaraq yazmışdır ki, "İstiladan bir ay sonra artıq bütün Azərbaycan məmləkətinin müdhiş bir istilaya məruz qaldığını acı bir surətdə dərk etmişdir...Xalq təkamül etmədi. Üsyan etdi" (19, s.69-70).

XI ordunun terrora arxalanan qarətçi işğalı nəticəsində hiddətlənmiş Azərbaycan xalqının üsyanı nəticəsində Tərtərdə XI Ordunu bir alayı məhv

olundu. Ağdamda yenə olduqca böyük itki verdilər. Bolşeviklərə qarşı Qarabağdan sonra Şəki, Zaqatala, Quba, Lənkəranda güclü xalq üsyanları oldu. Bu üsyanları XI ordunun hərbi hissələri dəfələrlə çətinliklə yatırdılar. Lənkəran bölgəsində baş vermiş üsyan aylarla davam edir və XI ordunun hücumlarına məruz qalırdı (13, s.107). Nəticədə Azərbaycan Xalq Cümhuriyyətinin müstəqillik illərində əldə etdiyi nailiyyətlər vəhşi bolşevik ordusu tərəfindən məhv edilirdi.

## Ədəbiyyat


1. Azərbaycan tarixi. Yeddi cilddə. Y cild (1900-1920-ci illər) Bakı, Elm - 2001-672 səh.
2. Жвания Г. Великий Октябрь и победа Советской власти в Грузии. Тбилиси, 1987. Саблота Сокартвело, 319 стр.
3. ARPİİSSA, f.276, siy.7, iş 212, v.1.
4. ARPİİSSA, f.276, siy.2, iş 20, v.44.
5. ARPİİSSA, f.276, siy.2, iş 22, v.74.
6. Azərbaycan Demokratik Respublikası (tarix, ictimai-siyasi və mədəni həyat). Bakı, 1998. Azərnəşr, 191 səh.
7. Шаумьян С.Г. Избранные произведения, в 2-х томах. Изd. 2., Ваку, Политиздат, 1978. 463 стр.
8. Fövqəladə Təhqiqat Komissiyasının sədri Ələkbər bəy Xasməmmədovun Ədliyyə nazirinə məruzəsi. "Xalq qəzeti", 16 mart 2001-ci il.
9. İbrahimov Z.İ. Sosialist inqilabi uğrunda Azərbaycan zəhmətkeşlərinin mübarizəsi. Bakı, 1957. Azərnəşr, 585 səh.
10. ARDA. f.106, siy.1, iş.108, v.7.
11. ARDA, f. 1016, siy.1, iş.95, v.5-8.
12. Rəsulzadə M.Ə. "Azərbaycan Cümhuriyyəti". Bakı, "Elm" nəşriyyatı, 2015.- 152 s.
13. Qarabağ Azadlıq Təşkilatı. "Qarabağ dünən, bu gün və sabah" 10-cu elmi əməli konfransın materialları toplusu.-Bakı, 2011.- 264 s.
14. ARDA, f. 894, siy. 2, iş 88. v.1.
15. Лудшувейт Е.Ф. Турция в годы первой мировой войны. М., 1966. Изд. Московского Ун.-та. 386 стр.
16. "Xalq qəzeti", 10-11 dekabr 2003-cü il.
17. Rəcəbli Q.Ə. Azərbaycan tarixi, "Elm və təhsil", 2013.- 544 s.
18. ARDA, 1970, siy. 1, iş 65, v. 76.
19. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı, 1990. "Elm", 112 səh.
20. ARPİİSSA, f.277, siy.2, iş 18, v.1.
21. Томсон Г. Вакинская восполнения 1914-1921 года. Ваку: "QHT nəşriyyatı". 2011. 102 s.

22. Azərbaycan Xalq Cümhuriyyəti... Parlament, 1 cild. Bakı, Azərnəşr, 1998, 976 səh.
23. Азербайджанская Демократическая Республика…(1918-1920 гг.) Парламент. стенографический отчет. Баку, Азербайджан, 1998, 991 стр.
24. Azərbaycan SSR EA-nın Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriysı, №1, 1991-ci il.
25. Гусейнов А.А., Синицын В.М. Сражающийся Мугань. Ваку. 1979. Азернешр, 83 стр.
26. Ибрагимов Б.Г. Жизнь, отданная народу. Ваку, (Б.И.), 1989. 63 стр.
27. Əlizadə N. Lənkəran qəzası zəhmətkeşlərinin Sovet hakimiyyətinin qələbəsi və möhkəmləndirilməsi uğrunda mübariəsi tarixindən. Bakı, 1963. Azərnəşr, 111 səh.
28. Токаржевский Е.А. Из истории нестранной интервенции и гражданской войны в Азербайджане, Ваку, Изд.-во АН. 1957, 332 стр.
29. История Азербайджана. т.III, I ч., Ваку, Азернешр, 1963. 548 стр.
30. "Azərbaycan " qəzeti, 30 iyul, 1 c., 1919-cu il.
31. Авалов З. Независимось Грузии в международной политике. Париж, (б.и.), 1924. 318 стр.
32. Директивы Главного командования фронтов Красной Армии. (1917-1922 гг.), Сб. док. в IY, т.III. М., Воен.издат. 1974. 788 стр.
33. Nəsibzadə N. Azərbaycan Demokratik Respublikası. Bakı, Elm. 1990, 94 s.
34. Дарабади П. Военные проблем политической истории Азербайджана в начале XX века. Ваку, 1991. Элм. 203 стр.
35. Декреты Азревнома. Ваку, Азернешр, 1988, 519 стр.
36. İbişov F. Azərbaycan kəndində sosial iqtisadi proseslər (1920-1930). Bakı, Mütərcim. 1996, 168 s.
37. Qarabağ Azadlıq Təşkilatı. "Qarabağ dünən, bu gün, sabah" 14-cü elmi-əməli konfransın materialları. Bakı, 2015. 224 s.
38. Qarabağ Azadlıq Təşkilatı. "Qarabağ dünən, bu gün, sabah" 4-cü Ümumrespublika elmi-əməli konfransın materialları. Bakı, 2005. 232 s.

**Т.А.Гасанов**

## Резюме

## Политическая ситуация на Каспийской прибрежной территории Азербайджана (1919-1920-е годы)

В статье широко исследуются политические события, произошедшие на азербайджанских прибрежных территориях Каспия, освещённых в материалах архивных документов, исторической

литературы и периодической печати. Братская помощь Кавказской Тюркской Исламской Армии выступающей против большевистское - дашнакского зверства Бакинской Коммуны обоснована полноценный фактами - Батумское и Мудуросское договоры, признанные де-факто Азербайджанской Демократической Республики Парижской мирной конференцией, после оккупации Азербайджана большевистской Российской XI Армией, последующие восстания местного тюркско-мусульманского населения – всё это исследуется основании обширных фактических материалов.

**T.A.Hasanov**

**The political situation in the Caspian Sea territory of Azerbaijan**

**(1918-1920 years)**

**Summary**

In the article, on the basis of archival documents, historical literature and periodicals political events that took place in Azerbaijan's Caspian Sea coasts has been widely studied. Based on the solid facts the Caucasian Islamic Army's fraternal help against the brutality of Baku Commune's bolsevik-Dashnak is illuminated.

Batum and Mudros agreements, de facto recognition of the People's Republic of Azerbaijan in Paris peace conference, rebels of the local Muslim population after the occupation of Azerbaijan by XI Army of Bolshevik Russia is extensively investigated with the actual materials.

**Yasəmən Qaraqoyunlu**

## Qarabagın işgaldan azad edilmə siyasətində Azərbaycanın buraxdıgı səhvlər

Fikrimcə Azərbaycan yalnız Ermənistanla müharibədə yox, həm də müharibənin nəticələrinin aradan qaldırılması yönümündə aparılan beynəlxalq danışıqlarda məglub olmuşdur. Beləki, biz beynəlxalq diplomatik danışıqlarda problemin qoyuluş fəlsəfəsində və təqdim edilmə formatında məglub olmuşuq.

### Problemin qoyuluş fəlsəfəsində səhvlərimiz

Məlumdur ki, indiyə qədər ATƏT- in Minsk qrupunun fəaliyyətində daim

Qarabaga hər hansı “statusun” verilməsindən danışılmışdır. Təklif olunan bütün sənədlərdə və proqramlarda “Qarabagın statusu” müzakirə obyekti olmuşdur. Azərbaycan televiziyalarında, medyada, diplomatik nümayəndələrin, palitoloqların dilində də tez- tez eşidirik “Qarabag konflikti”. Fikrimcə bu ifadə işlədilməməlidir.Biz səhv edirik, bu yolverilməzdir. “Qarabag Konflikti” dedikdə iki məsələdə səhv edirik. Birincisi bu deyimdə Qarabag müstəqil siyasi subyekt kimi göstərilir, halbuki Qarabag unitar Azərbaycanın tərkib hissəsidir. ikincisi “Qarabag konflikti” yoxdur , Azərbaycan-Ermənistan müharibəsi var və Azərbaycan torpağı Qarabağ və ətraf 7 rayon Ermənistan və Rusiya birliyi tərəfindən işgal olunmuşdur. , Azərbaycan-Ermənistan müharibəsi deyimini işlətməliyik və belə qəbul etdirməliyik. Lakin ATƏT-in Minsk Qrupunun təklif etdiyi bütün sənədlərdə Mərhələli Həll, Paket Həll, Ümumi Dövlət proyekti, Madrid prinsipləri proqramlarında “Qarabag” müstəqil subyekt kimi göstərilir və bu “subyektin” “statusu”ndan” danışılmqla əslində “müstəqilliyi”nə cəhd edilir. ATƏT-in Minsk Qrupunun fəaliyyətində Azərbaycan-Ermənistan müharibəsi nəticəsində işgal olunmuş Azərbaycan torpaqlarının işgaldan azad olması yox, “Qarabag konfliktindən” və “Konfliktin həlli ” üçün “Qarabagın statusundan” danışılır. Biz məhz bu nöqtədə uduzmuşuq və bu formatı dəyişməliyik. ATƏT-in Minsk qrupunun təklif etdiyi sənədlərin və danışıqların bu formatda olması bizim dövlət və millət maraqlarımıza ziddir. Bu ifadələrin işlədilməsinə yol verməyimiz bizim səhvimizdir. Biz səhvlərimizi düzəltməliyik. Azərbaycan Ermənistan müharibəsinin “Qarabag konflikti” adlandırılması Erməni milli maraqlarına xidmət edir və Ermənistanın birbaşa işgalçı dövlət olmasını, işgal siyasətini dolayısıyla ört –basdır edir. “Qarabag konflikti” deyimi ilə:

1.Ermənistanın işğalçı dövlət olmadıgı, müharibədə birbaşa iştirak edən tərəf olmadıgı, etiraf olunur.

2. Müharibənin işgalçı Ermənistanla –Azərbaycan arasında yox, Qarabagla-Azərbaycan arasında getdiyi dünyaya qəbul etdirilir və burda Ermənistan işgalçı yox, guya “Qarabağda əzilən erməni soydaşlarının hüquqlarını müdafiə edən dövlət” kimi çıxış edir.

Beləliklə də hələlik, məsələnin qoyuluş fəlsəfəsində və diplomatik danışıqlarda Ermənilər bizə qalib gəlmişlər.

1. “Qarabağ konfliktinin həlli” deməklə və həll yolu kimi “Qarabagın statusu”nun beynəlxalq danışıqlarda “müzakirə predmeti olunmasına” nail olmaqla əslində Azərbaycanın bir parçası olan Qarabagın müstəqil subyekt kimi, ərazi vahidi kimi dünyaya və bizə qəbul etdirməyə nail olublar.
2. Ermənistan-Azərbaycan müharibəsini Qarabağla-Azərbaycan arasında gedən müharibə kimi təqdim etmişlər. Eyni zamanda ikinci böyük səhvimiz ATƏT-in Minsk Qrupunun danışıqlarında yerli Azərbaycanlıların ( “Qarabag azərbaycanlıları” termini işlədilir ki, burda da Qarabagın müstəqil subyekt

oldugu təsdiq ollunur) “İcma “kimi iştirk etməsidir. İcma etnik və ya milli azınlıgı ifadə edən termindir. Azərbaycanlılar Qarabagda icma deyil, yerli, dominant xalqdır. Ermənilər bu əraziyə Çar rusiyası tərəfindən köçürülmüş, beləliklə demoqrafik vəziyyətin ermənilərin xeyrinə süni dəyişdirilməsinə nail olmuşlar. Beləliklə ermənilər Qarabagda cogunluq, azərbaycanlılar azınlıq durumuna düşmüşlər. “İcma” termini də dolayısıyla bunun təsdiqidir, ermənilərin “dominant”, azərbaycanlıların “icma” oldugunun etiraf olunmasıdır. Beləliklə də beynəlxalq danışıqlarda 2005-ci ildən etibarən “ Daglıq Qarabagın azərbaycanlı icması” ifadələri yer almaqdadır. Burda da Qarabag müstəqil ərazi subyektini, azərbaycanlı icma da azərbaycanlı azınlıgı ifadə edir. Beləliklə beynəlxalq danışıqlarda “Qarabagın azərbaycanlı icması”nın siyasi-hüquqi status qazanılması ilə gələcəkdə “Qarabagın statusunun” həlli ilə baglı keçirilməsi planlaşdırılan referendumda onların iştirakı və söz, iradə haqqı tanınır və Qarabagın statusunda həlledici rəy, söz Azərbaycan dövlətinin və xalqının iradəsi yox, “Qarabagın azərbaycanlı icması”nın iradəsi ilə həll edilir. Bu “icma” isə azınlıqdır, ermənilər isə “çoxluq”dur və təbii ki, Qarabagın statusu ilə baglı hər hansı gələcək referendumda həlledici qərarları “çoğunlluq”olan ermənilər verəcəkdir. Beləliklə bu “İcma”nın hüquqi tərəf kimi danışıqlarda iştirakı ilə dolayısıyla Azərbaycan dövləti və xalqı “Qarabagın statusu”nun həllindən kənarlaşdırılır, təcrid edilir. Bütün bunlar yolverilməzdir. Danışıqlarda Azərbaycan höküməti iştirak etməli, Azərbaycan dövlətinin iradəsi əks olunmalıdır.

**Belə oldugu halda biz nə etməliyik?**

23 ildir ki, ATƏT-in Minsk Qrupunun fəaliyyətində əks olunan və nəticə verməyən formatın dəyişdirilməsinə nail olmalıyıq və bu məsələyə yeni kontekstdən baxmalıyıq. Bu, “dondurulmuş” müharibənin sülhə çevrilməsində dönüş yarada bilər . Yeni kontekst nədən ibarətdir?

Bu format ondan ibarətdir ki, Nə “Qarabag konflikti”ndən danışılmalılıdır, nə də “Konfliktin həlli” kimi “Qarabagın statusundan” danışılmalıdır. Ermənistanın işgalçı dövlət olması bütün dünyaya qəbul etdirilməlidir. Qarabagın və ətraf 7 rayonun Ermənistanın Azərbaycana qarşı apardıgı işgalçılıq müharibəsi nəticəsində işgal olundugunu, Ermənistanın işgalçı dövlət oldugunu və qeydsiz şərtsiz işgal etdiyi torpaqlardan çıxmaları tələb olunmalıdır. Bunun beynəlxalq hüquqi əsasları da var. BMT TŞ 1993-cü ildə 822, 853, 874,884 saylı qətnamələrinin yerinə yetirilməsi tələb olunmalıdır. Birinci mərhələdə Ermənistanın işgal etdiyi Azərbaycan torpaqları işgaldan azad edilməlidir. Ikinci mərhələdə isə Azərbaycan vətəndaşları olan Ermənilərin statusundan( “Qarabag erməniləri”nin deyil, Azərbaycan vətəndaşı olan ermənilərin) və eyni zamanda Ermənistandan 1988-ci ildə Etnik təmizləmə və soyqırıma məruz qalmış Ermənistan vətəndşları olan Azərbaycan türklərinin statusundan söhbət gedə bilər. Ermənistandan deportasiya olunmuş türklər öz torpaqlarına, ölkələrinə qayıtmalıdır, Ermənistn hökümətinin idarə olunmasında

və parlamentdə bərabərhüquqlu vətəndşlar kimi iştirak etməlidirlər. Ermənistan heç vaxt mono etnik dövlət olmayıb, bura qədim türk torpagıdır və yerli xalq öz ölkəsinə qayıtmalıdır. Əgər bu format qəbul ediləcəkə müharibə bitə bilər və Cənubi Qafqazda sülh və sabitlik təmin olunar. Biz bunun adını "0 vəziyyətə qayıdış" adlandırırıq. Bu yerinə yetirilmədikdə isə müharibəyə başlanılmalıdır. Azərbaycan öz torpaqlarını müharibə yolu ilə azad etməlidir.

## Azərbaycan-Ermənistan müharibəsi. Qərbin ikili standartlar siyasəti.Qərb Azərbaycanın strateji tərəfdaşıdırmı?

Mən ümumiyyətlə ABŞ və Qərbin Ermənistanın Azərbaycan torpaqlarını işgaldan azad etməsində maraqlı olan ölkələr hesab etmirəm, bu məsələdə onları Azərbaycanın tərəfdaşı, müttəfiqi kimi də görmürəm. Əksinə, Ermənistanın işgalçı siyasətinin arxasında Rusiya ilə bərabər bu ölkələrində durdugunu iddia edirəm. Hesab edirəm ki, Aərbaycan topaqlarını Rusiya Ermənistanla bərabər işgal etmişdir, Qərb – ABŞ cütlüyü və İran isə bu işgala dəstək verməkdədir. Bu fikrimi əsaslandırmaq üçün onlarla fakt göstərə bilərəm. Birincisi gəlin tarixdən başlayaq və tarixi ardıcıllıga diqqət edək.Bu gün baş verənlərin keçmişdəkilərin davamı və nəticəsi oldugunu görəcəyik. Hazırda Azərbaycana, türklərə qarşı gedən siyasəti anlamaq üçün son 300 ildir bu cografiyada həyata keçirilən Qərbin müstəmləkəçilik siyasətini təhlil etmək lazımdır. Bu siyasət indi də davam etməkdədir, hal-hazırda Yaxın və Orta Şərq cografiyalarında məskunlaşaraq, imperatorluqlar, bəyliklər,ulus dövlətləri quran Türklərin hakim olduqları ərazilər yenidən bölünməkdə ,Türk cografiyasının daralması prosesi davam etməkdədir. XVIII əsrdən etibarən bu proses üç mərhələli aparılmaqdadır.

1.İmperatorluqların (Osmanlı,Qacar, Babur) dagıdılmsı və ərazilərinin bölüşdürülməsi.Türklərin hakimiyyətdən devrilməsi və ikinci qrup azınlıq halına salınması. Hind-Avropa qrupuna məxsus xalqların türk cografiyalarında dövlətlərinin qurulması (Fars, Erməni, Kürd).
2.Türk Ulus Dövlətlərinin dagıdılması.
3.Dövlətlərini itirərək azınlıq durumuna salınmış türklərin assimilyasiya, etnik təmizləmə və soyqırıma ugradılması ilə torpaqlarının mənimsənilməsi ( Ermənistan ,Əfqanıstan, Suriya, İraq, İran, Çin, Rusiya ). Əsrin əvvəllərində erməni, fars, indi isə kürd faktoru ilə Türklərin Yaxın və Orta Dogu cografiyasından silinməsi prosesi XVIII əsrdə Avropada formalaşmış "Hind-Avropa irqinə məxsus xalqların dünya liderliyi –Ariya irqçiliyi ", Pyotrun "Vəsiyyətnaməsi", Yekatrinanın "Şərq Layihəsi", Rusiya və İngiltərənin "Böyük Oyun" siyasəti doktrinləri ilə həyata keçirilirdisə, indi ABŞ-Avropa Birliyi rəhbərliyi ilə "Böyük Orta Dogu " projesi adı altında həyata keçirilir. (Əfqanıstan, Suriya, Ermənistan, İran, Iraqda əhalinin yarısını təşkil edən türklərin etnik təmizləmə və soyqırıma məruz qalması ilə). Yaxın və Orta Şərq cografiyalarının bölünməsində XX əsrin əvvəllərində İngiltərə-Fransa-Rusiya

baş rol oynayaraq, min illərdir bu cografiyaya hakim olan türklərin buradan silinib atılması üçün erməni, aysor (assurr), serb, ərəb, fars, kürd xalqlarını türklər əleyhinə istifadə edirdilər. Bu cografiyadakı siyasi xəritələr İngilltərə-Rusiya arasında gedən "Böyük Oyun" adlı siyasi rəqabət əsasında İngilis -Rus nüfuz dairələrinə uygun cızılmışdı. Bu siyasət əsasında Osmanlını böldülər, Qacarları devirərək Fars İran dövləti qurdular, Azərbaycanı bölərək Ermənistan dövləti qurdular, XXI əsrdə isə bu cografiya ABŞ və Avropa birliyinin maraqları əsasında yenidən bölünərək paylaşılmaqdadır. Yeni siyasi oyunların əsas aktoru isə Kürdlərdir. Bu dəfə Ermənilərlə bərabər Kürdlərdən istifadə edilməkdədir. Kürdlərin Kərkük bölgəsində Dövlət qurma cəhdləri Azərbaycanın maraqlarına ziddir.Çünki bu bölgə qədim Azərbaycan tarix və mədəniyyətinin yarandıgı bir bölgədir.

Beləliklə Türkiyə, İran və Azərbaycan cografiyasında yaşayan Türklərin müştərək bir proqramı hazırlanmalıdır. Bu proqramda birincisi- İraq, Suriya, Livan, Türkiyə, İran, Azərbaycan dövlətlərini təhdid altında saxlayan kürd faktoruna, ikincisi Türkiyə və Azərbaycanı bölərək böyük Ermənistan qurmagı hədəf alan Erməni faktoruna qarşı müdafiə siyasəti hazırlanmalıdır. Bu proseslər Türkiyə və Azərbaycanı yeni siyasi doktrin və paradiqmalar yaratmaq zərurəti qarşısında qoyur. Erməni məsələsinə gəldikdə isə, hər kəs bilir ki, Ermənilər tarix səhnəsinə Rusiyanın dəstəyi ilə çıxmışlar. Ermənilərin Dənizdən-dənizə (Qara dəniz-Aralıq dənizi-Xəzər Dənizi) böyük Ermənistan planı Çar Rusiyasının isti dənizlərə enmək, Bosfor və Dardanel bögazlarından keçərək İstanbulu fəth etməsilə Böyük Roma Dövlətinə çevrilmək planının tərkib hissəsi kimi 18-ci əsrdən 21-ci əsrə qədər Azərbaycanda Rusiyanın dəstəyi ilə həyata keçirilməkdədir. Əsası rus çarı I Pyotr tərəfindən qoyulan ermənilərin himayə edilməsi siyasəti sonralar digər rus çarları və Sovet Rusiyası tərəfindən davam etdirilib. 1828-ci ilin mart ayının 21-də çar I Nikolayın əmri ilə Naxçıvan və İrəvan xanlıqlarının inzibatı ərazisində müvəqqəti "erməni vilayəti" yaradıldı və İrəvan (Yerevan) şəhəri paytaxt kimi ermənilərə "hədiyyə" edildi. 1876-cı ildə II Yekaterina ermənilərin xüsusi himayə edilməsi haqqında əmr imzalamışdır. Beləliklə Ermənilər himayə edilmiş, silahlandırılmış, təşkilatlandırılmış və Erməni dövlətinin qurulmasını hədəf alan bir millət kimi formalaşdırılmışdır. Bütün XX əsr böyu Ermənnilər 5 dəfə "dövlət" qurmaga cəhd etmişlər. 1.Cənubi qafqaz erməni dövləti; 2.Şərqi anadolu erməni dövləti; 3.Adana-Çuxurova(Kilikiya) Erməni dövləti; 4.Urmiyda-Erməni-Kürd-Aysor konfederasiyası(Cilovluq hərəkatı); 5.Bakıda Şaumyanın qurdugu saxta Sentrokaspi hökuməti. Bütün bu "Dövlətlər" bu ərazilərdə yerli türklərin kütləvi şəkildə vəhşicəsinə soyqırıma ugradılması ilə "qurulurdu" və bütün bu erməni vəhşiliklərinin arxasında ingilis framason təşkilatları, Xristian missionerləri və Rus çar-bolşevik siyasətçiləri dayanırdı. Bununla baglı yüzlərlə tarixi mənbələr, Osmanlı və Azərbaycan Demokratik Cümhuriyyətinin hökümət protokolları, hesabatları var. Əgər Türkiyəyə qarşı irəli sürülən saxta "Erməni soyqırımı" nın araşdırılması ilə baglı beynəlxalq komissiya yaransa, Türklərə qarşı həyata

keçirilən bütün bu Erməni cinayətlərinin arxasında duran Rusiya, İngiltərə,Fransa kimi dövlətlər də cinayət məsuliyyətinə cəlb olunacaqdır. Erməni kartı, İngiltərə-Fransa-Rusiya dövlətləri tərəfindən Qacar və Osmanlı Türk imperatorluqlarının çöküşü üçün istifadə ediliməyə başlandı və ugur qazandı. Bütün tarixi faktlar isbat edir ki, Erməni məsələsi, Ermənilərin Türklərə qarşı törətdikləri soyqırımlar və Qərbi Azərbaycanda yerli Türklərə qarşı etnik təmizləmə aparmaqla Ermənistan dövlətinin qurulması, Qarabagın və ətraf rayonlarının işgal edilərək Ermənistana birləşdirilməsi siyasəti Rusiyanın birbaşa iştirakı, Qərb ölkələrinin isə iqtisadi-siyasi, diplomatik dəstəyi ilə baş verməkdədir. Məqsəd Türkləri Anadoludan və Qafqazdan, İran cografiyasından,Yaxın və Orta Dogu xəritəsindən silmək və bu torpaqlara sahiblənməkdir.

XX əsrin əvvəllərində Ermənilər Azərbaycanın qərb torpaqlarında "Cənubi Qafqaz Erməni Dövləti"ni yatmaga nail oldular. SSRİ dövründə Azərbaycan torpaqları hesabına bu "Erməni dövləti" genişlənərək Ermənistan adlandı və SSRİ-nin subyekti oldu. 50-ci illərdən etibarən Erməni diasporu və Daşnaksütun partiyası birgə Erməni milli strategiyasını hazırladılar. "4 T proqramı" adlanan bu strategiyaya əsasən Türkiyənin Şərqi Anadolu bölgələri və Naxçıvan, Qarabag Ermənistana birləşdirilməli və "Böyük Ermənistan" yaranmalı idi. 50 ildən çoxdur ki, Erməni milləti bu "4T" adlı strateji siyasətini həyata keçirməklə Ermənistanın genişlənməsi ugrunda mübarizə aparırlar. 4T proqramına daxildir: a) erməni spyqırımının dünyada tanınması, b) Türkiyənin soyqırımı tanıması, c) Türkiyənin soyqırım əvəzinə təzminat ödəməsi, d) Türkiyənin şərqində–doğu anadolu bölgəsində Naxçıvan da daxil olmaqla ermənilərə torpaq verilməsi. 4T proqramı vasitəsilə Türkiyənin və Azərbaycanın bölünməsi və ərazilərinin Ermənistana birləşdirilməsi planlaşdırılır. Erməni İnqilab Federasiyası- " Daşnaksutyun" un liderlərindən Hrant Markaryan etiraf edir ki, "Soyqırımı" tanıtma fəaliyyətləri özbaşına bir məqsəd deyil,Qərbi Ermənistanı (Şərqi Anadolu-Qars-İqdır-Ərzurum-Y.Q) xilasetmə məramının bir hissəsidir". Bu plan əsasında Türkiyə və Azərbaycan arasında quru sərhədlərin aradan götürülməsi, bir-birindən təcrid edilməsi nəzərdə tutulur. Qarabagın Ermənistan tərəfindən işgal edilməsi, Qarabagda ikinci Erməni dövlətinin qurulması və bu "Dövlətin" Ermənistana birləşməsini təmin etmək siyasəti də "4T" proqramının tərkib hissəsidir. "Erməni Soyqırımı"nın tanıdılması 4T proqramının tərkib hissəsidir. Və Saxta "Erməni soyqırımı" iddialarının yayıldıgı areal-Avropa və Amerikadır. ABŞ da "Soyqırımı tanıyan ştatların sayı 30 keçib. Konqresdə isə "Soyqırımla" baglı iki layihə var. Həmçinin Qarabagın erməni işgalından azad edilməsini əngəlləyən 907-ci düzəliş də ABŞ-nın Erməni işgalına dəstək verməsini sübut etməkdədir. 907-ci düzəliş , "Rusiyada azadlığın, Avrasiyada demokratiyanın və açıq bazarın müdafiəsi haqqında akt" 1992-ci il oktyabrın 24-də ABŞ konqresi tərəfindəndən qəbul olunmuşdur. Həmin qanun SSRİ-nin dağılmasından sonra yeni müstəqil dövlətlərə yardım göstərmək haqqında ABŞ konqresinin ilk qanunvericilik aktıdır. 907-ci düzəliş senator Kerri tərəfindən (Masaçussets şt.)

irəli sürülmüş, həmkarlan Sarbanes, Saymons, de Konsini tərəfmdən dəstəklənmişdir. Burada söhbət Azərbaycana yardımın məhdudlaşdırılmasından gedir və göstərilir ki, Azərbaycan hökumətinin Ermənistana və Dağlıq Qarabağa qarşı bütün blokadalarının və qüvvədən təcavüzkarcasına (?) istifadənin ləğvi sahəsinde nümayişkaranə addımların atılmadığını prezident müəyyən etməyincə və bunu konqresə bildirməyincə Azərbaycan hökumətinə yardım göstərilməyəcəkdir. Bu sənəddə diqqət edilərsə Qarabag Azərbaycan torpagı kimi yox, müstəqil subyekt kimi göstərilmiş, Ermənistan işgalçı adlandırılmamış, Azərbaycan dolayısıyla təcavüzkar adlandırılmış, bir sözlə Ermənistan dəstəklənmişdir. Beləliklə o zamandan bu günə qədər ABŞı-ın Qarabagdakı erməni işgalı ilə baglı siyasəti dəyişməmişdir. ABŞ Ermənistanı və onun işgal siyasətini dəstəkləməkdədir. ABŞ-nın müttəfiqi olan Avropa ölkələrinin hamsı "Soyqırım"ı tanımaqdadır. 1987-ci ildə Avropa parlamenti "Erməni soyqırımı" iddiasını tanıdı, 2005-də isə bu qərarını təzələdi. Beləliklə, Avropanın bütün ölkələri , - Avropa Şurası, Avropa Parlamenti, Dünya Kilsələr Şursı, İnsan haqları Dərnəyi,YMCA Avropa Birliyi, Vatikan və s. kimi Avropa təşkilatları , ümumilikdə dünyanın 20-dən çox ölkəsi, ABŞ-ın 30 ştatı, "Erməni soyqırımını" tanımaqla Türkiyə ərazisini parcalamaq, Qarabagı Ermənistana birləşdirmək ideyasını gerçəkləşdirməkdədir. Bu məqsədlə 45000 sayt yaradılmış, çoxlu əsərlər yazılmış, rəsmlər və filmlər yayılmışdır. Və bütün bunlar Ermənilərin Qarabagı və ətraf 7 rayonu işgal etməsinə, Xocalı soyqırımına zəmin hazırlamışdır. Ermənilər Qarabagda işgal müharibəsinə başlayrkən ABŞ-nın Avropa Birliyinin siyasi-hüquqi dəstəyini artıq qazanmışdılar. Bu dəstək bu gün ATƏT-in Minsk qrupunun fəaliyyətində də öz əksini tapmaqdadır. Beləliklə qarşımızda belə bir mənzərə açılır. Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalına qarşı BMT TŞ 1993-cü ildə 822, 853, 874,884 saylı qətnamələrinin yerinə yetirilməməsi, Qarabağ müharibəsinin nəticələrinin aradan qaldırılması yönümündə fəaliyyət göstərən ATƏT-in MİNSK qrupnun 1994-cü ildən bəri davam edən fəaliyyəinin nəticəsiz qalması, ATƏT-in Minsk qrupunun indiyə qədər təklif etdiyi 1. Paket həll; 2. Mərhələli həll; 3. Ortaq dövlət proyekti; 4. Madrid prinsiplərinin Azərbaycan Milli maraqlarına zidd olması, bu sənədlərdə Qarabag müharibəsinin həlli ilə baglı əks olunmuş 1. Ərazi bütövlüyünün toxunulmazlığı, 2. xalqların öz müqəddaratını təyin etmək hüququ, 3.güc tətbiq etməkdən imtina prinsipləri ikili standartlar siyasətini əks etdirir və dolayısıyla Ermənistanın işgalçılıq siyasətinə bəraət qazandırmaga yönəlmişdir. ATƏT-in Minsk Qrupunun təklif etdiyi bu layihə və prinsiplər əslində Azərbaycan torpaqlarında müstəqil "Qarabağ" dövlətinin yaradılmasına və möhkəmlənməsinə xidmət etməkdədir. ATƏT-in MİNSK qrupu üzvləri Rusiya və Fransa Ermənistanın strateji müttəfiqləridir və saxta Erməni soyqırımını tanımaqdadırlar. Bütün bunlar- Ermənistanın Azərbaycan torpaqlarını işgal etmək siyasətinə bəraət qazandırmaq məqsədilə uydurulmuş saxta "Erməni soyqırımı" iddisının Qərb ölkələri tərəfindən tanınması Azərbaycanı məyus etməkdədir. ABŞ və Qərb daim Qafqazda enerji

təhlukəsizliyi maraqlarına uygun olaraq Azərbaycanın qarşısına erməni işgalının aradan qaldırılması siyasətində güc tətbiq etməmək şərtlərini qoyur.

## Ermənistan-Azərbaycan müharibəsi və Rusiya.

Bununla bərabər , qlobal siyasətdə iqtisadi cəhətdən zəifləyən, Qərblə ayaqlaşa bilməyən Rusiya təbliğat və siyasi təzyiq yolu ilə Cənubi Qafqaz ölkələrində təsirini qoruyub saxlamağa çalışır: məhz bu səbəbdən Avro-Atlantik ölkələrlə- Rusiya arasında gedən qlobal qarşıdurma və gərginlik çox tezliklə öz təsirini Cənubi Qafqaz ölkələrinə də göstərir. Cənubi Qafqaz ölkələrindən olan Azərbaycan balanslı xarici siyasət kursunu davam etdirdiyi halda, Gürcüstan AB və NATO-ya inteqrasiya xəttində qalır. Ermənistan isə tamamən Rusiyaya təslim olub. Dolayısı ilə Qərbə nisbətdə Rusiya region ilə daha dərin bağlara malik olsa da, Cənubi Qafqazı təsir altına alma mübarizəsi hələ də davam etməkdədir. Bu məqsədlə Rusiya Cənubi Qafqazda öz mövqeyini daha da gücləndirmək və post-sovet respublikaların ictimai rəyində öz təsirini qorumaq üçün yeni media orqanları qurur. Son bir necə ildə Rusiya həm dünya ictimai rəyinə və post-sovet ölkələrində ictimai rəyə təsir etmək üçün KİV siyasətində dəyişiklik edib. “Russian ToDay” (RT), “Sputnik” kimi yeni və daha keyfiyyətli KİV-lər qurulub. “Sputnik” bir radio və xəbər saytı olaraq demək olar bütün post sovet ölkələrinin dillərində yayımlanır. Rusiya həm güc yolu ilə bu ölkələri ətrafında tutmağa çalışır, həm də Qafqazda uzun müddət qala bilmək üçün ictimai rəyi “işğal” etmək məqsədilə “SOFT POWER” adlanan , “yumşaq güc”dən istifadə edərək qərbçi ictimai rəyi qırmaq üçün informasiya siyasəti yeridir.

Artıq Ermənistan SSRİ-nin prototipi sayılan Avrasiya İttifaqının və Gömrük İttifaqının üzvüdür, ancaq onun digər üzv-dövlətlərlə, o cümlədən Rusiya ilə quru əlaqəsi yoxdur. Belə əlaqə yalnız iki ölkə vasitəsi ilə mümkündür - Gürcüstan və Azərbaycan. **Rusiya 2008-ci ildə Gürcüstanın ayrılmaz tərkib hissəsi olan Abxaziya və Cənubi Osetiyanı onların müstəqilliyini “tanımaqla” de-fakto özünə birləşdirib, orada - böyük sayda hərbi kontingent, bazalar yerləşdirib. Abxaziya və Cənubi Osetiya separatçı qurumları ilə qarşılıqlı müqavilələr əsasında “ortaq ordu” yaradıb. Həmçinin Rusiya Ermənistana silah-sursat almaq üçün 200 milyon dollarlıq kredit verilməsi haqda qərar qəbul edib.** Eyni zamanda Rusiya Ermənistanla quru sərhədlərə malik olmaq üçün Rusiyanı Ermənistanla birləşdirən Abxaziya dəmiryolunun açılması məqsədilə Gürcüstana təzyiqlər etməkdədir. Bu, isə Gürcüstanın Abxaziya və Cənubi Osetiyanın müstəqilliyinin tanınması anlamına gəlir. Gürcüstanın Rusiyanın təzyiqlərinə davam gətirməyərək Avrasiya İqtisadi İttifaqı və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) qoşulması, avtomatik olaraq Azərbaycanın da Avrasiya İttifaqına qoşulması ilə nəticələnə bilər. Azərbaycanın Qərb üçün itirilməsi, bölgədən keçən neft-qaz kəmərlərinə, Xəzər dənizi akvatoriyasında nəzarətin

bütünlüklə Rusiyanın nəzarətinə keçməsi demək olacaq. Bu halda Cənubi Qafqazın Avro-Atlantik məkana inteqrasiya siyasəti fiaskoya ugrayacaq. Azərbaycan ətrafında baş verən bütün bu siyasi gərginliklər Azərbaycanı dərin məyus edir və "üçüncü yol" axtarışına sövq edir. Qərbin Ukrayna ilə baglı Rusiyaya qarşı sərt mövqe sərgiləməsi Azərbaycanda, xüsusilə də Qərb yönlü müxalifət mətbuatında ümid yaratdı ki, Qərb Qafqazdakı etnik problemlərlə baglı, xüsusilə Qarabağla baglı da sərt mövqe nümayiş etdirəcək. Məlumdur ki, Rusiyanın bu bölgədə, ümumən postsovet məkanında öz təsirini qoruyub saxlaması üçün etnik-ərazi konfliktlərinin davam etməsi çox önəmlidir. Əks halda, bu respublikaların həmçinin də Ermənistanın Rusiyanın orbitindən çıxaraq Avropaya inteqrasiyası qaçılmaz olacaq. Məhz bu səbəbdən Rusiya Qarabağın işgaldan azad olmasına imkan verməyəcək. Lakin Qərb Qarabag məsələsində Rusiya ilə konfrontasiyaya gedəcək qədər riskli siyasət yürütmür, heç onun belə bir maragı da yoxdur.Əksinə Rusiya Ermənistanla birlikdə Qarabağı işgal edən ölkədir, ABŞ və Qərb isə bu işgalı dəstəkləyən və Qarabagda erməni dövlətinin qurulmasına çalışan ölkələrdir. Qarabağın Ermənistan tərəfindən işgalı məsələsində bu ölkələrin maraqları toqquşmur,əksinə üst-üstə düşür. Eyni zamanda Cənubi Qafqaz qərbin sərhədlərindən çox uzaqdır və Qafqaz qərb üçün enerji təhlükəsizliyi siyasətinin,Təhlükəsizlik və əməkdaşlıq qurşagının sadəcə bir parçasıdır. Ukrayna ilə bağlı isə Qərb ona görə sərt mövqe ortaya qoydu ki, bu ölkə Avropa İttifaqının 4 üzvü ilə həmsərhəddir və Avropa ilə Rusiya arasında sanitar zolaq,bufer dövlət rolu oynayırdı və Ukraynanın işgalı ilə Rusiya birbaşa Avropa İttifaqının sərhədlərinə söykənərək Avropanın təhlükəsizliyini təhdid edir.. Ukraynadakı münaqişə və Rusiyanın ekspansiya siyasəti ümumilikdə Avropada 2-ci Dünya müharibəsindən sonra formalaşmış təhlükəsizlik arxitekturasına ciddi təhdiddir və bu baxımdan həm Avropa İttifaqının , həm də ABŞ-ın maraqlarına toxunur. Ukrayna məsələsində Qərbin özü təhlükədədir, məhz buna görə də Qərb öz həyati mənafelərini qorumaq üçün Ukrayna məsələsində çox aktiv hərəkət edir və edəcək. Qərbin Qarabağ məsələsi ilə bağlı maraqları və problemə cəlb olunma səviyyəsi Ukraynadakı qədər deyil. Ona görə də Ermənistanla Azərbaycan arasındakı müharibədə Rusiyanın dominantlığı qalır və belə də davam edəcək.

## Azərbaycanda anti Qərb ritorikası.

**Beləliklə deyə bilərəm ki, SSRİ dagıldıqdan sonra Azərbaycanın Avro-Atlanttik məkana inteqrasiya siyasətində Azərbaycanın milli maraqlarına uygun heç bir nəticə əldə edilməməsi və Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işgalının aradan qaldırılmasında Avropanın tətbiq etdiyi ikili standartlar siyasəti Azərbaycan xalqında və həmçinin məndə dərin məyusluq və ümidsizlik hissləri dogurmuşdur. Bu da Azərbaycanda , aydınlar arasında son dövrlərdə anti Avropa və anti ABŞ əhval**

**ruhiyyəsinin dogulmasına səbəb olmuşdur.**İşgalçı, terrorist Ermənistn dövlətinin maraqlarınıı birtərəfli şəkildə Xristian təəssübkeşliyindən və Hind-avropa irqçiliyindən irəli gələn baxışla müdafiə etməklə və saxta erməni soyqırımı iddilarını tanımaqla əslində Avropa Birliyi öz tarixinə, öz ideyalarına xəyanət edir. Renessans ideyalarının, İnsan haqları, azadlıq, bərabərlik, ədalət, demokratiya prinsiplərini özü ayaqlar altına alır. Ermənistan-Azərbaycan müharibəsinə münasibətdə ədaləti qorumaq elə Avropa prinsiplərini qorumaqdır. Bu isə Azərbaycanın xarici siyasət kursunda əsas yer tutan Avroatlantik məkana inteqrasiya siyasətini dəyişdirməyə məcbur etməkdədir. Məhz buna görə də mən MSDM-də Qərbçi olmadıgımı, Avro-Atlntik məkana inteqrasiya siyasətini dəstəkləmədiyimi bəyan etdim. Lakin bu o anlama gəlməz ki, mən Azərbaycanın Rusiyaya və ya İrana inteqrasiya olmasını dəstəkləyirəm. Əsla! Mən Rusiyanın da, İranın da düşməniyəm və bu dövlətlərin ölkəmin müstəqilliyinə vurdugu zərbələri də yaxşı bilirəm. Bu o anlama gəlməsin ki, mən Azərbaycanın təcrid olunmasından danışıram, xeyr, əsla! mən başqa format haqqında düşünürəm. Bu, "Üçüncü yol"axtarışıdır. **Qərb "ikili standartlar" siyasətini dəyişməlidir.** Mən hesab edirəm ki, bütün bu problemlərin aradan qalxması məqsədilə ABŞ və Avropa Birliyi Cənubi Qafqaz siyasətinə yenidən baxmalı,Azərbaycan-Ermənistan müharibəsinin nəticələrinin aradan qaldırılması məqsədilə ikili standartlar siyasətinə son qoymalı, Azərbaycanın işgal olunmuş torpaqları azad edilməli və Qafqazın Rusiyanın orbitindən xilas edilməsi yönümündə fəaliyyətini gücləndirməlidir. Qarabag Erməni işgalından azad edilməyənə qədər Azərbaycan Rusiyanın orbitində qalacaqdır.Və buna Azərbaycana qarşı ikili standartlar siyasəti yeridən Qərb ölkələri səbəb olmaqdadır. Azərbaycan bu müharibədə təkdir. Türkiyənin dəstəyi istisna olmaqla.Lakin, Qərb Türkiyəyə Ermənistanla sərhədlərin açılması,"Erməni açılımı"basqısı etməklə iqtisadi durgunluq keçirən Ermənistanı blokadadan qurtarmaqla gücləndirmək siyasəti yeritməklə Azərbaycanı Türkiyə dəstəyindən də məhrum etmək istəyir. O halda Azərbaycan ictimaiyyəti soruşma haqqına sahibdir ki, ey Qərb, Amerika sənin regionda strateji müttəfiqin olmaqda və maraqlarını qorudugum halda, qarşılıgında mənə verdiyin nədir? Dediyim kimi, Rusiya və Ermənistan Qarabagda işgalçıdır, Qərb və ABŞ bu işgalın dəstəkləyicisi. Əgər Qərb bizim strateji müttəfiqimizdirsə Rusiyanın işgal etdiyi Qarabagın işgaldan azad edilməsinə niyə çalışmır,əslində hər gün müharibə davam edir, biz daim şəhid veririk. Bu dayanmasa təkrar edirəm Azərbaycanda dini fundamentalizm güclənəcək, Anti Qərb- anti Amerika əhval Ruhiyyəsi artacaq, Rusiyaya, İrana yönəlik siyasi dairələr güclənəcək. Qərb ikili standartlar siyasəti ilə son 20 ildə Azərbaycanda formalaşmış qərb yönümlü siyasəti dəstəkləyən elitanı və elektortı zərbə altında qoyur.

**Üçüncü yol axtarışı başlamalıdır. Bəs belə bir vəziyyətdə Azərbaycan nə etməlidir? Üçüncü yol axtarışı başlamalıdır. Regional birliklər, bloklar qurulmalıdır. Məncə bu iki formatda ola bilər. 1.Gürcüstan-Azərbaycan – Türkiyə bloku qurulmalıdır. 2.Gürcüstan-Azərbaycan-Türkiyə-Pakistan-**

